RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 7 (10027) 14 yanvar 2026-cı il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





## Azərbaycan Prezidenti müdafiə sənayesinin inkişafına xüsusi diqqət yetirir

### Tərtər Elektromexanika Zavodu yenidənqurmadan sonra istifadəyə verilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Tərtər Elektromexanika Zavodunun yenidənqurmadan sonra açılışında iştirak edib. Dövlət başçısı əvvəlcə Ulu Öndər Heydər Əliyevin zavodun həyətində ucaldılmış büstü önünə gül dəstəsi qoyub.

Ölkə prezidentinə müəssisədə yaradılmış şərait barədə məlumat verildikdən sonra bildirilib ki, zavod 1976-cı ildə Lionozovo Elektromexanika Zavodunun Tərtər filialı olaraq yaradılıb. 1977-ci ilin aprelində fəaliyyətə başlayan zavodda elektrotexnika sənayesi məhsulları və xüsusi təyinatlı məhsullar istehsal edilib. İlk illərdə burada mühərrikli qayıqlar üçün "Taxometr-spidometr" məhsulları hazırlanıb.

Zavodun əsasını qoymuş Ümummilli Lider Heydər Əliyev 1978-ci ildə onun rəsmi açılış mərasimində iştirak edib.

Prezident İlham Əliyevin 2005-ci ildə imzaladığı sərəncama əsasən Müdafiə Sənayesi Nazirliyi yaradılıb və Tərtər Elektromexanika Zavodu nazirliyin tabeliyinə verilib.

2

## Hələ çox görüşəcəyik



### Ağdərənin gələcək inkişafı çox parlaq olacaq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Ağdərə rayonunun Çapar, Heyvalı, Çıldıran, Aşağı Oratağ kəndlərində görülmüş işlərlə, Canyataq kəndində isə "Dəmirli" Filiz Emalı Kompleksinin fəaliyyəti ilə tanış olub.

Dövlət başçısı həmin gün həmçinin Ağdərə rayonunun Aşağı Oratağ kəndində Aşağı Oratağ, Çıldıran, Heyvalı və Çapar kəndlərinin sakinləri ilə görüşüb, şəhərin baş planı ilə tanış olub.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Ağdərə rayonunda Xüsusi Əməliyyat Mərkəzinin təməlini qoyub.

2-5

## Zəngəzur dəhlizi: Qafqazdan dünyaya açılan yeni nəqliyyat arteriyası




### Azərbaycan "Şərq-Qərb", "Şimal-Cənub" marşrutlarının əvəzolunmaz tranzit qovşağına çevrilir

Bakı yalnız Zəngəzur dəhlizi (TRIPP) ilə kifayətlənmir, strateji təhlükəsizliyini təmin etmək üçün alternativ yolları da paralel inkişaf etdirir. Ağbənd qəsəbəsində Azərbaycanın maliyyə vəsaiti hesabına tikilən körpü Naxçıvana ikinci alternativ yol açır. Bundan əlavə, Türkiyə ilə əldə olunan razılaşma əsasında inşa ediləcək Qars-Naxçıvan dəmir yolu muxtar respublikanın birbaşa Türkiyə və Avropa dəmir yolları şəbəkəsinə qoşulmasını təmin edəcək. Naxçıvandan yüklər iki əsas səmtə - həm Türkiyə vasitəsilə Avropaya, həm də İran üzərindən Yaxın Şərqə paylanacaq. Çindən Avropaya gedən yüklərin daşınmasında bu yol ən səmərəli və sürətli alternativlərdən biridir. Bu çoxşaxəli yanaşma Azərbaycanı həm şərq-qərb, həm də şimal-cənub oxunda əvəzedilməz strateji partnyora çevirir. Dəhlizin illik 15 milyon ton yük qəbul etmək imkanı onun iqtisadi gücünü göstərir. Layihə təkcə ticarəti deyil, həm də regionda təhlükəsizliyi, turizmi və humanitar əlaqələri də stimullaşdıracaq.

7

## Qədim Bakı yeniləşir və müasirləşir



Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində də bu mövzuya toxunub və bu inkişafın əsasında dayanan strateji yanaşmanı, mövcud problemləri və qarşıdakı mərhələnin əsas hədəflərini sistemli şəkildə ortaya qoyub. Dövlət başçısının vurğuladığı kimi, Bakının inkişafı yalnız yeni binaların tikintisi ilə ölçülmür. Əsas məqsəd insan amilinə söykənən şəhər modelinin qurulmasıdır ki, burada rahat nəqliyyat, keyfiyyətli kommunal xidmətlər, geniş ictimai məkanlar, sosial infrastruktur və ekoloji tarazlıq bir-birini tamamlayan elementlər kimi çıxış edir. Son illərdə Bakıda yaşayış massivlərinin genişlənməsi, yeni məktəb və xəstəxanaların tikilməsi, sosial xidmətlərin əlçatanlığının artırılması əhalinin tələbatına cavab verir. Bu isə paytaxtın təkcə inzibati deyil, həm də sosial-iqtisadi mərkəz kimi rolunu da gücləndirir.

Prezident İlham Əliyevin müsahibədə açıqladığı rəqəmlər şəhərdə bu sahədə görülən işlərin miqyasını aydın göstərir.

13

## Qarabağa açılan ilk hava yolu

### Füzuli Beynəlxalq Hava Limanı Azərbaycanın işğaldan azad olunan ərazilərdəki quruculuq əzminin möhtəşəm nümunələrindən biridir




Qısa zamanda ərsəyə gətirilən Füzuli aeroportu ən müasir səviyyədə inşa olunub. Hava limanının istənilən tip hava gəmisini qəbul etmək imkanları var. Uçuş-enmə zolağının uzunluğu 3000, eni isə 60 metrdir. Hava limanının müasir infrastrukturla təchiz olunan terminalı saatda ən azı 200 sərnişinin buraxılışına imkan verir. Görülən bütün işlər beynəlxalq norma və standartlara uyğun şəkildə həyata keçirilib. Burada avtomatlaşdırılmış sistemlərlə təchiz olunan Hava Hərəkətini İdarəetmə qülləsi tikilib. Bu isə Füzuli Beynəlxalq Hava Limanında ICAO və IATA standartlarına müvafiq qaydada uçuşların başlanmasını mümkün edir.

11

## Hədəf bəllidir

### Abşeron yarımadası, o cümlədən paytaxtda su və kanalizasiya sarıdan problem yaşanmamalıdır



Bakı və Abşeronda su təchizatı sistemi uzun illər ərzində formalaşmış mürəkkəb infrastruktur şəbəkəsidir. Ərazinin təbii su ehtiyatlarının məhdudluğu hər zaman əhalinin içməli suya çıxışını çətinləşdirdiyi üçün su təminatı əsasən kənar mənbələr hesabına həyata keçirilir. Kür çayı hövzəsindən gətirilən su, eləcə də yeraltı su ehtiyatları şəhərin əsas su mənbələri sırasında mühüm rol oynayır.

Qeyd edək ki, Bakının su təchizatı və kanalizasiya sistemlərinin əsas hissəsi 1980-ci illərin sonunadək formalaşdırılıb. O dövrdən bu günə qədər şəhərin yaşayış əraziləri 2,6 dəfə genişlənib, əhalinin sayı isə 2,1 dəfə artıb. Bu artım da təbii olaraq, köhnə infrastrukturun üzərinə əlavə yük salıb. Digər tərəfdən əsas magistral xətlərin böyük əksəriyyəti istismar müddətini başa vurub və mövcud nəzarət sistemləri müasir standartlara cavab verməməyə başlayıb. Boru xətlərinin orta istismar müddətinin 40-50 il olduğu nəzərə alınarsa, hazırkı sistemlərin texniki baxımdan köhnəldiyi aydın görünür.

Əslində, problemləri dərinləşdirən əsas amillərdən biri yağış sularının kanalizasiya xətlərinə yönləndirilməsidir. 1990-cı illərdə paytaxtda mövcud olan ayrıca yağış sistemlərinin kanalizasiya kollektorlarına çevrilməsi nəticəsində sistemlərdə əlavə yüklənmələr yaranıb və güclü yağıntılar zamanı daşmalar adi hala çevrilib.

8

◆ Prezident İlham Əliyevin Tərtər və Ağdərə rayonlarına səfəri

# Azərbaycan Prezidenti müdafiə sənayesinin inkişafına xüsusi diqqət yetirir

## Tərtər Elektromexanika Zavodu yenidənqurmadan sonra istifadəyə verilib













**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Tərtər Elektromexanika Zavodunun yenidənqurmadan sonra açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı əvvəlcə Ulu Öndər Heydər Əliyevin zavodun həyətində ucaldılmış büstü önünə gül dəstəsi qoydu.

Müdafiə sənayesi naziri Vüqar Mustafayev dövlətimizin başçısına müəssisədə yaradılmış şərait barədə məlumat verdi.

Bildirildi ki, zavod 1976-cı ildə Lionozovo Elektromexanika Zavodunun Tərtər filialı olaraq yaradılıb. 1977-ci ilin aprelində fəaliyyətə başlayan zavodda elektrotexnika sənayesi məhsulları və xüsusi təyinatlı məhsullar istehsal edilib. İlk illərdə burada mühərrikli qayıqlar üçün "Taxometr-spidometr" məhsulları hazırlanıb.

Zavodun əsasını qoymuş Ümummilli Lider Heydər Əliyev 1978-ci ildə onun rəsmi açılış mərasimində iştirak edib.

Prezident İlham Əliyevin 2005-ci ildə imzaladığı sərəncama əsasən Müdafiə Sənayesi Nazirliyi yaradılıb və Tərtər elektromexanika zavodu nazirliyin tabeliyinə verilib.

Müxtəlif növ hərbi təyinatlı məhsullar istehsal ediləcək müəssisədə bir sıra qabaqcıl dövlətlərdən alınmış müasir, yüksəkdəqiqlikli texnoloji avadanlıqlar quraşdırılıb. Texnoloji xətlərin layihələndirilməsi, istehsal axınlarının qurulması və seriyalı istehsala uyğunlaşma "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" QSC-nin yerli mütəxəssisləri tərəfindən icra edilib. Hazırda istehsal proseslərinin milli hərbi-texniki normalara, beynəlxalq keyfiyyət standartlarına uyğunlaşdırılması həyata keçirilir. Bu məqsədlə keyfiyyətə nəzarət laboratoriyası yaradılıb.

Zavodun ərazisində genişmiqyaslı tikinti və yenidənqurma işləri həyata keçirilib, yeni istehsalat binaları və sahələri, həmçinin köməkçi binalar istifadəyə verilib. Mövcud tikililərdə yenidənqurma işləri aparılıb, texnoloji prosesin tələblərinə uyğun olaraq ballistik və resurs sınaqları üçün xüsusi poliqonlar yaradılıb.

Qeyd edək ki, Azərbaycan Prezidenti müdafiə sənayesinin inkişafına xüsusi diqqət yetirir. Bu sahədə yerli şirkətlər qurulur, xarici tərəfdaşlarla əlaqələr genişləndirilir, ən müasir çağırışlara cavab verən texnologiyaların tətbiqi ilə istehsalın həcmi artırılır. Ötən il ölkəmiz 1,4 milyard manat dəyərində hərbi təyinatlı məhsul istehsal edib ki, bunların bir hissəsi Azərbaycan Silahlı Qüvvələrinin arsenalına, bir hissəsi isə ixraca yönəldilib. Hazırda Azərbaycan 20-yə yaxın ölkəyə hərbi təyinatlı məhsullar ixrac edir.

# Hələ çox görüşəcəyik

## Prezident İlham Əliyev Ağdərə rayonunun Çapar kəndində görülmüş işlərlə tanış olub







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Ağdərə rayonunun Çapar kəndində görülmüş işlərlə tanış olub.**

AZƏRTAC xəbər verir ki, Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov dövlətimizin başçısına kənddə görülmüş işlər barədə məlumat verdi. Qeyd edək ki, Çapar Ağdərə rayonunun İmarət Qərvənd kənd inzibati ərazi dairəsində, Qarabağ silsiləsinin cənub-şərq yamacında yerləşir. Burada qala və məbəd memarlıq abidələri var. Çapar kəndi Azərbaycan Silahlı Qüvvələrinin 2023-cü ildə həyata keçirdikləri antiterror əməliyyatı nəticəsində işğaldan azad edilib.

Çaparda mövcud olan fərdi evlərin sayı 104-dür. Onlardan da 41-i yararsız, 63-ü isə qismən yararlıdır. Evlərdən 40-ı artıq istismara hazırdır. İl ərzində daha 23 ev bərpa ediləcək. İlkin olaraq kəndə 26 ailə (96 nəfər) qayıdıb.

Burada sosial məsələlərin həlli ilə bağlı bir çox iş görülüb. Belə ki, 3 ədəd mövcud transformator və elektrik xətti bərpa edilib, yeni elektrik, qaz və rabitə xətləri çəkilib, su şəbəkəsi yaradılıb, su anbarları bərpa olunub. Uzunluğu 6 kilometrə yaxın olan kənddaxili yollar yenidən qurulub. Kənddə yeni salınmış park da sakinlərin istifadəsinə veriləcək.

Sonra Prezident İlham Əliyev kəndə köçən Kəmalə Dadaşovanın ailəsinə baş çəkdi və yaşayış şəraiti ilə maraqlandı. Doğma yurduna qayıtmasından sonsuz qürur duyduğunu bildirən Kəmalə Dadaşova Prezident İlham Əliyevə minnətdarlığını ifadə etdi. Dövlətimizin başçısı Kəmalə Dadaşovanı yeni evinə köçməsi münasibətilə bir daha təbrik etdi.

# Prezident İlham Əliyev Ağdərə rayonunda "Qozlukörpü" Su-Elektrik Stansiyasının açılışında iştirak edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Ağdərə rayonunun Qozlukörpü kəndində "Qozlukörpü" Su-Elektrik Stansiyasının (SES) açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, "Azərenerji" ASC-nin İdarə Heyətinin sədri Baba Rzayev dövlətimizin başçısına bu stansiya, həmçinin Qarabağda və Şərqi Zəngəzurda yerləşən su-elektrik stansiyalarının vəziyyəti, Tərtərçay silsiləsinin mövcud və perspektiv hidroenerji potensialı barədə məlumat verdi.

Bildirildi ki, işğaldan azad edilmiş ərazilərimizdə istismar olunan 307 MVt gücündə 38 su-elektrik stansiyasında 2025-ci ildə 750 milyon kilovat-saat "yaşıl enerji" istehsal edilib. Bununla da 160 milyon kubmetr təbii qaza qənaət olunub, 280 min ton karbon qazının atmosferə atılmasının qarşısı alınıb. Tərtərçayın hidroenerji potensialının 30 SES olması müəyyən edilib. Hazırda 22 SES "Azərenerji" ASC tərəfindən istismardadır, 5 SES-in tikintisi icra olunur, 3 SES-in inşası nəzərdə tutulur. Qeyd edək ki, Tərtərçay tamamilə ölkə daxilində formalaşır.

Prezident İlham Əliyevin Qarabağın və Şərqi Zəngəzurun "yaşıl enerji" zonasına çevrilməsi ilə bağlı tapşırığına uyğun olaraq Ağdərə rayonunda, regionun ən iri su arteriyası olan Tərtərçay üzərində inşa edilmiş "Qozlukörpü" Su-Elektrik Stansiyası 14,7 meqavat gücündədir. Sərt relyef, iqlim şəraiti və çətin logistika səbəbindən tikinti prosesi digər bölgələrlə müqayisədə daha çox vaxt tələb etməsinə baxmayaraq, layihə qısa müddətdə uğurla icra olunub.

Dəniz səviyyəsindən 955 metr yüksəklikdə müasir baş suqəbuledici qurğu yaradılıb. Bütün texniki və ekoloji amillər nəzərə alınmaqla inşa edilən bu qurğudan stansiyaya suyun ötürülməsi üçün çətin dağlıq ərazidə 13 kilometr uzunluğunda derivasiya borusu çəkilib. Burada ölkədə ilk dəfə olaraq müasir enerji istehsalında istifadə edilən qurğular quraşdırılıb. Onlar azsulu dövrlərdə 25 faiz, bolsulu dövrlərdə isə 100 faiz məhsuldarlıqla fasiləsiz işləyə bilir.

Ardı 3-cü səh.

◆ Prezident İlham Əliyevin
Tərtər və Ağdərə rayonlarına səfəri

# Hələ çox görüşəcəyik

## Prezident İlham Əliyev Ağdərə rayonunda "Qozlukörpü" Su-Elektrik Stansiyasının açılışında iştirak edib

*Əvvəli 2-ci səh.*

Stansiyanın ölkə enerjisisteminə qoşulması üçün açıq paylayıcı qurğu yaradılıb, həmçinin optik kabel xətti çəkilərək stansiya rəqəmsal idarəetmə sisteminə inteqrasiya olunub.

Burada il ərzində orta hesabla 43 milyon kilovat-saat elektrik enerjisinin istehsalı nəzərdə tutulur ki, bununla da 9,5 milyon kubmetr təbii qaza qənaət ediləcək, 18 min ton karbon qazının atmosferə atılmasının qarşısı alınacaq.

Qeyd edək ki, layihə çərçivəsində ətraf mühit amillərinə diqqət yetirilib. Belə ki, çay balıqlarının derivasiya borusuna daxil olmasının qarşısının alınması üçün xüsusi hidrotexniki qurğular tikilib. Bunlar, eyni zamanda zərərli maddələrin suya qarışmasının qarşısını almaqla, onun keyfiyyət göstəricilərində heç bir dəyişiklik etmədən aşağı axarda yenidən çaya qaytarır. Ətraf mühitə dost texnoloji avadanlıqlardan istifadə çay ekosisteminin dayanıqlığını təmin etməklə yanaşı, su ehtiyatının formalaşmasına da töhfə verəcək.









## Prezident İlham Əliyev Ağdərə rayonunun Heyvalı kəndində görülmüş işlərlə tanış olub





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Ağdərə rayonunun Heyvalı kəndində görülmüş işlərlə tanış olub.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına kənddə icra olunan abadlıq işləri və planlaşdırılan infrastruktur layihələri barədə məlumat verildi.

Heyvalı kəndi Ağdərə rayonunun eyniadlı inzibati ərazi dairəsində, Qarabağ silsiləsinin ətəyində yerləşir. İşğaldan əvvəl yerli əhalinin əsas məşğuliyyətini taxılçılıq, tütünçülük və heyvandarlıq təşkil edib, kənddə məktəb, klub və poçt kimi sosial obyektlər fəaliyyət göstərib. Kənd 2023-cü ildə həyata keçirilən antiterror əməliyyatı nəticəsində işğaldan azad edilib.





Qeyd edək ki, Heyvalıda mövcud olan 126 fərdi evdən 45-i artıq tam bərpa edilib və istismara hazırdır. İl ərzində daha 50 evin bərpası nəzərdə tutulur. Artıq doğma yurduna dönən 19 ailənin (74 nəfər) məskunlaşması üçün bütün zəruri şərait yaradılıb.

Kəndin yenidən qurulması çərçivəsində sosial infrastrukturun bərpası istiqamətində genişmiqyaslı işlər görülüb. Belə ki, 2 mövcud transformator, enerji və qaz xətləri bərpa olunub, yeni rabitə xətləri çəkilib. Sakinlərin içməli su ilə təmin olunması üçün 60 kubmetrlik çən quraşdırılıb və su şəbəkəsinin inşası üzrə işlərə başlanılıb. Bundan əlavə, 4,5 kilometr uzunluğunda kənddaxili yollar əsaslı şəkildə bərpa olunub və sakinlərin asudə vaxtı üçün yeni istirahət parkı salınıb.

Sonra Prezident İlham Əliyev kənd sakini Sarvan Abbasovun ailəsinə baş çəkdi, yeni evdə yaradılmış şəraitlə tanış oldu, məşğulluq imkanları ilə maraqlandı.

Sarvan Abbasov doğma torpaqlarına qayıtmağın sevincini bölüşərək, dövlətimizin başçısına və ordumuza minnətdarlığını ifadə etdi.

Prezident İlham Əliyev ailənin üzvlərinə doğma yurdlarında firavan həyat arzuladı.

## Ağdərə rayonunun Çıldıran kəndində görülmüş işlərlə tanışlıq

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Ağdərə rayonunun Çıldıran kəndində görülmüş işlərlə tanış olub.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına kənddə icra olunan işlər barədə məlumat verildi.

Qeyd edildi ki, Çıldıran Ağdərə rayonunun eyniadlı inzibati ərazi dairəsində, dağətəyi ərazidə yerləşir. İşğaldan əvvəl yerli əhalinin əsas məşğuliyyətini heyvandarlıq və bitkiçilik təşkil edib. Kənddə məktəb, mədəniyyət evi, kitabxana və tibb məntəqəsi fəaliyyət göstərib. Kəndin ərazisi tarixi abidələrlə zəngindir. Burada XII əsrə aid "Alban məbədi" və XIII əsrə aid "Qırmızı məbəd" memarlıq abidələri yerləşir. Azərbaycan Silahlı Qüvvələrinin 2023-cü ilin sentyabrında həyata keçirdiyi antiterror əməliyyatı nəticəsində kəndin işğalına son qoyulub.

Kənddə 177 fərdi ev mövcuddur ki, onlardan da 69-u yararsız, 108-i isə qismən yararlıdır. İndiyədək 28 ev istismara hazır vəziyyətə gətirilib. Bu il daha 30 evin bərpası planlaşdırılır. Hazırda ilkin olaraq kəndə 13 ailə (48 nəfər) qayıdıb.

Çıldıran kəndində 2 mövcud transformator, elektrik və qaz xətləri bərpa edilib, yeni elektrik, qaz və rabitə xətləri çəkilib. Bundan başqa, su nasosu istifadəyə verilib, ümumi həcmi 190 kubmetr olan su anbarları təmizlənib və subartezian quyusu təmir olunub, 8,4 kilometr uzunluğunda kənddaxili yollar bərpa edilib, park salınıb.









Sonra Prezident İlham Əliyev kəndə köçmüş Verdi Abdullayevin evinə baş çəkdi. Dövlətimizin başçısı ailənin yaşayış şəraiti ilə maraqlandı. Ailə başçısı Verdi Abdullayev söhbət zamanı keçmiş məcburi köçkünlük həyatından, işğal dövründə dağıdılmış infrastrukturdan söz açdı. Prezident İlham Əliyev keçmişin ağrılı günlərinin geridə qaldığını, artıq Ağdərədə əbədi və təhlükəsiz yaşayışın təmin edildiyini vurğuladı, ailə üzvlərini yeni evlərinə köçmələri münasibətilə bir daha təbrik etdi.

◆ Prezident İlham Əliyevin Tərtər və Ağdərə rayonlarına səfəri

# Hələ çox görüşəcəyik

## Ağdərənin Canyataq kəndində "Dəmirli" Filiz Emalı Kompleksinin fəaliyyəti ilə tanışlıq







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Ağdərə rayonunun Canyataq kəndində "Dəmirli" Filiz Emalı Kompleksinin fəaliyyəti ilə tanış olub.**

AZƏRTAC xəbər verir ki, iqtisadiyyat naziri Mikayıl Cabbarov və "Azerbaijan International Mining Company Limited" şirkətinin prezidenti və baş icraçı direktoru Rza Vəziri dövlətimizin başçısına kompleks barədə məlumat verdilər.

Bildirildi ki, kompleksə mis flotasiya zavodu, nəm tullantı anbarı, elektrik yarımstansiyası və digər tikililər daxildir. Mədən və istehsalat üzrə ümumi sahəsi 929 hektar olan kompleks Türkiyə və Almaniya texnologiyası əsasında yenidən qurulub. Yenidənqurma və bərpa işlərinə 15,3 milyon manat özəl investisiya yatırılıb.

"Dəmirli" Azərbaycanın işğaldan azad edilmiş ərazilərində dağmədən sənayesi üzrə işə başlayan ilk layihədir. Mis flotasiya zavodunda "Dəmirli" mədənindən çıxarılan filiz emal ediləcək və son məhsul - mis konsentratı istehsal olunacaq. Mis flotasiya zavodunun illik istehsal gücü 5,6 milyon ton filiz emalıdır.

1993-cü ildən Ermənistanın işğalı altında olan "Dəmirli" mis yatağı 2013-cü il mayın 13-dən etibarən təqribən 10 il ərzində qeyri-qanuni istismara məruz qalıb. O dövr üçün məlum olan 311 min ton çıxarıla bilən mis ehtiyatının 218 min tonu, yəni 70 faizi qanunsuz şəkildə hasil edilib.

Hazırda qalıq ehtiyatların ilkin istismar dövrü 2025-2030-cu illəri əhatə edir. Bu müddətdə Çin Xalq Respublikasına 1,6 milyard manat dəyərində konsentrat şəklində 85 min ton mis metalının ixracı nəzərdə tutulur. Bununla belə, qarşıdakı illərdə mədənin mis ehtiyatlarının artırılması proqnozlaşdırılır. İlkin geoloji kəşfiyyat məlumatlarına əsasən, burada 470 min tona yaxın əlavə mis ehtiyatı mövcuddur. Aparılacaq 4 illik geoloji kəşfiyyat və tədqiqat proqramı nəticəsində bu ehtiyatların çıxarıla bilən həcmi dəqiqləşdiriləcək.



Kompleksdə ilkin mərhələdə 980 nəfər daimi işlə təmin olunub. Onlardan 260 nəfəri keçmiş məcburi köçkün, o cümlədən işğaldan azad edilmiş ərazilərə qayıdan vətəndaşlardır. Növbəti illərdə əksəriyyəti yerli icmaları təmsil edən vətəndaşlar üçün daimi iş yerlərinin sayının 1250-yə çatdırılması planlaşdırılır.

Mədəndə hasilat Azərbaycan ərazisində bir sıra filiz yataqlarının kəşfiyyatı, işlənilməsi və hasilatın pay bölgüsü haqqında "AzerGold" QSC ilə ABŞ-nin "R.V. Investment Group Services" şirkəti arasında 2024-cü ildə bağlanmış saziş üzrə əməliyyat şirkəti "Azerbaijan International Mining Company Limited" tərəfindən aparılır.

Prezident İlham Əliyev tərəfindən 2024-cü ildə təsdiq edilmiş qanuna əsasən, hasilatın pay bölgüsü haqqında saziş üzrə dövləti təmsil etmək səlahiyyəti "AzerGold" QSC-yə həvalə edilib.

Layihə çərçivəsində ətraf mühitin mühafizəsi üzrə kompleks tədbirlər həyata keçirilib. İlkin vəziyyətin qiymətləndirilməsi və ekoloji monitorinqlər aparılıb, nəticələr əsasında Ətraf və Sosial Mühitə Təsirin Qiymətləndirilməsi sənədi hazırlanıb. Layihə müddətində toz və səs emissiyalarının azaldılması, torpaq və su resurslarının qorunması məqsədilə müvafiq monitorinq, laborator analizlər, yaşıllaşdırma işləri və suyun təkrar dövriyyə sistemləri tətbiq olunur. Həmçinin fəaliyyət dayandırıldıqdan sonra ərazilərin texniki və bioloji rekultivasiyası təmin ediləcək.

Bu layihənin icrası Azərbaycanda qeyri-neft sektorunun dayanıqlı inkişafının təmin olunması, ölkəmizin ixrac qabiliyyətinin artması, işğaldan azad edilmiş ərazilərdə təbii ehtiyatların səmərəli və qanuni istifadəsinin təmin olunması baxımından böyük əhəmiyyət kəsb edir. Eyni zamanda özəl investisiyaların cəlbi regionda sənaye və dağ-mədən sahəsinin müasirləşdirilməsinə və şaxələndirilməsinə, iqtisadi fəallığın artırılmasına, yeni iş yerlərinin yaradılmasına da mühüm töhfə verir. İşğaldan azad olunmuş ərazilərdə sahibkarlığın dəstəklənməsi istiqamətində Azərbaycan dövləti tərəfindən çox vacib qərarlar qəbul olunub. Həmin ərazilərimizdə dayanıqlı məskunlaşmanın, özəl təşəbbüslərin stimullaşdırılması, investisiyaların cəlbi və əlverişli biznes mühitinin formalaşdırılması əsas strateji hədəflərdən biri kimi müəyyənləşdirilib. Qeyd edək ki, işğaldan azad olunmuş torpaqlarımızda fəaliyyət göstərən hüquqi və fiziki şəxslər mənfəət, gəlir, əmlak, torpaq və sadələşdirilmiş vergilərdən, həmçinin bu ərazilərdə rezidentlər tərəfindən iqtisadi fəaliyyət sahələri üzrə idxal olunan texnika, texnoloji avadanlıq və qurğular, xammal və materialların idxalı 2023-cü il yanvarın 1-dən 10 il müddətinə ƏDV və gömrük rüsumundan azaddır.

Prezident İlham Əliyev süxurların partladılması üçün rəmzi düyməni basdı.

## Prezident İlham Əliyev Ağdərə rayonunun Aşağı Oratağ kəndində görülmüş işlərlə tanış olub









**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Ağdərə rayonunun Aşağı Oratağ kəndində görülmüş işlərlə tanış olub.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına kənddə həyata keçirilmiş sosial layihələr barədə məlumat verildi.

Bildirildi ki, bu kənd Ağdərə rayonunun eyniadlı inzibati ərazi dairəsində, dağətəyi ərazidə yerləşir. İşğaldan əvvəl kəndin əhalisi əsasən üzümçülük, heyvandarlıq, taxılçılıq və tütünçülüklə məşğul olub, burada məktəb, klub, kitabxana və tibb məntəqəsi fəaliyyət göstərib. Aşağı Oratağ kəndi Azərbaycan Silahlı Qüvvələrinin 2023-cü ildə həyata keçirdiyi antiterror əməliyyatı nəticəsində işğaldan azad olunub.

Kənddə ümumilikdə 308 fərdi ev var. Onlardan 148-i yararsız, 160-ı isə qismən yararlıdır. Hazırda 100 ev görülmüş bərpa işlərindən sonra istismara hazırdır. İl ərzində daha 60 ev əsaslı təmir və bərpa olunacaq. Kəndə ilkin olaraq 31 ailə (119 nəfər) qayıdıb.

Burada sosial infrastrukturla bağlı bir sıra işlər görülüb. Belə ki, 2 ədəd transformator və qaz xətti bərpa olunub, yeni elektrik, qaz və rabitə xətləri çəkilib, su nasosu istifadəyə verilib, ümumi həcmi 560 kubmetr olan su anbarları təmizlənib, subartezian quyusu təmir edilib. Uzunluğu 7 kilometrə yaxın kənddaxili yollar bərpa olunub. Sakinlərin istirahəti üçün park salınıb, futbol meydançası yaradılıb.

Sonra dövlətimizin başçısı kəndə köçmüş Anar Rüstəmovun ailəsinə baş çəkdi, yeni evdə yaradılmış şəraitlə tanış oldu. Söhbət zamanı Prezident İlham Əliyev ailə üzvlərinin məşğulluq imkanları ilə maraqlandı, onlara müasir infrastrukturla əhatə olunmuş doğma yurdda firavan və xoşbəxt həyat arzuladı.

Ev sahibi Anar Rüstəmov dövlətimizin başçısına yaradılmış şəraitə görə minnətdarlığını bildirdi.

## Prezident İlham Əliyev Ağdərənin Aşağı Oratağ kəndində Aşağı Oratağ, Çıldıran, Heyvalı və Çapar kəndlərinin sakinləri ilə görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Ağdərə rayonunun Aşağı Oratağ kəndində Aşağı Oratağ, Çıldıran, Heyvalı və Çapar kəndlərinin sakinləri ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısını salamlayan **qadın sakin** dedi: Sənin boyuna qurban, canım sənin boyuna qurban.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Necəsiniz? Necə yerləşmisiniz burada?

**Sakinlər:** Yaxşı.

**Prezident İlham ƏLİYEV:** Yaxşıdır hər şey?

**Sakinlər:** Yaxşıdır.

**Prezident İlham ƏLİYEV:** Allaha şükür. Təbrik edirəm sizi.

**Sakinlər:** Sağ olun.

**Prezident İlham ƏLİYEV:** Artıq üç gündür ki, Ağdərə rayonunun dörd kəndinə yerləşmisiniz. Bu münasibətlə sizi təbrik edirəm.

**Sakinlər:** Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Bütün bu kəndlərdə olmuşam: Çapar, Heyvalı, Çıldıran və Aşağı Oratağ kəndləri. Evlər gözəl təmir olunub, bərpa edilib. Son iki il ərzində biz işğaldan azad edilmiş Ağdərə rayonunun bütün qəsəbələrində, kəndlərində monitorinq aparmışıq. Birinci mərhələdə bərpa olunan kəndləri müəyyən etmişik və artıq Ağdərə rayonunun doqquz kəndinə keçmiş köçkünlər qayıtmışlar.

**Sakinlər:** Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Uzun illərin həsrəti arxada qaldı, haqq-ədalət Zəfər çaldı. Azərbaycan öz ərazi bütövlüyünü, suverenliyini bərpa etdi. Azərbaycanlılar öz dədə-baba torpaqlarına qayıdıblar və burada qürurla yaşayacaqlar, xoşbəxt yaşayacaqlar, rahat yaşayacaqlar. Əminəm ki, bundan sonra müharibə olmayacaq. Azərbaycan dövləti güclü dövlətdir.

**Kişi sakin:** Sizin sayənizdə, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:** Bizi güclü edən xalqımızdır, yumruq kimi birləşən millətimdir.

*Ardı 5-ci səh.*

◆ Prezident İlham Əliyevin Tərtər və Ağdərə rayonlarına səfəri

# Hələ çox görüşəcəyik

## Prezident İlham Əliyev Ağdərənin Aşağı Oratağ kəndində Aşağı Oratağ, Çıldıran, Heyvalı və Çapar kəndlərinin sakinləri ilə görüşüb

*Əvvəli 4-cü səh.*

**Sakinlər:** Qarabağ Azərbaycandır!

**Prezident İlham ƏLİYEV:** Son iki il ərzində, - antiterror əməliyyatından sonra, - 2023-cü ildən bu yana bütün bu bölgələrdə - Ağdərədə, Xocalıda, Xankəndidə, Xocavənddə həyat bərpa edilir. Beş il bundan əvvəl isə vaxtilə işğal altında olmuş digər ərazilərə köçkünlər qayıtmağa başlayıblar. Bu gün artıq 73 min insan - həm keçmiş köçkün, həm də ki, köçkün olmayan, amma azad edilmiş ərazilərdə işləyənlər, çalışanlar, oxuyanlar yerləşiblər və hər ay Qarabağa qayıdan vətəndaşların sayı artır. Burada şərait yaradılıb - işıq, su, qaz, yollar, iş yerləri.

Bu gün Qozlukörpü kəndində təxminən 15 meqavat gücündə su-elektrik stansiyasının açılışını qeyd etdik. Bu bölgə elektriklə tam təmin edilib. Hətta burada istehsal olunan enerji Azərbaycanın digər bölgələrinə də ötürülür. Yollar çəkilir. Buradan Tərtərə qədər, Kəlbəcərə qədər yollar tikilir, genişlənir. Bu gün "Dəmirli" Filiz Emalı Kompleksinin fəaliyyəti ilə də tanış oldum. Orada 1000-ə yaxın iş yeri yaradılır. Yəni iş yerləri ilə bağlı heç bir problem olmayacaq. Həm dövlət, həm özəl sektor tərəfindən şərait yaradılır. Eyni zamanda, bu gözəl, səfalı, mənzərəli təbiətdən istifadə edərək əkinçilik, heyvandarlıq, arıçılıq, meyvəçilik - bütün bu işlərlə mütləq məşğul olmaq lazımdır ki, siz burada rahat, firavan yaşayasınız.

**Kişi sakin:** Bu gün üçün Sizə çox-çox təşəkkür edirik. Siz dünyaya sübut etdiniz ki, Qarabağ Azərbaycandır! Sağ olun, var olun.

**Qadın sakin:** Mən Ağdərənin Çapar kəndindənəm. Mən bir şəhidin anasıyam, bir şəhidin də bacısıyam.

**Prezident İlham ƏLİYEV:** Allah rəhmət eləsin.

**Qadın sakin:** Bu gün mənim yanımda ikinci bir oğlum yoxdur. Azərbaycanın qeyrətli oğlanları mənim oğlumdur. Oğlum məni Sizə əmanət edib. Mən Azərbaycanın bütün şəhid anaları adından Sizə "Qarabağın qəhrəman oğlu" deyirəm.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Qadın sakin:** Siz də bizim ata yurdumuza, şəhidlərin qanı qədər, haqqı qədər










müqəddəs olan Qarabağa, Ağdərəyə xoş gəlmisiniz.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların qanı, canı bahasına, qəhrəman döyüşçülərimizin şücaəti, rəşadəti hesabına biz bu gün bu torpaqlardayıq. Biz şəhidlərimizin əziz xatirəsini qəlbimizdə əbədi yaşadacağıq. Onu da bildirməliyəm ki, şəhidlərimizin qanını artıq biz döyüş meydanında aldıq. Onların qanı yerdə qalmayıb. İşğal dövründə dəfələrlə bu sözləri biz eşitmişik, işlətmişik və bu arzularla yaşamışıq. Çünki torpaqların itirilməsi, böyük sayda şəhidlərin şəhadətə ucalması - bütün bu ədalətsizliklər bizi xalq olaraq çox incidirdi, ancaq bizi sarsıtmadı. Biz əyilmədik, iradəmizi göstərdik və döyüş meydanında həm şəhidlərimizin qisasını aldıq, həm də torpaqlarımızı qaytardıq. Son 80 il ərzində Azərbaycan kimi tam və mütləq Qələbə qazanan ikinci ölkə olmayıb. Müharibələr olub, münaqişələr olub, bu gün də davam edir. Amma heç biri tam və mütləq Qələbə ilə nəticələnməyib. Ancaq biz böyük xalq olaraq buna nail olduq, özü də cəmi 44 gün ərzində. Ondan sonra da bir gün ərzində. Biz şanlı Zəfərimizi, Zəfər yürüşümüzü iki mərhələyə bölərək həm də cavanlarımızı qoruduq. Çünki əgər 2020-ci il noyabrın 10-da müharibə dayanmasaydı, bəlkə də minlərlə şəhid verməli olacaqdıq. O cümlədən bax burada, bu dağlarda, Ağdərə dağlarında, Kəlbəcər dağlarında, Laçın dağlarında, Ağdamın minalanmış zolaqlarında minlərlə şəhid verə bilərdik. Biz onları qoruduq, onları qurban vermədik. Ancaq bilirdik ki, gün gələcək və biz bütün Qarabağı qaytaracağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik, mənfur düşməni torpaqlarımızdan qovacağıq və tam Qələbə qazanacağıq. İndi də burada, - bir tərəfdə şəhid anası, bir tərəfdə ağbirçək, - sizinlə bərabər durmuşuq. Bu, çox xoşbəxt bir hissdir, xoşbəxt bir gündür, gözəl bir gündür. Sizi ürəkdən təbrik edirəm, burada xoşbəxt yaşayın. Sağ olun.

**Sakinlər:** Allah Sizi qorusun!

❖ ❖ ❖

Sonra foto çəkdirildi.

❖ ❖ ❖

**Kişi sakin:** Cənab Prezident, Allahdan Sizə uzun ömür, cansağlığı arzu edirik. Həmişə bizim yanımızda olmusan, biz də sənin arxanda.

**Digər kişi sakin:** Allah o "dəmir yumruğ"u düşmənlərimizin başının üstündən əskik etməsin. Amin. "Dəmir yumruq", "Qarabağ Azərbaycandır!"

**Qadın sakin:** Mənim ən böyük sevincim Vətənimə qayıtmaq olsa da, həyatda ən böyük arzum cənab Prezidentlə görüşmək idi. Getdiyim bütün yerlərdə deyirdim ki, bir gün mənim əlim o kişiyə çatacaq. Mənim əlim çatdı. Ən böyük sevincim, cənab Prezidentlə görüşməkdir.

**Kişi sakin:** Çox sağ olun. Allah Sizi qorusun.

**Qadın sakin:** Çox istərdim ki, gələcəkdə bir dəfə də Ağdərədə, Çaparda mənim evimin qonağı olasınız. Allahım Sizi qorusun. Amin.

**Prezident İlham ƏLİYEV:** Gələrik, əlbəttə, hələ çox görüşəcəyik. Bu gün Ağdərə şəhərinin təzə Baş planı mənə təqdim ediləcək. Ağdərə şəhərini də biz yenidən quracağıq, necə ki, artıq doqquz kəndi abadlaşdırmışıq. Şəhəri də quracağıq. Bura çox gözəl bir sənaye və turizm mərkəzi olacaq. Bu səfalı yerlər göz oxşayır. Hər tərəf dağ, meşə, gözəl hava, bulaqlar, çaylar. Ona görə Ağdərənin gələcək inkişafı çox parlaq olacaq. İşğalçılar bu ərazidə faktiki olaraq heç bir salamat bina qoymayıblar. Bax, təmir edilmiş bütün bu binalar bu gün dövlət tərəfindən təmir edilib. Ancaq talançılıqla məşğul olublar. "Dəmirli" filiz yatağından bəlkə 2 milyard dollar dəyərində, bəlkə də çox mis aparıblar. Bu talançılıqdır, qanunsuz istismardır. İndi biz qayıtmışıq, orada işlər qurulub. Qeyd etdiyim kimi, orada 900-dən çox, təqribən 1000-ə qədər iş yeri yaradılacaq. Özü də tapşırıq vermişəm ki, oraya cəlb olunacaq vətəndaşlar bu bölgədə yaşayan vətəndaşlar olmalıdır. İndi oranı genişləndirmək üçün mütləq əlavə sərmayə də qoyulacaq.

Kənd təsərrüfatı, turizm - yəni bura təbii bir cənnətdir. Amma mənfur düşmən buranı viran qoyub, burada daşı daş üstə qoymayıb. Onlar hər il erməni təşkilatları tərəfindən 100 milyonlarla pul yığırdılar. Onların bir manatını da, bir dollarını da buraya qoymayıblar, hamısını talayıblar. Bizim evlərimizi yandırıblar, sizi didərgin salıblar, 1 milyon insanı didərgin salıblar, Ağdamı yerlə yeksan ediblər, Füzulini də, Zəngilanı da, Qubadlını da. Kəlbəcərdə, Laçında, Xocalıda qanunsuz məskunlaşmışdılar. Xocalıya bir eybəcər ad da vermişdilər, amma heç biri tutmadı. Çünki bu torpaqların sahibləri bizik, biz gəlmişik və biz qurub-yaradırıq.

**Qadın sakin:** Bütün bunlar Sizin güclü siyasətinizin nəticəsidir, cənab Prezident. Allah ömrünü uzun eləsin.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Bundan sonra ancaq müzəffər xalq kimi, qürurlu xalq kimi yaşayacağıq. İnşallah.

**Sakinlər:** Cənab Prezident, Siz dünyada Azərbaycan xalqının fəxrisiniz, minnətdarıq. Sağ olun, Sizi görməyimizə şad olduq.

# Prezident İlham Əliyev Ağdərə şəhərinin Baş planı ilə tanış olub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Ağdərə şəhərinin Baş planı ilə tanış olub.**

AZƏRTAC xəbər verir ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev dövlətimizin başçısına Ağdərənin Baş planı barədə məlumat verdi.

Bildirildi ki, baş plana əsasən şəhərin məskunlaşma ərazisi 444 hektardan 522 hektara çatdırılacaq. 20 illik perspektiv dövr üçün şəhər əhalisinin sayının 14 min nəfər olması proqnozlaşdırılır. Baş planın konseptual sxeminə şəhər mərkəzi, fərdi və azsıxlıqlı yaşayış sahələri, çoxfunksiyalı və ictimai-işgüzar zonalar daxildir. Bundan başqa, şəhərdə terras parkı, çayətrafı bulvar, aqroturizm, sənaye və logistika zonalarının yaradılması planlaşdırılır. Baş planla yanaşı, Ağdərə şəhərinin birinci mərhələdə yenidən qurulacaq ərazisi üzrə müfəssəl həllər də hazırlanıb. Şəhərin mənzil fondunun 420 min kvadratmetr olması, həmçinin 80 çarpayılıq xəstəxananın, 2520 şagird yerlik 5 məktəbin, 840 yerlik 5 uşaq bağçasının və peşə məktəbinin inşası planlaşdırılır. Birinci mərhələdə sahəsi 104 hektar olan şəhər mərkəzinin inkişaf etdirilməsi nəzərdə tutulur. 2030-cu ilədək şəhərdə 3590 nəfərin məskunlaşması mümkün olacaq. Burada yol və küçələrin uzunluğu 46,8 kilometr, velosiped zolaqlarının uzunluğu isə 10 kilometr təşkil edəcək. Layihə çərçivəsində ictimai və yaşayış binalarının memarlıq həlləri də işlənilib.

Baş planla tanış olan dövlətimizin başçısı müvafiq tapşırıq və göstərişlərini verdi.

❖ ❖ ❖

Ağdərə şəhərində Müdafiə Nazirliyinin hərbi qulluqçuları üçün nəzərdə tutulan yaşayış binaları da istismara verilib.

Bildirilib ki, Ağdərədə Müdafiə Nazirliyinin hərbi qulluqçuları üçün ümumilikdə 3 binada təmir-bərpa işləri görülüb. Dörd və beşmərtəbəli binalardakı 72 mənzildən 8-i birotaqlı, 36-sı ikiotaqlı, 24-ü üçotaqlı, 4-ü isə dördotaqlıdır. Burada hərbçilərin və onların ailə üzvlərinin yaşaması və asudə vaxtlarının səmərəli təşkili üçün bütün şərait yaradılıb. Mənzillər su, qaz, elektrik enerjisi, internet, həmçinin mebel dəstləri ilə təchiz







edilib. Binaların ətrafında da geniş abadlıq işləri görülüb, yaşıllıqlar salınıb, sakinlərin istirahəti üçün guşələr yaradılıb.

Qeyd edək ki, bu gün Azərbaycan dövləti tərəfindən milli ordumuzun şəxsi heyətinin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl işlər görülür. Son illər Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq, hərbi qulluqçuların mənzillərlə təmin olunması istiqamətində mühüm layihələr icra edilib. Bütün bunlar Müzəffər Ali Baş Komandan tərəfindən qalib ordunun şəxsi heyətinə göstərilən yüksək qayğının bariz nümunəsidir.

# Prezident İlham Əliyev Ağdərə rayonunda Xüsusi Əməliyyat Mərkəzinin təməlini qoyub

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev yanvarın 13-də Ağdərə rayonunda Xüsusi Əməliyyat Mərkəzinin təməlini qoyub.**

AZƏRTAC xəbər verir ki, müdafiə naziri Zakir Həsənov Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.

Dövlətimizin başçısına məlumat verildi ki, bu mərkəzin yaradılmasında məqsəd xüsusi təyinatlı bölmələrin müxtəlif ərazi, relyef və hava şəraitində hazırlıqlarının təmin edilməsi, həmçinin beynəlxalq hərbi əməkdaşlıq sazişləri əsasında tədbirlərin, o cümlədən təlimlərin, kursların keçirilməsidir. Mərkəzin geniş ərazisində çoxsaylı şəxsi heyətin iştirakı ilə təlim və məşqlərin keçirilməsi mümkün olacaq. Burada təlim sahələri, o cümlədən atıcı və iriçaplı silahların atış, pilotsuz uçuş aparatlarının, o cümlədən zərbə dronlarının, müxtəlif simulyasiya, xüsusi əməliyyatların, sürücülük, üzgüçülük hazırlıqlarının məşq sahələri yaradılacaq.

Mərkəzdə qərargah, yataqxana, tibb məntəqəsi, klub, tədris və qonaq evləri, qapalı idman kompleksi, simulyasiya mərkəzi, açıq idman sahələri, helikopter meydançası, atıcılıq poliqonları və digər zəruri infrastruktur olacaq.

Prezident İlham Əliyev mərkəzin təməlini qoydu.







# "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 1, maddə 14 (Cild I); 2024, № 1, maddə 19, № 2, maddə 137, № 7, maddə 755, № 12 (II kitab), maddələr 1328, 1350; 2025, № 1, maddələr 4, 7,№ 4 (I kitab), maddə 324, № 6, maddələr 524, 525, 527; Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 306-VIIQD nömrəli Qanunu) ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci maddədə "Hərbi xidmət haqqında" Azərbaycan Respublikası" sözləri "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının" sözləri ilə əvəz edilsin;

1.2. 3-cü maddənin dördüncü hissəsinin birinci-dördüncü abzasları aşağıdakı redaksiyada verilsin:

"Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 28-ci maddəsinə əsasən həqiqi hərbi xidmətin aşağıdakı növləri müəyyən edilir:

müddətli həqiqi hərbi xidmət;

hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisələrinin kursantlarının həqiqi hərbi xidməti;

müddətdən artıq həqiqi hərbi xidmət;";

1.3. 4-cü və 5-ci maddələrdə "Hərbi xidmət haqqında" Azərbaycan Respublikası" sözləri "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının" sözləri ilə əvəz edilsin;

1.4. 8-ci maddənin birinci hissəsinə "Hərbi" sözündən sonra "vəzifə və hərbi" sözləri əlavə edilsin;

1.5. 9-cu maddənin ikinci hissəsi üzrə:

1.5.1. birinci abzasda "Azərbaycan Respublikasının "Hərbi xidmət haqqında" sözləri "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının" sözləri ilə əvəz edilsin;

1.5.2. ikinci abzasdan "6 ay" sözləri çıxarılsın;

1.6. 12-ci maddənin birinci hissəsinin "d" bəndi aşağıdakı redaksiyada verilsin:

"d) zabitlər üçün: ehtiyatdan müddətli həqiqi hərbi xidmətə çağırılanlar və ya bağlaşma əsasında həqiqi hərbi xidmətə könüllü daxil olanlar - 1 il (bu müddət bitdikdən sonra tərəflərin razılığı ilə onlar kadr zabit heyətinə keçirilirlər), bağlaşma əsasında həqiqi hərbi xidmətə könüllü daxil olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər - 3 ilədək (bu müddət bitdikdən sonra tərəflərin razılığı ilə yeni bağlaşma bağlanılır).";

1.7. 40-cı maddənin birinci hissəsinin "b" bəndində "Hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinin "q" bəndinə müvafiq olaraq 1 il 6 ay" sözləri "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.5-ci maddəsinə uyğun olaraq 1 il" sözləri ilə əvəz edilsin;

1.8. 58-ci maddənin birinci hissəsinin "i" bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda "k" bəndi əlavə edilsin:

"k) müddətli həqiqi hərbi xidmət dövründə zabit hazırlığı kursunu müvəffəqiyyətlə bitirərək zabitlərin həqiqi hərbi xidmətinə könüllü daxil olan ali təhsilli müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularına.";

1.9. 66-cı maddədə "Hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinə müvafiq" sözləri "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 31.1-ci maddəsinə uyğun" sözləri ilə əvəz edilsin;

1.10. 71-ci maddənin birinci hissəsində "Hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinə müvafiq" sözləri "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 34.2-ci maddəsinə uyğun" sözləri ilə, "məktəblərin" sözü "qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisələrinin"sözləri ilə əvəz edilsin;

1.11. 87-ci maddənin birinci hissəsinin dördüncü abzasından "6 ay" sözləri çıxarılsın;

1.12. 155-ci maddənin birinci hissəsinin birinci abzasından "Hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq" sözləri çıxarılsın;

1.13. Əsasnaməyə 4 saylı əlavə - "Azərbaycan Respublikasının Silahlı Qüvvələrində hərbi xidmətə qəbul haqqında Bağlaşma"da "Hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununu, müvafiq Nizamnamə və Əsasnamələri" sözləri "Hərbi xidmətkeçmə haqqında"Əsasnaməni" sözləri ilə əvəz edilsin;

1.14. Əsasnaməyə 6 saylı əlavə - "Hərbi qulluqçulara növbəti hərbi rütbə verilməsi (hərbi rütbəsinin aşağı salınması və bərpa edilməsi, hərbi rütbədən məhrum edilməsi), onların vəzifəyə təyin edilməsi və həqiqi hərbi xidmətdən buraxılması (müddətli və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularından, hərbi təhsil müəssisələrinin kursantlarından və hərbi xidmətim bağlaşma ilə keçən hərbi qulluqçulardan başqa) üçün təqdimatların tərtib edilməsi Qaydaları" üzrə:

1.14.1. adında "xidmətim" sözü "xidməti" sözü ilə əvəz edilsin;

1.14.2. 2-ci hissənin "q" bəndinin üçüncü cümləsi çıxarılsın.

**Maddə 2.** "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 56 (Cild I); 2024, № 2, maddə 137, № 4, maddə 363, № 12 (II kitab), maddələr 1328, 1350; 2025, № 1, maddə 4, № 4 (I kitab), maddələr 305, 311, № 6, maddələr 525, 527; Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 306-VIIQD nömrəli Qanunu) 38.1.5-ci maddəsindən "6 ay" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2025-ci il*

# "Azərbaycan Respublikası və Latviya Respublikası arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyul tarixli 417 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası və Latviya Respublikası arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyul tarixli 417 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 7, maddə 593 (Cild I) 1-ci hissəsində "ekologiya və təbii sərvətlər" sözləri "kənd təsərrüfatı" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə Latviya Respublikası tərəfinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 yanvar 2026-cı il*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 26 aprel tarixli 168 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gömrük yığımlarının məbləğləri"ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 8** **Bakı şəhəri, 12 yanvar 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 26 aprel tarixli 168 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 823 (Cild I); 2024, № 1, maddə 77, № 9, maddə 1106; 2025, № 3, maddə 293) ilə təsdiq edilmiş "Gömrük yığımlarının məbləğləri"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.4-cü bəndə "gömrük yığımları" sözlərindən sonra "(bu Sənədin 2.1-1-ci bəndində nəzərdə tutulan gömrük yığımları istisna olmaqla)" sözləri əlavə edilsin;

1.2. 2.1-ci bənddə "Malların" sözü "Bu Sənədin 2.1-1-ci bəndi nəzərə alınmaqla, malların" sözləri ilə əvəz edilsin;

1.3. aşağıdakı məzmunda 2.1-1-ci bənd əlavə edilsin:

"2.1-1. Bu Sənədin 2.1-ci bəndi ilə müəyyən olunmuş gömrük yığımlarına əlavə olaraq, aşağıdakı malların sərbəst dövriyyəyə buraxılış gömrük proseduru altında yerləşdirilməsinə görə müvafiq məbləğlərdə gömrük yığımları alınır:

2.1-1.1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin təsdiqedici sənədinə əsasən, işğaldan azad edilmiş ərazilərdə yerləşən sənaye parklarının rezidenti olan hüquqi şəxslər tərəfindən sənaye parklarında istehsal məqsədi ilə xammal kimi idxal istisna olmaqla, xarici iqtisadi fəaliyyətin mal nomenklaturunun 7213 (7213 91 410 0 alt yarımmövqeyi istisna olmaqla) və 7214 mal mövqeyində təsnifləşdirilən "dəmirdən və ya aşqarlanmamış poladdan çubuqlar"ın 1 tonu üçün - 150 manat;

2.1-1.2. xarici iqtisadi fəaliyyətin mal nomenklaturunun 7005 10 050 0, 7005 10 250 0, 7005 10 300 0, 7005 10 800 0, 7005 21 250 0, 7005 21 300 0, 7005 21 800 0, 7005 29 250 0, 7005 29 350 0, 7005 29 800 0 alt yarımmövqelərində təsnifləşdirilən armaturlaşdırılmamış şüşələrin 1 tonu üçün - 100 manat.".

2. Bu Qərar 2026-cı il 2 yanvar tarixindən tətbiq edilir və 2026-cı il 30 iyun tarixinədək qüvvədədir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# "Müvəqqəti fəaliyyət göstərən xüsusi icra məmurlarının xidmət haqqının ödənilməsi Qaydası"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 10** **Bakı şəhəri, 12 yanvar 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Xüsusi icra məmurları haqqında" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 248-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 13 avqust tarixli 478 nömrəli Fərmanının 2.2.2.4-cü abzasının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Müvəqqəti fəaliyyət göstərən xüsusi icra məmurlarının xidmət haqqının ödənilməsi Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 9** **Bakı şəhəri, 12 yanvar 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1.Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164 (Cild I); 2024, № 1, maddə 127, № 2, maddə 244, № 4, maddə 465, № 7, maddələr 891, 903, № 9, maddələr 1045, 1106, № 10, maddələr 1165, 1178, № 11, maddə 1257, № 12 (I kitab), maddələr 1319, 1324; 2025, № 2, maddə 187, № 3, maddələr 266, 268, № 5, maddə 512, № 9, maddələr 845, 868; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 7 oktyabr tarixli 293 nömrəli və 30 dekabr tarixli 416 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 0207 11 100 0, 0207 11 300 0, 0207 11 900 0, 0207 12 100 0, 0207 12 900 0, 0207 13 100 0, 0207 13 200 0, 0207 13 300 0, 0207 13 400 0, 0207 13 500 0, 0207 13 600 0, 0207 13 700 0, 0207 13 910 0, 0207 13 990 0, 0207 14 100 0, 0207 14 200 0, 0207 14 300 0, 0207 14 400 0, 0207 14 500 0, 0207 14 600 0, 0207 14 700 0, 0207 14 910 0, 0207 14 990 9, 0407 11 000 0, 0407 21 000 0, 0407 90 100 0, 0407 90 900 0, 0702 00 000 0, 0707 00 050 0, 0707 00 900 0, 0806 10 100 0, 0806 10 900 0, 0808 10 100 0, 0808 10 800 0, 0808 30 100 0, 0808 30 900 0, 2009 12 000 0, 2009 21 000 0, 2009 31 110 0, 2009 31 190 0, 2009 31 510 0, 2009 31 590 0, 2009 31 910 0, 2009 31 990 0, 2009 41 920 0, 2009 41 990 0, 2009 50 100 0, 2009 50 900 0, 2009 61 100 0, 2009 61 900 0, 2009 71 200 0, 2009 71 990 0, 2202 99 180 1, 2202 99 180 2, 2403 19 100 1, 2403 19 900 1, 6907 21 100 0, 6907 21 900 0, 6907 22 100 0, 6907 22 900 0, 6907 23 100 0, 6907 23 900 0, 6907 30 100 0, 6907 30 900 0, 6907 40 100 0 və 6907 40 900 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "31.12.2025-ci il" sözləri "31.12.2028-ci il" sözləri ilə əvəz edilsin;

1.2. 0405 10 110 0, 0405 10 190 0, 0405 10 300 0, 0405 10 500 0, 0405 10 900 0, 0405 20 100 0, 0405 20 300 0, 0405 20 900 0, 0405 90 100 0, 0405 90 900 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə faizlə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "31.12.2025-ci il" sözləri "31.12.2027-ci il" sözləri ilə əvəz edilsin;

1.3. 4101 20 100 0, 4101 20 300 0, 4101 20 500 0, 4101 20 800 0, 4101 50 100 0, 4101 50 300 0, 4101 50 500 0, 4101 50 900 0, 4101 90 000 0, 4102 10 100 0, 4102 10 900 0, 4102 29 000 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə faizlə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "31.12.2025-ci il tarixinədək-1000 kq - 500 ABŞ dolları" sözləri "31.12.2026-cı il tarixinədək-1000 kq - 250 ABŞ dolları" sözləri ilə əvəz edilsin;

1.4. 4102 21 000 0, 4104 11 100 0, 4104 11 510 0, 4104 11 590 0, 4104 11 900 0, 4104 19 100 0, 4104 19 510 0, 4104 19 590 0, 4104 19 900 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə faizlə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "31.12.2025-ci il tarixinədək-1000 kq - 150 ABŞ dolları" sözləri "31.12.2026-cı il tarixinədək-1000 kq - 75 ABŞ dolları" sözləri ilə əvəz edilsin;

1.5. 4105 10 000 0 alt yarımmövqeyinə aid sətrin "Tarif dərəcəsi (gömrük dəyərinə görə faizlə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "31.12.2025-ci il tarixinədək-1000 kq - 50 ABŞ dolları" sözləri "31.12.2026-cı il tarixinədək-1000 kq - 25 ABŞ dolları" sözləri ilə əvəz edilsin;

1.6. 6806 10 000 0, 8421 31 000 9 alt yarımmövqeyinə aid sətrin "Tarif dərəcəsi (gömrük dəyərinə görə faizlə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "15 (31.12.2030-cu il tarixinədək 0%)" sözləri "15" rəqəmləri ilə əvəz edilsin;

1.7. 6806 90 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 6806 90 000 | - digərləri | | |
| 6806 90 000 1 | - - tərkibində şlak-pambığı, mineral silikat-pambığı və analoji mineral pambıqlar olan | - | 15 |
| 6806 90 000 9 | - - digərləri | - | 15 (31.12.2030-cu il tarixinədək 0%) |

1.8. 6809 11 000 0 və 6809 19 000 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "31.12.2025-ci il tarixinədək 1 $m^2$ 0,4 ABŞ dolları" sözləri "31.12.2028-ci il tarixədək 15%, lakin 1 $m^2$ üçün 0,4 ABŞ dollarından az olmamaqla" sözləri ilə əvəz edilsin;

1.9. 6904 10 000 0 alt yarımmövqeyinə aid sətrin "Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "31.12.2025-ci il tarixinədək 1000 ədəd 15 ABŞ dolları" sözləri "31.12.2028-ci il tarixinədək 1000 ədəd üçün 20 ABŞ dolları" sözləri ilə əvəz edilsin.

2. Bu Qərarın 1.6-cı və 1.7-ci bəndləri dərc edildiyi gündən 30 (otuz) gün sonra, digər bəndləri 2026-cı il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycanla İtaliya arasında strateji tərəfdaşlıq əlaqələrinin perspektivləri müzakirə olunub

Yanvarın 13-də xarici işlər naziri Ceyhun Bayramov ilə İtaliyanın ölkəmizdə səfərdə olan xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini Edmondo Çirielli arasında görüş keçirilib.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan və İtaliya arasında ikitərəfli çərçivədə mövcud əməkdaşlıqdan məmnunluq ifadə olunub, siyasi, təhlükəsizlik, iqtisadi, ticarət, energetika, humanitar, təhsil və digər sahələrdə çoxölçülü strateji tərəfdaşlıq əlaqələrinin perspektivlərindən bəhs edilib. Xüsusilə enerji və təhsil sahələrində birgə layihələrin, İtaliya-Azərbaycan Universitetinin fəaliyyətinin əhəmiyyəti qeyd olunub.

Dünən Bakıda keçirilmiş Azərbaycan və İtaliya arasında İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 6-cı iclasının uğurla tamamlandığı, əldə olunmuş razılıqların iki ölkə arasında münasibətlərə əlavə təkan verəcəyi vurğulanıb.

Tərəflər həmçinin Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığın cari vəziyyəti, o cümlədən enerji və nəqliyyat, alternativ enerji layihələri ilə bağlı fikir mübadiləsi aparıblar.

Görüş zamanı qarşılıqlı maraq doğuran digər beynəlxalq və regional məsələlər müzakirə olunub.

Azərbaycan və İtaliya Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr də keçirilib.

# Azərbaycanın və Venesuelanın xarici işlər nazirləri arasında telefon danışığı olub

Yanvarın 13-də xarici işlər naziri Ceyhun Bayramov ilə Venesuelanın xarici işlər üzrə xalq hakimiyyəti naziri İvan Xil Pinto arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, telefon danışığı zamanı Venesuelada son hadisələr, eləcə də Azərbaycan və Venesuela arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələləri müzakirə olunub. Nazir Ceyhun Bayramov Venesuelada baş verən hadisələr nəticəsində həyatını itirənlərin ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verib. Venesuelada sülh və sabitliyin bərqərar olacağına, Venesuelanın birliyinin qorunacağına ümidvar olduğunu bildirib.

Venesuelalı nazir son hadisələr barədə ətraflı məlumat verib. Venesuelada prezident vəzifələrinin müvəffəqiyyətlə icra edildiyini, dövlət qurumlarının işlək vəziyyətdə olduğunu qeyd edib. Nazir bununla yanaşı, ABŞ tərəfi ilə dialoqun davam etdiyini, ABŞ şirkətlərinin, xüsusilə energetika sahəsində fəaliyyətlərinin bərpa olunduğunu, səfirliklərin qarşılıqlı şəkildə fəaliyyətə başlaması üçün danışıqlar aparıldığını diqqətə çatdırıb.

Nazirlər Azərbaycanla Venesuela arasında ikitərəfli münasibətlərin inkişafı istiqamətində səylərin davam etdirilməsinin, beynəlxalq təşkilatlar, xüsusilə BMT və Qoşulmama Hərəkatı çərçivəsində qarşılıqlı dəstək və həmrəyliyə əsaslanan əməkdaşlığın vacibliyini vurğulayıblar.

# Azərbaycanın xarici siyasətinin uğurları



## Zəngəzur dəhlizi: Qafqazdan dünyaya açılan yeni nəqliyyat arteriyası

### Azərbaycan "Şərq-Qərb", "Şimal-Cənub" marşrutlarının əvəzolunmaz tranzit qovşağına çevrilir

**Müasir dövrdə dövlətlərin qlobal rəqabət qabiliyyəti onların nəqliyyat-tranzit imkanları və logistik infrastrukturunun keyfiyyəti ilə birbaşa bağlıdır. Azərbaycan ötən onilliklərdə nəqliyyat sahəsində əsl intibah dövrünü yaşayıb. Ölkəmizin bu sahədə qazandığı uğurlar təsadüfi deyil və vaxtında atılmış uzaqgörən strateji addımların, genişmiqyaslı quruculuq işlərinin məntiqi nəticəsidir.**

Son 20 ildə Azərbaycanda 21 min kilometrdən çox avtomobil yolunun inşası, əsaslı təmiri həyata keçirilib, çoxsaylı körpü və tunellər istifadəyə verilib, dəmir yolları tam modernləşdirilib. İşğaldan azad edilmiş ərazilərdə qısa müddətdə 3 müasir beynəlxalq hava limanı tikilib. Bakı Beynəlxalq Dəniz Ticarət Limanının (Ələt) ümumi yükaşırma nəticələrində davamlı artım müşahidə edilir. Ələt limanı illik 25 milyon ton yükdaşıma gücünə malikdir.

Azərbaycan Avrasiya materikinin ən mühüm nəqliyyat-tranzit mərkəzlərindən biri kimi özünü təsdiqləyib. Ölkəmiz yalnız "Şərq-Qərb" və "Şimal-Cənub" marşrutları üzrə yük axınını təmin etmir, həm də bu layihələrin perspektivli inkişaf modelini formalaşdırır. Bu strateji mövqe Azərbaycanın tranzit gəlirlərini uzunmüddətli dövrdə sabit saxlayacaq ən mühüm amildir.

Yaxın perspektivdə Zəngəzur dəhlizinin (TRIPP) istifadəyə verilməsi Azərbaycanın logistik gücünü zirvəyə daşıyacaq. Zəngəzur dəhlizi (TRIPP) sadəcə nəqliyyat yolu deyil, regionun iqtisadi taleyini dəyişəcək və Azərbaycanı qlobal tədarük zəncirinin vazkeçilməz hissəsinə çevirəcək bir layihədir. Orta dəhlizin (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) ikinci əsas qolu kimi fəaliyyət göstərəcək Zəngəzur dəhlizi (TRIPP) bir neçə strateji üstünlüyü eyni anda təmin edir. İlk növbədə İrana gedən dəmir yolu xətti yenidən canlanacaq ki, bununla Rusiya-Bakı-Ağbənd-Naxçıvan-Culfa xətti ilə Fars körfəzinə çıxış əldə olunacaq.

Bakı yalnız Zəngəzur dəhlizi (TRIPP) ilə kifayətlənmir, strateji təhlükəsizliyini təmin etmək üçün alternativ yolları da paralel inkişaf etdirir. Ağbənd qəsəbəsində Azərbaycanın maliyyə vəsaiti hesabına tikilən körpü Naxçıvana ikinci alternativ yol açır. Bundan əlavə, Türkiyə ilə əldə olunan razılaşma əsasında inşa ediləcək Qars-Naxçıvan dəmir yolu muxtar respublikanın birbaşa Türkiyə və Avropa dəmir yolları şəbəkəsinə qoşulmasını təmin edəcək. Naxçıvandan yüklər iki əsas səmtə - həm Türkiyə vasitəsilə Avropaya, həm də İran üzərindən Yaxın Şərqə paylanacaq. Çindən Avropaya gedən yüklərin daşınmasında bu yol ən səmərəli və sürətli alternativlərdən biridir. Bu çoxşaxəli yanaşma Azərbaycanı həm şərq-qərb, həm də şimal-cənub oxunda əvəzedilməz strateji partnyora çevirir. Dəhlizin illik 15 milyon ton yük qəbul etmək imkanı onun iqtisadi gücünü göstərir. Layihə təkcə ticarəti deyil, həm də regionda təhlükəsizliyi, turizmi və humanitar əlaqələri də stimullaşdıracaq.

Dəhlizin praktiki icrası istiqamətində böyük irəliləyişlər əldə edilib. Ölkə daxilindəki (Ağbənd istiqaməti) infrastruktur artıq tam yekunlaşıb. Naxçıvan Muxtar Respublikası ərazisindəki 190 kilometrlik dəmir yolu şəbəkəsinin yenidən qurulması sürətlə davam edir. Qalan kiçikmiqyaslı işlər də cari ildə yekunlaşdırılacaq.

Prezident İlham Əliyevin yanvarın 5-də yerli media nümayəndələrinə verdiyi müsahibədə diqqət mərkəzində olan başlıca mövzulardan biri də Zəngəzur dəhlizinin (TRIPP) perspektivləri və bu layihənin regionun gələcək inkişafındakı rolu idi. Dövlət başçısı bu dəhlizi yalnız adi nəqliyyat marşrutu deyil, Azərbaycanın əsas torpaqları ilə Naxçıvanı birləşdirən tarixi-coğrafi bağın bərpası və beynəlxalq yükdaşıma potensialının artırılması üçün həlledici strateji addım kimi qiymətləndirdi: "Artıq mən də əminəm, Azərbaycan vətəndaşlarında şübhə yoxdur ki, Zəngəzur dəhlizi açılacaq. Onun adı fərqli ola bilər, amma mahiyyət dəyişmir...Sözsüz ki, Çin və Orta Asiya ölkələrindən gələn yüklərin də Zəngəzur dəhlizi boyunca hərəkət edəcəyini gözləyirik. Təbii ki, biz buna ilk növbədə Naxçıvan Muxtar Respublikası ilə əlaqə kimi, həm də beynəlxalq nəqliyyat dəhlizi kimi baxırıq. Bu gün Azərbaycandan Qərbə doğru bir dəmir yolu marşrutu var, onların sayı iki olacaq. İki həmişə birdən yaxşıdır, xüsusilə açıq okeana çıxışınız olmadığı və qonşu ölkələrdən keçməli olduğunuz bir şəraitdə...Bu axınlar isə hamımızın bildiyi kimi, bir çox istiqamətdə hərəkət edə bilər. Buradan iki istiqamətdə qərbə, bir istiqamətdə və daha sonra iki istiqamətdə - yenidən Zəngəzur dəhlizi vasitəsilə cənuba, Yaxın Şərqə, Fars körfəzinə və əlbəttə ki, şimal istiqamətinə doğru axın olacaq ki, bu istiqamət də tam istifadəyə veriləcək".

Bu layihənin ABŞ administrasiyası səviyyəsində dəstəklənməsi məsələnin artıq siyasi müstəvidə öz həllini tapmasından xəbər verir. Prezidentin açıqlamaları göstərir ki, Zəngəzur dəhlizi (TRIPP) artıq geridönməz bir prosesdir. Ermənistanın bu layihədən kənarda qalması isə yalnız öz iqtisadi təcridini dərinləşdirə bilər. Onilliklər boyu davam edən işğalçı siyasət bu ölkəni regionun nəhəng enerji və logistika layihələrindən kənarda saxlayıb. Zəngəzur dəhlizinin (TRIPP) açılması dənizə çıxışı olmayan Ermənistanın iqtisadi blokadadan qurtulması üçün unikal bir fürsətdir. Dövlətimizin başçısı müsahibədə bu məsələyə də toxunub: "Mən inanmıram ki, Ermənistan bu məsələdən boyun qaçırsın, bu, özünəqəsd kimi qiymətləndirilə bilər. Xüsusilə nəzərə alsaq ki, Amerika Prezidenti Tramp bu yola öz adını verib, artıq bu, onun yoludur. Ermənistandan da gələn xəbərlər onu göstərir ki, bu il bu yolun fiziki tikintisi nəzərdə tutulur...Amma yenə də deyirəm, bizim ərazimizdə Zəngəzur dəhlizi ilə bağlı artıq heç bir problem qalmayıb".

Azərbaycan həm diplomatik, həm də infrastruktur baxımından Cənubi Qafqazın nəqliyyat xəritəsini yenidən formalaşdıran tərəf kimi çıxış edir. Zəngəzur dəhlizi (TRIPP) Azərbaycanın geosiyasi çəkisini artırır, ölkəni regionun logistik və kommunikasiya mərkəzlərindən birinə çevirir. Asiyadan Avropaya daşınan yüklərin həcminin hər il artması fonunda Zəngəzur dəhlizi (TRIPP) qitələri birləşdirən vacib nəqliyyat əlaqəsi olacaq. Yükünü Zəngəzur dəhlizi (TRIPP) ilə daşıyan dövlətlər və transmilli korporasiyalar regionun sabitliyində maraqlı olacaqlar ki, bununla Azərbaycan beynəlxalq aləmdə daha nüfuzlu və güclü dəstəyi olan dövlətə çevriləcək.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

## *Postmünaqişə dövrünün xarici siyasət strategiyası:*
## TDT çərçivəsində intensivləşən əlaqələr

Prezident İlham Əliyev cari il yanvarın əvvəlində yerli televiziya kanallarına müsahibəsində vurğuladı ki, müstəqillik illərində Azərbaycan 30-a yaxın dövlətlə strateji tərəfdaşlıq münasibətləri qurub, onlardan 25-i ilə müvafiq siyasi sənədlər imzalanıb. Bu dövlətlərin 10-u Avropa İttifaqının üzvüdür. Azərbaycan Türk Dövlətləri Təşkilatında (TDT) təmsil olunan bütün ölkələrlə strateji tərəfdaşlıq münasibətlərinə malikdir. Ümumilikdə isə Avropa Siyasi Birliyində təmsil olunan 16 dövlət Azərbaycanın strateji tərəfdaşlarıdır ki, bu da ölkəmizin artan beynəlxalq nüfuzunun göstəricisidir.

Qeyd edilməlidir ki, Avropa Siyasi Birliyi təşkilat deyil, siyasi dialoq platformasıdır, lakin həmin platformada bu qədər geniş tərəfdaşlıq şəbəkəsinə malik olmaq mühüm diplomatik nailiyyətdir. Azərbaycan bəzi dövlətlərlə strateji tərəfdaşlıqla yanaşı, müttəfiqlik münasibətlərini təsbit edən beynəlxalq müqavilələr də imzalayıb. Bu ölkələr sırasında qardaş Türkiyə, Özbəkistan və Qazaxıstan xüsusi yer tutur.

### Azərbaycan sülhün bərqərar olunması istiqamətində ardıcıl və prinsipial siyasət aparır

İşğal dövründə Azərbaycanın strateji tərəfdaşlıq siyasətinin əsas şərti Azərbaycan-Ermənistan münaqişəsinin ölkəmizin ərazi bütövlüyü və suverenliyi çərçivəsində, xüsusilə BMT Təhlükəsizlik Şurasının 1993-cü il qətnamələri əsasında həllinə birmənalı dəstək idi. Bu prinsipial mövqe Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş, Prezident İlham Əliyev tərəfindən isə ardıcıl şəkildə qorunmuşdur. Ərazi bütövlüyümüz bərpa olunduqdan sonra da qarşılıqlı suverenlik və ərazi bütövlüyünə hörmət prinsipi Azərbaycan xarici siyasətinin dəyişməz əsası olaraq qalır.

Strateji tərəfdaşlıq yalnız siyasi və iqtisadi sahələri deyil, eyni zamanda müdafiə, müdafiə sənayesi və təhlükəsizlik istiqamətlərində intensiv əməkdaşlığı da əhatə edir. Bu çərçivədə Xarici İşlər nazirlikləri və dövlət başçıları səviyyəsində müntəzəm siyasi məsləhətləşmələr aparılır, regional və qlobal məsələlər üzrə mövqelər uzlaşdırılır.

Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü və siyasi iradəsi ilə postmünaqişə dövründə sülh prosesi ardıcıl və prinsipial xətt üzrə irəliləyir. Bu proses artıq yalnız regional deyil, qlobal əhəmiyyət daşıyan siyasi gündəm kimi aparıcı beynəlxalq aktorların diqqət mərkəzindədir. Dövlət başçısının Yaxın Şərq Sülh Sammitində iştirakı Azərbaycanın sülhyaratma təşəbbüslərinin və postmünaqişə təcrübəsinin beynəlxalq səviyyədə qəbul və təqdir olunduğunu açıq şəkildə nümayiş etdirdi.

Son onilliklər ərzində formalaşdırılan Azərbaycanın xarici siyasət strategiyası regional balansın qorunması ilə yanaşı, qlobal müstəvidə dayanıqlı tərəfdaşlıq şəbəkəsinin qurulmasına yönəlib. İkinci Qarabağ müharibəsindən sonra yaranan yeni siyasi və təhlükəsizlik reallıqları, nəqliyyat-tranzit xəritəsinin yenidən formalaşması və beynəlxalq sistemdə güc mərkəzlərinin dəyişməsi Bakının çoxvektorlu, çevik və prinsipial diplomatiyasını daha da gücləndirib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasət BMT Nizamnaməsinin prinsiplərinə, xüsusilə suveren bərabərlik, ərazi bütövlüyünə hörmət və daxili işlərə qarışmamaq yanaşmasına əsaslanır. Dost və tərəfdaş ölkələrlə münasibətlər strateji tərəfdaşlıq, yaxın dövlətlərlə isə müttəfiqlik səviyyəsinə yüksəldilir.

Prezident İlham Əliyevin strateji baxışına əsaslanan diplomatik fəaliyyət nəticəsində Azərbaycanın mövqeləri beynəlxalq arenada əhəmiyyətli dərəcədə möhkəmlənib. Bunu müxtəlif beynəlxalq platformalarda dövlət və hökumət başçılarının açıq bəyanatları, eləcə də Avropa Siyasi Birliyinin Zirvə görüşləri, Yaxın Şərq Sülh Sammiti, Türk Dövlətləri Təşkilatının sammitləri və ikitərəfli səfərlər aydın şəkildə təsdiqləyir.



Azərbaycan Türk Dövlətləri Təşkilatına üzv dövlətlərlə müdafiə, müdafiə sənayesi və təhlükəsizlik sahələrində artıq ikitərəfli formatda müsbət və uğurlu təcrübəyə malikdir. Ölkəmiz Türkiyə, Özbəkistan və Qazaxıstanla müxtəlif formatlarda birgə hərbi təlimlər keçirib və bu əməkdaşlıq öz səmərəsini verib. İndi məqsəd bu təcrübəni genişləndirərək ikitərəfli çərçivədən çıxarmaq və Türk Dövlətləri Təşkilatı səviyyəsində çoxtərəfli əməkdaşlıq müstəvisinə daşımaqdır. Prezident İlham Əliyev bu istiqamətdə mövqeyini ötən il TDT-nin Qəbələdə keçirilən sammitində açıq şəkildə ortaya qoyub və 2026-cı ildə bu formatda əməkdaşlıq istiqamətində ilkin addımlardan olan birgə hərbi təlimlərin keçirilməsi istəyimizi bəyan edib.

Bu təşəbbüsün arxasında dayanan əsas üstünlüklərdən biri Azərbaycanın qazandığı sülh və müharibədən sonrakı bərpa təcrübəsidir. 44 günlük Vətən müharibəsi və ondan sonrakı proseslər göstərdi ki, Azərbaycan təkcə hərbi müstəvidə qələbə qazanmaqla kifayətlənməyib, eyni zamanda davamlı sülhün bərqərar olunması istiqamətində ardıcıl və prinsipial siyasət aparır. Prezident İlham Əliyevin ötən ilin sentyabrında BMT Baş Məclisində bəyan etdiyi "Azərbaycan müharibəni uddu və sülhü qazandı" formulasına əsaslanan təcrübəsi türk dövlətləri üçün də ciddi özünəinam mənbəyidir. Azərbaycanın uğurları beynəlxalq ictimaiyyət tərəfindən qəbul olunur, çünki bu uğurlar BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinə və beynəlxalq hüquqa uyğun olaraq əldə edilib.

### Azərbaycan-Türkiyə təcrübəsi çoxtərəfli formatda əməkdaşlıq üçün nümunədir

Azərbaycan qardaş Türkiyə ilə birgə regional təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlığın institusional əsaslarını yaratmaq üçün konkret addımlar atıb. 2021-ci ilin iyununda imzalanan Şuşa Bəyannaməsi və 2025-ci ilin dekabrında Milli Məclisin ratifikasiya etdiyi "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Türkiyə Respublikasının Milli Müdafiə Nazirliyi arasında qarşılıqlı hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə dair Anlaşma Memorandumu" bunun üçün hüquqi əsas yaradır.

Anlaşma Memorandumu strateji müttəfiqlər olan Azərbaycan-Türkiyə arasında Şuşa Bəyannaməsində əks olunmuş müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın dərinləşdirilməsinə xidmət edir. Memorandumun məqsədi hərbi təhlükəsizlik sahəsində qarşılıqlı koordinasiyanın gücləndirilməsi, birgə təlimlərin, hərbi təhsilin və müdafiə sənayesi üzrə əməkdaşlığın inkişaf etdirilməsidir. Memorandum yalnız hərbi əməkdaşlıq və hərbi təhlükəsizlik sahəsindəki məsələləri əhatə edir və bu çərçivədə müdafiə sahəsində qarşılıqlı yardım, təlim, təchizat və tərəflərin birlikdə fəaliyyət qabiliyyətinin artırılmasını ehtiva edir.

Anlaşma Memorandumu həmçinin qarşılıqlı olaraq tərəflərin dövlətlərinin təhlükəsizliyinin və ərazi bütövlüyünün təmin olunması, habelə suverenliyinin və müstəqilliyinin qorunması üçün tərəflər arasında müdafiə sahəsində əməkdaşlığın gücləndirilməsini hədəfləyir.

"Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"ndə təsbit edilmişdir ki, "Tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəklər. Bu yardımın həcmi və forması təxirə salınmadan keçirilən müzakirələr yolu ilə müəyyən edilərək birgə tədbirlər görülməsi üçün müdafiə ehtiyaclarının ödənilməsinə qərar veriləcək və Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil olunacaqdır".

Sözügedən Anlaşma Memorandumu da BMT nizamnaməsinə istinadı ehtiva edir. Belə ki, tərəfdaş dövlətlər birinin silahlı təcavüzə məruz qaldığı halda BMT Nizamnaməsinin 51-ci maddəsi ilə tanınan fərdi və birgə özünümüdafiə hüquqlarının həyata keçirilməsi üçün bir-birlərinə qarşılıqlı yardımın göstərilməsi öhdəliyini götürürlər. Tərəflərin bir-birlərinə hərbi yardım göstərməsi onlardan birinin sorğusu əsasında və buna dair milli qanunvericiliklərində müəyyən edilmiş qaydaya uyğun olaraq həyata keçirilir. Tərəflər dinc dövrdə yuxarıda qeyd edildiyi kimi, mütəmadi olaraq birgə hərbi təlimlər və manevrlər keçirirlər.

### Qəbələ Sammiti TDT çərçivəsində müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlıq üçün dönüş mərhələsi ola bilər

2025-ci ilin oktyabrında Qəbələdə regional təhlükəsizlik və sabitlik mövzusunda keçirilən TDT sammiti daha geniş platformada və çoxtərəfli formatda məhz bu məqsədlərə xidmət edirdi. Bu təşəbbüs Prezident İlham Əliyevin ideyası idi və hərbi sahə ilə yanaşı, müdafiə sənayesi sahəsində əməkdaşlığın da çoxtərəfli formatda reallaşdırılmasını gündəmə gətirdi. Məsələn, ötən il İstanbulda müdafiə sənayesinə cavabdeh qurumların birgə toplantısı keçirildi. Növbəti belə tədbirin bu il Bakıda təşkil olunması planlaşdırılır. Bu, əməkdaşlığın sistemli xarakter aldığını göstərir.

Türk Dövlətləri Təşkilatı çərçivəsində inteqrasiya artıq dərinləşməkdədir. Hazırda təşkilat daxilində 35-dən artıq sahə üzrə əməkdaşlıq mövcuddur və bu siyahı davamlı şəkildə genişlənir. Hərbi, müdafiə sənayesi və təhlükəsizlik sahələrinin bu prosesə daxil edilməsi tamamilə məntiqlidir.

Türk dövlətləri arasında hərbi əməkdaşlıq ideyası coğrafi mövqe, mövcud geosiyasi şərait və ortaq maraqlardan irəli gəlir. Bu təşəbbüs heç bir gücə qarşı yönəlməyib. Məqsəd dövlətlərarası inteqrasiyanın hərbi və müdafiə sənayesi sahəsində də davam etdirilməsi üçün konseptual çərçivə yaratmaqdır. Bunun üçün həm resurslarımız, həm siyasi iradəmiz, həm də real zərurət mövcuddur. Artıq bu konsepsiyanın praktik mərhələyə keçməsinin zamanı çatıb.

Prezident İlham Əliyevin türk dövlətləri arasında hərbi sahədə əməkdaşlıq təşəbbüsünü şətrləndirən bir sıra obyektiv və real amillər mövcuddur. Əsas amillərdən birincisi müasir beynəlxalq münasibətlər sistemində güc faktorunun hələ də həlledici rol oynamasıdır. Bu gün təəssüf ki, beynəlxalq hüquq mexanizmləri effektiv şəkildə işləmir. Müdafiə ehtiyacları, regional və.geosiyasi çağırışlar və çəkindirmə siyasəti bu əməkdaşlığı şərtləndirən amillərdəndir. Məhz bu reallıqlar dövlətləri öz təhlükəsizliklərini təmin etmək üçün əlavə əməkdaşlıq formatları axtarmağa vadar edir. Qəbələ Sammitindən sonra müdafiə, müdafiə sənayesi və regional təhlükəsizlik sahələrində ölkələr əməkdaşlığı inkişaf etdirməyi hədəfləyirlər.

### Müqayisəli beynəlxalq təcrübə də nəzərdən keçirilə bilər

Beynəlxalq təcrübədə buna bənzər modellər mövcuddur. Məsələn, Skandinaviya ölkələri arasında NORDEFCO çərçivəsində hərbi əməkdaşlıq hərbi ittifaq olmadan həyata keçirilir. NORDEFCO - Nordic Defence Cooperation (Şimali Avropa Müdafiə Əməkdaşlığı) 2009-cu ildə beş Şimali Avropa ölkəsi tərəfindən yaradılmış hərbi-təhlükəsizlik əməkdaşlıq platformasıdır. Danimarka, Finlandiya, İslandiya, Norveç, İsveçin təsis etdiyi bu qurumun hərbi ittifaq deyil və NATO kimi kollektiv müdafiə öhdəliyi yaratmır. Əsas məqsəd ölkələr arasında təhlükəsizlik və müdafiə sahəsində koordinasiyanı gücləndirmək, resurslardan daha səmərəli istifadə etməkdir. "Hərbi ittifaq olmadan hərbi əməkdaşlıq modeli" kimi təqdim olunan model göstərir ki, eyni coğrafi məkanda yerləşən, ortaq təhlükəsizlik maraqları olan ölkələr hərbi blok yaratmadan da effektiv əməkdaşlıq edə bilərlər.

Eyni zamanda ASEAN ölkələrinin müdafiə nazirləri səviyyəsində əməkdaşlıq mexanizmi göstərir ki, təhlükəsizlik sahəsində koordinasiya mütləq hərbi blok yaratmaq anlamına gəlmir.

ADMM, ASEAN Defence Ministers' Meeting - Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyasına (ASEAN) üzv ölkələrin müdafiə nazirlərinin rəsmi əməkdaşlıq platformasıdır. 2006-cı ildə yaradılan ADMM-də ASEAN-ın 10 dövləti - İndoneziya, Malayziya, Sinqapur, Tailand, Filippin, Bruney, Vyetnam, Laos, Kamboca, Myanma təmsil olunur. Əsas məqsədi regionda etimadın möhkəmləndirilməsi, təhlükəsizlik dialoqunun inkişafı, qeyri-ənənəvi təhlükələrə qarşı birgə yanaşma, müdafiə sahəsində şəffaflıq və koordinasiyanın təminidr. ADMM hərbi ittifaq deyil, NATO tipli kollektiv müdafiə mexanizmi yaratmır.

Hətta 2010-cu ildə ADMM-in genişləndirilmiş formatı - ADMM-Plus təsis edildi. ASEAN ölkələri ilə yanaşı, ABŞ, Çin, Rusiya, Yaponiya, Cənubi Koreya, Hindistan, Avstraliya, Yeni Zelandiya burada təmsil olunur. Məqsəd ASEAN ilə böyük güclər arasında təhlükəsizlik dialoqu, regionda balanslaşdırılmış və inklüziv təhlükəsizlik mühiti yaratmaq, qarşıdurmanın qarşısının alınmasıdır.

Prezident İlham Əliyev türk dövlətləri arasında hərbi əməkdaşlıqdan danışarkən heç də hərbi blok və ya ittifaq yaradılması niyyətində olmadığımızı açıq şəkildə ifadə etdi. Buna baxmayaraq, bəzi dairələr bu təşəbbüsü bilərəkdən təhrif edərək onu təhdid kimi təqdim etməyə, hələ formalaşma mərhələsində olan əməkdaşlığa kölgə salmağa və təzyiq aləti kimi istifadə etməyə çalışırlar. Bir daha vurğulamaq lazımdır ki, türk dövlətləri arasında irəli sürülən hərbi əməkdaşlıq təşəbbüsü hər hansı dövlətə və dövlətlər birliyinə qarşı yönəlməyib və bu, klassik anlamda hərbi ittifaqın yaradılması kimi qiymətləndirilməməlidir.

*Rizvan NƏBİYEV,*
*Milli Məclisin deputatı,*
*siyasi elmlər doktoru*



# Yaxın 10 il ərzində Bakı və Abşeronun su təchizatı, yağış və tullantı suları sistemləri təkmilləşdiriləcək

## Bu barədə qəbul olunan dövlət proqramının icrası xüsusi nəzarətdə saxlanılacaq

Məlum olduğu kimi, Prezident İlham Əliyev 12 yanvar 2026-cı il tarixli sərəncamı ilə "Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı, yağış və tullantı suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üçün Dövlət Proqramı"nı təsdiq edib. Proqram adından da göründüyü kimi, sözügedən ərazilərdə su təchizatı və tullantı suları sistemləri infrastrukturunun inkişaf etdirilməsi, intensiv yağışlar zamanı subasma risklərinin azaldılması, fasiləsiz və dayanıqlı su təminatının gücləndirilməsi məqsədi ilə hazırlanıb.

Yanvarın 12-də dövlət proqramına həsr olunan müşavirədə Prezidentimiz bu sənədin genişliyini və konkretliyini qeyd edərək deyib: "Bütün vəzifələr orada qoyulub, nəzarət də təmin ediləcək, həm hökumət tərəfindən, həm də Prezident Administrasiyası tərəfindən. İctimai nəzarət də, əlbəttə ki, mütləq olmalıdır".

Dövlət başçısı mətbuat qarşısında isə proqramın icrasının geniş işıqlandırılması tələbini qoyub: "Azərbaycan vətəndaşları, xüsusilə Bakı və Abşeronda yaşayan insanlar görsünlər, bilsinlər ki, nə vaxt hansı məsələ öz həllini tapır və yubanmalar da olmamalıdır".

Əvvəla qeyd edək ki, proqram iki mərhələdə həyata keçiriləcək. Birinci mərhələ 2026-2030-cu, ikinci mərhələ isə 2031-2035-ci illəri əhatə edəcək. Birinci mərhələdə su və kanalizasiya infrastrukturu yenidən qurulacaq. İkinci mərhələdə yeni su anbarlarının və nasos stansiyalarının tikintisi, su təchizatının fasiləsizliyinin təmin olunması və müasir xidmət modellərinin tətbiqi prioritet istiqamətlər kimi müəyyən ediləcək.

Proqramın icrası içməli su mənbələrinin dayanıqlığının artırılması, su anbarlarının və supaylayıcı şəbəkələrin inkişaf etdirilməsi, suyun uçot sisteminin təkmilləşdirilməsi, yağış suları sistemlərinin yenilənməsi ilə nəticələnəcək. Bir sözlə, proqram uzunmüddətli strateji hədəflər və icra mexanizmləri müəyyənləşdirib. Bu sənədin Bakı şəhərinin Baş planı ilə uzlaşması da müsbət hal kimi dəyərləndirilməlidir.

Proqram ayrı-ayrı bəndlərə bölünən 9 hissədən ibarətdir. Birinci hissədə qısa xülasə verilir. O, elə bu cür də adlanır: "Qısa xülasə".

"Qlobal trendlər"də dünyada su ehtiyatlarına tələbatın artması və iqlim dəyişikliyinin təsirinin su sektorunda mövcud struktur problemlərinin də dərinləşməsinə səbəb olduğu göstərilir. Bakı şəhərində və Abşeron yarımadasında içməli su təchizatı sistemlərinin mühüm hissəsinin ötən əsrin əvvəllərində qurulduğu, uzunmüddətli istismar nəticəsində texniki baxımdan köhnəldiyi qeyd olunur.

Hazırda sözügedən ərazinin su təchizatı 5 əsas magistral kəmər kompleksi vasitəsilə həyata keçirilir. Bunlar birinci Bakı su kəmərləri (Şollar), ikinci Bakı su kəmərləri (Xaçmaz), Ceyranbatan su kəmərləri, Kür su kəmərləri kompleksləri, Oğuz-Qəbələ-Bakı su kəməridir. Lakin artan su tələbatının tam qarşılanması baxımından bu magistral kəmərlərin potensialı azalıb.

Son onilliklərdə paytaxtımızda yeni yaşayış və qeyri-yaşayış obyektlərinin sürətlə artması mövcud kanalizasiya sistemlərinin daşıma qabiliyətinə də əlavə yük yaradıb. Üstəgəl yağış suları kollektorların həddindən çox yüklənməsinə səbəb olur. Bir sıra qəsəbələrdə mərkəzləşdirilmiş kanalizasiya sistemləri olmadığı üçün tullantı suları qrunt sularına qarışaraq ekoloji tarazlığa mənfi təsir göstərir.

Bu vəziyyətin aradan qaldırılması üçün genişmiqyaslı işlər görülüb. Bununla belə şəbəkənin yenidən qurulması və təkmilləşdirilməsi hələ də prioritet olaraq qalır.

"Hədəf göstəriciləri", "Dövlət Proqramının məqsədləri", "Dövlət Proqramının prioritet istiqamətləri" adlı növbəti hissələr də məhz qarşıda duran mühüm vəzifələrə, hədəflərə, məqsədlərə həsr olunub. Bunlar isə çox və genişmiqyaslıdır. Məsələn, vurğulanır ki, Bakı şəhərində və Abşeron yarımadasında mövcud su təchizatı infrastrukturu əsasən köhnə və yararsızdır. Magistral su kəmərləri, paylayıcı şəbəkələr və su anbarları bir sıra hallarda texniki cəhətdən qüsurludur. Bu isə su itkisinin artmasına və suyun keyfiyyətinin aşağı düşməsinə səbəb olur. Bununla yanaşı, sənəddə sənaye zonalarında və iqtisadi zonalarda su təchizatının dayanıqlığı, həmçinin yeni yaşayış ərazilərinin perspektiv inkişafı üçün alternativ su mənbələrinin istifadəsinin vacibliyi də bildirilir.

Məlumdur ki, Abşeron yarımadasında intensiv urbanizasiya müşahidə olunur. İnfrastrukturlar isə köhnədir. Üstəlik, iqlim dəyişikliyi səbəbindən yağış riskləri yüksəkdir. Suyun yığılması kanalizasiya sistemi olmayan ərazilərdə subasma halları yaradır. İnfrastruktura, yaşayış evlərinə və ətraf mühitə zərər dəyir. Odur ki, sel və daşqınların idarə olunması üçün müasir texnologiyaların tətbiqi, yağış sularının tez toplanması və paylanması üçün sistemlər inkişaf etdirilməlidir.

Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı və tullantı sularının idarə olunması infrastrukturunun dayanıqlığını və səmərəliliyini artırmaq üçün rəqəmsal texnologiyaların tətbiqi vacibdir. Bu texnologiyaların tətbiqi su itkisini azaldacaq, təchizatın fasiləsizliyini artıracaq və fəlakət risklərinə operativ reaksiya vermək imkanlarını genişləndirəcək.

Su itkisi səviyyəsinin azaldılması üçün isə müvafiq idarəetmə sistemlərini tətbiq etmək vacibdir. Bu sistemlərin tətbiqi nəticəsində su axınları izlənəcək, sızma və itkilər vaxtında aşkarlanacaq və aradan qaldırılacaq.

Qaldı ki, həyata keçirilməsi vacib sayılan bu və digər layihələrin maliyyələşdirilməsinə, sözügedən sənəddə həmin məsələdən də ətraflı bəhs olunub. Məlumdur ki, su təchuzatı və tullantı sularının idarə olunması layihələrinin icrası yüksək maliyyə tələb edir. Ona görə də maliyyələşmə mənbələrinin məhdudluğu onların icrasına mənfi təsir göstərə bilər. Bu riskin neytrallaşması məqsədilə dövlət büdcəsi ilə yanaşı, beynəlxalq maliyyə institutları ilə və donor təşkilatlarla əməkdaşlıq gücləndiriləcək və alternativ maliyyə mənbələri cəlb ediləcək.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Azərbaycanın "yaşıl enerji" gündəliyi qlobal səviyyədə təqdir olunur

Çağdaş dövrümüzün əsas qlobal çağırışlarından biri bərpaolunan enerjiyə keçiddir. Qürur hissi ilə qeyd etməliyik ki, respublikamızda bu çağırış zamanında dəyərləndirilir, bərpaolunan və "yaşıl enerji" istehsalı ilə bağlı müxtəlif layihələr həyata keçirilir. Bir neçə gün əvvəl "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının rəsmi açılışı da göstərdi ki, Azərbaycanda bu sahədə işlər sürətlə və keyfiyyətlə aparılır.

"Xızı-Abşeron" Külək-Elektrik Stansiyası ölkəmizin enerji potensialını gücləndirəcək, bu sahədə qarşıya qoyulan məqsədlərin təmin olunmasına böyük töhfələr verəcək. Ən əsası, 4 il ərzində ərsəyə gələn stansiyanın dayanıqlı şəkildə işləməsi ölkəmizin iqtisadi inkişafına mühüm təkan verəcək. "Xızı-Abşeron" stansiyası Azərbaycanın "yaşıl enerji" siyasətinə uyğun olaraq, enerji balansını daha da artırır. Külək enerjisi həm də ekoloji cəhətdən təmiz olduğundan atmosferə karbon emissiyalarını azaldacaq və ətraf mühitə mənfi təsiri minimuma endirəcək. Bu cür layihələr həm də xarici investorlarla əməkdaşlığı gücləndirir, yeni layihələrin reallaşmasına imkan yaradır.



Bu gün dünyadakı geosiyasi vəziyyət enerji təhlükəsizliyinin zəruriliyini, ölkələrin milli təhlükəsizliyinin ayrılmaz hissəsi olduğunu təsdiqləyir. Azərbaycanda bu sahədə görülən işlər respublikamızın enerji siyasətinin əhəmiyyətini daha da artırır.

Azərbaycan qazının təchizat coğrafiyası genişlənməkdədir və əhatəsinə görə ölkəmiz bu gün dünya miqyasında qabaqcıl yerlərdən birini tutur. Yaxın vaxtlarda respublikamızdan təbii qaz idxal edən dövlətlərin sayı daha da artacaq.

Eyni zamanda ölkəmizdə 2030-cu ilə qədər elektrik enerjisinin qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payının 30 faizə çatdırılması hədəflənib. "Yaşıl enerji" mənbələrinin texniki potensialı quruda 135 QVt, dənizdə 157 QVt-dır. Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası "yaşıl enerji" zonası elan edilib.

Onu da qeyd edək ki, ötən illər ərzində ölkəmizdə enerji sistemi müasirləşdirilib. 2025-ci ildə istifadəyə verilən "8 Noyabr" Elektrik Stansiyasının, habelə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında su-elektrik stansiyalarının istismara verilməsi nəticəsində ölkəmizdə enerjisistemin qoyuluş gücü 15.6 faiz artıb. "8 Noyabr" Elektrik Stansiyası hesabına şərti yanacaq sərfiyyatının kəskin aşağı düşməsilə təbii qaza qənaət etmək imkanı yaranır. Prezident İlham Əliyevin də söylədiyi kimi, Azərbaycan qazına bu gün dünya bazarlarında böyük tələbat var və nə qədər biz daxildə təbii qaza qənaət etsək, ixrac imkanlarımız da bir o qədər artacaq.

Daha çox təbii qaza qənaət etmək imkanı verən "yaşıl enerji" gündəliyi Azərbaycanı enerji təhlükəsizliyi baxımından daha cəlbedici edir. Təsadüfi deyil ki, Azərbaycanın "yaşıl enerji" gündəliyi qlobal səviyyədə təqdir olunur. Günəş və külək enerji stansiyalarına aid sərmayədarlarla imzalanmış müqavilələr isə 2030-cu ilə qədər 6 qiqavat günəş və külək enerjisi təmin etməyə imkan verəcək. İşğaldan azad olunmuş ərazilərin potensialı hesabına növbəti beş il ərzində bərpaolunan mənbələrdən enerji istehsalını 2 dəfə artırmaq mümkün olacaq. Beləliklə, Azərbaycanın atdığı addımların nə dərəcədə düzgün olduğu bir daha təsdiqini tapır.

Cənab Prezident bəyan edib ki, növbəti böyük stansiyaların açılışı Biləsuvarda, Neftçalada, Naxçıvanda, işğaldan azad edilmiş ərazilərdə nəzərdə tutulur. Bu potensialın eyni zamanda investisiya və müsbət proqnozu olan reytinq səviyyəsində olması xarici invertorların Azərbaycana sərmayə yatırmaq marağını artırmaqdadır.

***Könül NURULLAYEVA,***
***Milli Məclisin deputatı***

# Hədəf bəllidir

## Abşeron yarımadası, o cümlədən paytaxtda su və kanalizasiya sarıdan problem yaşanmamalıdır

Abşeron yarımadası, o cümlədən Bakı əhalinin sıx məskunlaşdığı və sənaye baxımından inkişaf etmiş ərazidir. Regionun dayanıqlı inkişafı, əhalinin sağlamlığı və ekoloji tarazlığın qorunması isə birbaşa su təchizatı və kanalizasiya sistemlərinin vəziyyətindən asılıdır. Bu baxımdan sürətli urbanizasiya, əhalinin artımı və iqlim dəyişmələri fonunda içməli suya olan tələbatın ödənilməsi, çirkli suların təhlükəsiz idarə olunması strateji əhəmiyyət kəsb edir.

Tarixi baxımdan Bakı və Abşeronun su təchizatı mənbələri məhdud olub. Və bu da zamanla iri infrastruktur layihələrinin həyata keçirilməsini zəruri edib. Müasir dövrdə isə mövcud su mənbələrinin səmərəli istifadəsi, kanalizasiya xətlərinin yenilənməsi və ətraf mühitə təsirin minimuma endirilməsi əsas prioritetlər sırasında yer alır. Çünki Bakı və Abşeronda su təchizatı sistemi uzun illər ərzində formalaşmış mürəkkəb infrastruktur şəbəkəsidir. Ərazinin təbii su ehtiyatlarının məhdudluğu hər zaman əhalinin içməli suya çıxışını çətinləşdirdiyi üçün su təminatı əsasən kənar mənbələr hesabına həyata keçirilir. Kür çayı hövzəsindən gətirilən su, eləcə də yeraltı su ehtiyatları şəhərin əsas su mənbələri sırasında mühüm rol oynayır.

Qeyd edək ki, Bakının su təchizatı və kanalizasiya sistemlərinin əsas hissəsi 1980-ci illərin sonunadək formalaşdırılıb. O dövrdən bu günə qədər şəhərin yaşayış əraziləri 2,6 dəfə genişlənib, əhalinin sayı isə 2,1 dəfə artıb. Bu artım da təbii olaraq, köhnə infrastrukturun üzərinə əlavə yük salıb. Digər tərəfdən əsas magistral xətlərin böyük əksəriyyəti istismar müddətini başa vurub və mövcud nəzarət sistemləri müasir standartlara cavab verməməyə başlayıb. Boru xətlərinin orta istismar müddətinin 40-50 il olduğu nəzərə alınarsa, hazırkı sistemlərin texniki baxımdan köhnəldiyi aydın görünür.

Əslində, problemləri dərinləşdirən əsas amillərdən biri yağış sularının kanalizasiya xətlərinə yönləndirilməsidir. 1990-cı illərdə paytaxtda mövcud olan ayrıca yağış sistemlərinin kanalizasiya kollektorlarına çevrilməsi nəticəsində sistemlərdə əlavə yüklənmələr yaranıb və güclü yağıntılar zamanı daşmalar adi hala çevrilib.

Rəsmi rəqəmlərə görə, Azərbaycanda içməli suya əlçatanlıq təxminən 73-74 faizdir. Müqayisə üçün bildirək ki, Avropa İttifaqı ölkələrində bu göstərici 95 faizə çatır. Fasiləsiz su təminatı ölkə daxilində də fərqlidir: bütövlükdə ölkə üzrə bu göstərici 72,5, o cümlədən Bakı və Abşeronda 70 faizdir. Paytaxtla bölgələr arasındakı bu fərqin əsas səbəbi son illər rayonlarda həyata keçirilən genişmiqyaslı quruculuq və infrastruktur layihələridir. Məhz bu layihələr bölgələrdə fasiləsiz içməli suya əlçatanlığı xeyli yüksəldib.



Su itkiləri məsələsində vəziyyət daha ciddidir. Azərbaycanda faktiki su itkiləri 38,6 faizə çatır. Daxili istismarda istifadə olunan sular da itkilərə daxil edilsə, ümumi göstərici təxminən 46 faizə yüksələr. Müqayisə üçün qeyd edək ki, Avropa ölkələrində daxili istismar sularının payı cəmi 3 faiz olduğu halda Azərbaycanda bu rəqəm 9 faizdir. Yaranmış fərq su şəbəkələrinin köhnəlməsi və səmərəsiz idarə olunmasının nə qədər ciddi problem olduğunu açıq ortaya qoyur.

Artıq illərdir yığılıb qalan həmin problemlər fonunda Bakı və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair qəbul olunan 2026-2035-ci illər üçün Dövlət Proqramı ilə bağlı müşavirənin keçirilməsi dövlətin bu məsələyə nə qədər sistemli və kompleks yanaşmasını göstərir. Müşavirədə çıxış edən Prezident İlham Əliyevin fikirlərinə nəzər salaq: "Bakının və Abşeron yarımadasının içməli su problemləri əfsuslar olsun ki, uzun illər ciddi problem kimi qarşımızda durur. Qeyd etdiyim kimi, bu istiqamətdə müəyyən işlər görülüb. Ancaq mən hesab edirəm, vaxt gəlib çatıb ki, genişmiqyaslı və müfəssəl dövlət proqramı qəbul edilsin. Bu proqram Bakı şəhərini, onun qəsəbələrini, Sumqayıt şəhərini və Abşeron rayonunu əhatə edəcək. Bir müddət bundan əvvəl mənim göstərişimlə proqramın hazırlanması prosesi başlamışdır və demək olar ki, proqram hazırdır. Biz bu gün həm bu proqramı müzakirə edəcəyik, eyni zamanda görülmüş işlərdən danışacağıq və görüləcək işlərlə bağlı müzakirə aparacağıq".

Sirr deyil ki, bu gün artan əhali sayı və genişlənən yaşayış massivləri suya olan tələbatı sürətlə artırır. Xüsusən Abşeron yarımadasında plansız tikilmiş yaşayış sahələrinin çoxalması mövcud su şəbəkələrinin əlavə yüklənməsinə səbəb olur. Bəzi ərazilərdə su itkiləri, o sıradan köhnəlmiş borular və texniki nasazlıqlar problemin üzərinə əlavə problem qoyur. Biz hələ su ehtiyatlarından səmərəsiz istifadəni və belə demək mümkünsə, su oğurluğunu demirik.

Su təchizatı ilə yanaşı, kanalizasiya sistemi də ciddi problemlərdən biri hesab olunur. Paytaxtın mərkəzi ərazilərində kanalizasiya şəbəkəsi nisbətən normal olsa da, Abşeronun bir çox qəsəbə və kəndində bu sistem ya tam mövcud deyil, ya da köhnə və yararsız vəziyyətdədir. Çirkli suların təmizlənmədən ətraf mühitə axıdılması torpağın, yeraltı suların və Xəzər dənizinin çirklənməsinə səbəb olur. Bu vəziyyət ekoloji risklərlə yanaşı, insan sağlamlığı üçün də təhlükə yaradır. "Dənizə buraxılan sular 100 faiz təmizlənməlidir. Xəzər dənizinin çirklənməsinin əsas amillərindən biri də budur. Ona görə burada da lazımi əlavə tədbirlər görüləcək. Hövsan sutəmizləyici stansiyasının modernləşdirilməsi və potensialının genişləndirilməsi də gündəlikdə duran məsələdir", - deyə dövlət başçısı bu məsələyə də münasibət bildirib.

Prezident İlham Əliyev onu da vurğulayıb ki, hazırda əhalinin cəmi 50 faizi kanalizasiya xidməti ilə təmin olunur. Leysan yağışları olanda şəhər iflic vəziyyətinə düşür və ciddi problemlər yaranır. Məhz bu problemi həll etmək üçün sözügedən dövlət proqramı çərçivəsində mühüm addım atılacaq - Bakının 30 küçəsində yeni kollektor şəbəkəsi qurulacaq ki, bu da yağış sularının idarə olunmasına böyük fayda verəcək.

Göründüyü kimi, dövlət tərəfindən həyata keçirilən layihələr su təchizatı və kanalizasiya sahəsində müsbət dəyişikliklərə yol açır. Yeni təmizləyici qurğuların tikintisi, əsas kollektorların yenilənməsi və müasir texnologiyaların tətbiqi problemlərin mərhələli şəkildə həllinə imkan yaradacaq. Bununla belə mövcud vəziyyət göstərir ki, davamlı nəticə əldə etmək üçün yalnız infrastrukturun qurulması kifayət deyil. Suya qənaət mədəniyyətinin formalaşdırılması, ictimai nəzarətin gücləndirilməsi və ekoloji məsuliyyətin artırılması da prosesin ayrılmaz hissəsidir.

Nəticə etibarilə Bakı və Abşeron yarımadasında su təchizatı və kanalizasiya sistemi təkcə texniki deyil, həm də sosial və ekoloji əhəmiyyət daşıyan bir məsələdir. Bu sahədə atılan hər addım regionun gələcək inkişafına, əhalinin həyat keyfiyyətinin yüksəlməsinə və ətraf mühitin qorunmasına birbaşa təsir göstərir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Azərbaycanın xarici siyasətinin uğurları




## Azərbaycanın yeni strateji mövqeyi

### Avrasiya geosiyasətində Azərbaycanın dəyişən roluna baxış

Yaxın keçmişə qədər Azərbaycan bir çox halda geosiyasi proseslərdən kənarda qalan ölkə kimi təqdim olunurdu - əsasən neft və qaz ehtiyatları ilə əhəmiyyət kəsb edən, həllini tapmamış münaqişələrlə məhdudlaşan və daha böyük güclərin gündəliyinə uyğun hərəkət edən bir dövlət kimi. Lakin həmin yanaşma bu gün artıq öz aktuallığını itirməkdədir. Xəzər dənizindən Mərkəzi Asiyaya, Cənubi Qafqazdan Avropaya qədər uzanan geniş coğrafiyada Azərbaycan regional dəyişikliklərə təkcə uyğunlaşan deyil, eyni zamanda onları formalaşdıran fəal aktor kimi çıxış edir.

Bu dəyişiklik təsadüfi deyil. O, postmünaqişə dövrünün yaratdığı yeni reallıqların, infrastruktur layihələrinə əsaslanan diplomatiyanın və blokların qarşıdurmalarından kənarda dayanan müstəqil xarici siyasət xəttinin nəticəsidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan coğrafi mövqeyini strateji üstünlüyə çevirərək qlobal əlaqələrin yenidən qurulduğu bir mərhələdə regionlar, enerji sistemləri və siyasi maraqlar arasında mühüm əlaqələndirici rol oynamağa başlayıb.

Azərbaycanın bu cür rol oynaya biləcəyi fikri, əslində, yeni deyil. 1990-cı illərin ortalarında - ölkənin siyasi qeyri-sabitlik və davam edən münaqişə şəraitində olduğu dövrdə tanınmış amerikalı strateq Zbiqnev Bjezinski qeyd edirdi ki, Azərbaycan suverenliyini möhkəmləndirə və iqtisadi əsaslarını gücləndirə bilsə, müstəqil və uğurlu dövlət üçün zəruri keyfiyyətlərə malikdir. 1996-cı ildə "Cənubi Qafqaz yol ayrıcında" adlı kitabım üçün Z.Bjezinskidən müsahibə aldığım zaman, eləcə də 2010-cu ildə "Jamestown" fondunda yenidən söhbət zamanı o, Azərbaycanı regional geosiyasətdə mühüm halqa kimi xarakterizə etmişdi. Z.Bjezinskinin fikrincə, Azərbaycanın uğuru və ya uğursuzluğu Xəzər hövzəsi və Cənubi Qafqazda ümumi tarazlığı birbaşa müəyyən edəcəkdi. Üç onillik sonra bu qiymətləndirmə artıq nəzəri mülahizə deyil, real proseslərlə təsdiqlənir.

#### Münaqişədən sonrakı dövr: bərpa və strateji yenidənqurma

2023-cü ildə Azərbaycanın ərazi bütövlüyünün tam bərpası ölkənin müasir tarixində mühüm dönüş nöqtəsi oldu. Lakin bundan sonrakı mərhələ heç də az əhəmiyyətli deyil. Postmünaqişə vəziyyətini dondurmaq əvəzinə Bakı işğaldan azad olunmuş ərazilərin milli və regional inkişaf proseslərinə sürətli inteqrasiyasını təmin etdi. Qısa müddət ərzində hava limanları, avtomobil və dəmir yolları, enerji infrastrukturu, yeni yaşayış və sənaye layihələri həyata keçirildi.

Bu yenidənqurma dağıdılmış infrastrukturun sadəcə bərpası ilə məhdudlaşmır. Məqsəd Qarabağın Azərbaycanın uzunmüddətli iqtisadi strategiyasında tutduğu yeri yenidən müəyyənləşdirmək, onu nəqliyyat-logistika dəhlizləri, bərpaolunan enerji mənbələri və rəqəmsal infrastrukturla əlaqələndirməkdir. "Ağıllı şəhər" konsepsiyaları və "yaşıl enerji" zonalarının yaradılması postmüharibə bərpasını gələcəyə yönəlmiş inkişaf modeli ilə uzlaşdırır.

Bu yanaşma xarici tərəfdaşlara aydın mesaj verir: Azərbaycan təkcə ərazilər üzərində nəzarəti bərpa etmək deyil, həm də həmin əraziləri səmərəli şəkildə idarə və inkişaf etdirmək imkanına malikdir. Uzun illər dondurulmuş münaqişələrlə xarakterizə olunan region üçün bu amilin xüsusi əhəmiyyəti var.

#### Orta dəhliz və Avrasiyada yeni əlaqə modeli

Azərbaycanın artan regional rolu xüsusən nəqliyyat və əlaqə sahəsində özünü göstərir. Şərq-Qərb ticarət marşrutlarında yaranan yeni çağırışlar fonunda Çin və Mərkəzi Asiyanı Xəzər dənizi və Cənubi Qafqaz üzərindən Avropa ilə birləşdirən Orta dəhliz strateji əhəmiyyət kəsb etməyə başlayıb. Azərbaycan bu dəhlizin əsas əməliyyat mərkəzlərindən biridir. Ələt Beynəlxalq Dəniz Limanına yatırılan investisiyalar, dəmir yolu infrastrukturunun yenilənməsi, Xəzər dənizi üzərindən daşımaların genişləndirilməsi və gömrük prosedurlarının uzlaşdırılması nəticəsində Azərbaycan tranzit ölkədən regional logistika mərkəzinə çevrilib. Bu, ölkənin Avropa İttifaqı, Türkiyə və Mərkəzi Asiya dövlətləri üçün önəmini xeyli artırıb.

Qazaxıstan, Özbəkistan və Türkmənistan üçün Azərbaycan getdikcə əsas qərb istiqamətli çıxış qapısı rolunu oynayır. Birgə nəqliyyat və enerji layihələri, eləcə də koordinasiyalı infrastruktur planlaşdırması Xəzər hövzəsində funksional əməkdaşlıq mühitinin formalaşmasına səbəb olub. Bu əməkdaşlıq regional manevr imkanlarını genişləndirir və Azərbaycanın Avrasiya məkanında mühüm mövqeyini möhkəmləndirir.

#### Asılılıqdan kənar enerji diplomatiyasına

Enerji sektoru Azərbaycanın beynəlxalq mövqeyində əsas yer tutmaqda davam edir. "Cənub qaz dəhlizi" vasitəsilə Avropaya qaz ixracı qitənin enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Bununla yanaşı, Azərbaycan külək və günəş enerjisi, eləcə də "yaşıl enerji"nin ötürülməsi layihələrinə ciddi sərmayələr yatırır.

Bu yanaşma, yəni mövcud tələbatın ödənilməsi ilə yanaşı, uzunmüddətli enerji keçidinə hazırlaşmaq Azərbaycanın etibarlı və strateji tərəfdaş kimi mövqeyini gücləndirir. Məhz bu səbəbdən ölkənin beynəlxalq təşkilatlarda, o cümlədən Birləşmiş Millətlər Təşkilatı çərçivəsində fəallığı artıb və nüfuzlu beynəlxalq tədbirlərə evsahibliyi etməsi genişlənib.

#### Strateji muxtariyyətə əsaslanan xarici siyasət

Azərbaycanın mövqeyinin güclənməsində xarici siyasət strategiyası mühüm rol oynayır. Bakı tək bir geosiyasi bloka bağlanmadan müstəqil və balanslaşdırılmış siyasət yürüdərək müxtəlif güc mərkəzləri ilə işgüzar münasibətləri qoruyub saxlayır. Prezident İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Rusiya Prezidenti Vladimir Putin, İran Prezidenti Məsud Pezeşkian, Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayen və ABŞ Prezidenti Donald Trampla apardığı dialoqlar bu siyasətin praktiki təzahürüdür.

Bu xətt Azərbaycanın beynəlxalq sistemdə manevr imkanlarını genişləndirir. Avropa İttifaqı ilə münasibətlər enerji, nəqliyyat və tənzimləyici əməkdaşlıq əsasında inkişaf edir, Rusiya ilə əlaqələr praqmatik çərçivədə saxlanılır, Türkiyə və ABŞ ilə tərəfdaşlıq isə müdafiə və iqtisadi sahələrdə möhkəmlənir. Nəticə etibarilə söhbət neytrallıqdan deyil, rəqabət aparan təsir mərkəzləri arasında strateji manevr qabiliyyətindən gedir.

#### Potensialdan real təsirə

Bu proseslər göstərir ki, Azərbaycan artıq regional proseslərin passiv iştirakçısı deyil. O, Cənubi Qafqazda təşəbbüslər irəli sürən və gündəmi formalaşdıran dövlətə çevrilib. Uzun müddət xarici rəqabət və qeyri-müəyyənliklə səciyyələnən region getdikcə Bakının irəli sürdüyü əməkdaşlıq və əlaqəlilik layihələri ətrafında formalaşır.

Eyni zamanda bu mövqenin davamlı olması mürəkkəb proseslərin düzgün idarə olunmasından asılıdır. Əsas çağırış genişlənmədən daha çox mövcud nailiyyətlərin möhkəmləndirilməsidir - təhlükəsizliklə əlaqəliliyin, iqtisadi inteqrasiya ilə suverenliyin, regional ambisiya ilə uzunmüddətli sabitliyin balanslaşdırılmasıdır.

Buna baxmayaraq, müasir beynəlxalq sistemdə, hakimiyyətin getdikcə daha çox şəbəkəli və tranzaksiya xarakteri daşıdığı bir dövrdə Azərbaycanın nəticələri təsirli görünür. Əvvəllər Z.Bjezinski tərəfindən potensial kimi qiymətləndirilən anlayış bu gün real fəaliyyət kimi üzə çıxmağa başlayır: dövlət əlaqəlilikdən, yenidənqurmadan və strateji muxtariyyətindən istifadə edərək ətraf mühiti öz ətrafında formalaşdırır, ətraf mühit tərəfindən formalaşdırılmır.

Bu gün Azərbaycanın trayektoriyası strateji sualı artıq yalnız Bakı üçün deyil, onun tərəfdaşları üçün də ortaya qoyur: beynəlxalq aktorlar Azərbaycanı regional gündəliyi formalaşdıran bir güc kimi - əlaqəlilik və praqmatik diplomatiya vasitəsilə sabitlik dayağı olaraq qəbul etməyə hazırdırlar, yoxsa ölkəni yalnız postsovet keçidinin mövcud stereotipləri çərçivəsindəmi görürlər? Bu suala veriləcək cavab yalnız Cənubi Qafqazın gələcəyini deyil, eyni zamanda qloballaşmanın normaya çevrildiyi bir dövrdə daha əlaqəli Avrasiyanın dayanıqlığını da müəyyən edəcək.

***Elxan NURİYEV,***
***siyasi elmlər doktoru, Brüssel Enerji Klubunun qlobal enerji üzrə məsləhətçisi, Vyanada yerləşən Siyasi Risk və Strateji Məsləhət Xidmətinin baş eksperti, ABŞ-nin Fulbrayt proqramının (1995-1997) və Almaniyanın Humboldt mükafatının (1999-2000) laureatı***

***Redaksiyadan:*** *Məqalə Londondakı strateji yenidənqurma şirkəti "Reinvantage"in rəsmi saytında və Norveçin beynəlxalq şəbəkəyə malik aparıcı qlobal geosiyasət qəzetlərindən olan "GEOPOLITIKA"da dərc edilib.*

## "Qazaxıstan və Azərbaycan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun mərkəzi halqalarıdır"

Regional təhlükəsizlik arxitekturasının transformasiyası, yeni iqtisadi və tranzit əlaqələrinin sürətli inkişafı fonunda Azərbaycan ilə Qazaxıstan arasında strateji tərəfdaşlıq xüsusilə vacibdir. Qazaxıstanlı politoloq Zamir Karajanov AZƏRTAC-a müsahibəsində ikitərəfli münasibətlərin hazırkı vəziyyəti, Bakı və Astananın beynəlxalq səviyyədə mövqelərinin əlaqələndirilməsi, Trans-Xəzər marşrutunun perspektivləri və Türk Dövlətləri Təşkilatının (TDT) təhlükəsizlik kontekstində rolu barədə danışıb.

*- Azərbaycan ilə Qazaxıstan arasında strateji tərəfdaşlığın hazırkı vəziyyətini və dərinliyini necə qiymətləndirirsiniz?*

- Həm faktlar, həm də rəqəmlər bunu sübut edir. Dövlət başçıları istər ikitərəfli, istərsə də çoxtərəfli formatlarda müntəzəm dialoq aparırlar. Yeri gəlmişkən, 2025-ci ildə mühüm bir mərhələ Azərbaycan Prezidenti İlham Əliyevin Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşündə tamhüquqlu üzv kimi iştirak etməsi oldu. Digər simvolik fakt isə ötən il Azərbaycan-Ermənistan sərhədindən keçən ilk qatarın Qazaxıstanın taxıl yükünü daşımasıdır. 2021-ci ildən bəri ticarətdə sabit artım müşahidə edirik.

*- Bakı və Astana əsas regional və beynəlxalq məsələlərdə mövqelərini nə dərəcədə effektiv şəkildə əlaqələndirir?*

- Hər iki ölkə regional səviyyədə əməkdaşlığa maraq göstərir. Bu, yuxarıda qeyd edildiyi kimi, təkcə onların Mərkəzi Asiyadakı qarşılıqlı fəaliyyətlərində deyil, həm də Türk Dövlətləri Təşkilatı çərçivəsində özünü göstərir. Bundan əlavə, Qazaxıstan və Azərbaycan Orta dəhlizin inkişafı, Trans-Xəzər fiber-optik kabeli və dəniz dibi boyunca yüksəkgərginlikli elektrik xəttinin çəkilməsi kimi iri miqyaslı uzunmüddətli layihələrin həyata keçirilməsində əsas oyunçulardır. Sonuncu layihə xüsusilə əhəmiyyətlidir, çünki bu, ölkələrimizə Avropa bazarına "yaşıl enerji" ixrac etməyə imkan verəcək və milli enerji sistemlərinin modernləşdirilməsini stimullaşdıracaq. Bu cür layihələrin həyata keçirilməsi region ölkələri arasında koordinasiya tələb edir.

*- İki ölkə arasında əməkdaşlıq tranzit dəhlizlərinin, xüsusən də Trans-Xəzər marşrutunun inkişafında hansı rolu oynayır?*

- Onlar əsas rola malikdir. Qazaxıstan və Azərbaycan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun mərkəzi halqalarıdır və bütün dəhlizin tutumu onların əməkdaşlığının səmərəliliyindən asılıdır. 2024-cü ildə bu marşrut üzrə yükdaşımalar 4,5 milyon tona çatıb ki, bu da 2023-cü illə müqayisədə 62 faiz çoxdur. Hazırkı məqsəd bu rəqəmi 2027-2028-ci illərə qədər 10 milyon tona çatdırmaqdır. Buna nail olmaq üçün hər iki ölkə infrastrukturun modernləşdirilməsini sinxronlaşdırır: Aktau, Kurık və Bakı (Ələt) limanlarının tutumunu genişləndirir, bərə xidmətlərini inkişaf etdirir və rəqəmsal logistika platformalarını tətbiq edir. Bu iş sayəsində Trans-Xəzər marşrutu üzrə yükdaşımalar artmaqla yanaşı, qatarların mənzilə çatma müddəti də 11-15 günə endirilir ki,



bu da marşrutu qlobal miqyasda rəqabətədavamlı edir. Lakin tranzit yükdaşımalarının həcmi baxımından o, hələ də Çin və Avropanı birləşdirən digər marşrutlardan geri qalır.

*- Azərbaycan ilə Qazaxıstan arasında Türk Dövlətləri Təşkilatı çərçivəsində hərbi əməkdaşlığın səviyyəsini və perspektivlərini, o cümlədən təlimlər və təcrübə mübadiləsini, eləcə də Azərbaycan Prezidenti İlham Əliyevin bu il birgə hərbi təlimlər keçirmək təklifini necə qiymətləndirirsiniz?*

- Bu, terrorizm, separatizm və sərhədyanı cinayətkarlıq kimi ümumi təhlükəsizlik problemlərinin neytrallaşdırılmasına yönəlmiş dinamik inkişaf edən bir əməkdaşlıqdır. Belə bir əməkdaşlıq istiqaməti bir tərəfdən kollektiv məsuliyyəti gücləndirir, digər tərəfdən isə regiondakı iki ordunun döyüş hazırlığını potensial olaraq artırır. 2025-ci ilin oktyabr ayında Qazaxıstan və Azərbaycanın Müdafiə nazirlikləri daha sıx hərbi koordinasiyanı nəzərdə tutan 2026-cı il üçün Əməkdaşlıq Planı imzaladılar.

Azərbaycan Prezidentinin təşəbbüsü tarixi bir presedent yaradır, çünki qarşıdan gələn manevrlər TDT-nin bütün üzv ölkələrinin ilk birgə hərbi təlimləri olacaq. Bu addım müdafiə sektorunda yaxınlaşmanın məntiqi nəticəsidir və dövlətlərin qlobal qeyri-sabitlik qarşısında konsolidasiya arzusunu əks etdirir. Bundan əlavə, TDT ölkələrinin hərbi manevrləri suverenliyə, müstəqilliyə və ərazi bütövlüyünə hörmət prinsiplərinin getdikcə aşındığı müasir dünyada beynəlxalq hüququn devalvasiyasına cavabdır.

*- Azərbaycan ilə Qazaxıstan arasında TDT çərçivəsində əməkdaşlıq türk dövlətləri üçün kollektiv təhlükəsizlik elementlərinin inkişafına töhfə verə bilərmi?*

- Prinsipcə, TDT çərçivəsində imzalanan sənədlərdə artıq birgə mübarizədən tutmuş terrorizmə, separatizmə, ekstremizmə, kəşfiyyat paylaşımına və hərbi texnikanın standartlaşdırılmasına qədər kollektiv təhlükəsizlik elementləri mövcuddur. Bununla belə, hazırda onlar ənənəvi hərbi ittifaqlar və bloklardakı öhdəliklərə bənzər qarşılıqlı müdafiə bəndini əhatə etmir.

*- Sizin fikrinizcə, Azərbaycan ilə Qazaxıstan arasında əməkdaşlığı qarşıdakı illərdə keyfiyyətcə yeni səviyyəyə qaldıra biləcək hansı praktik addımlar var?*

- Əməkdaşlığı keyfiyyətcə yeni səviyyəyə qaldıran konkret praktik addımlar deyil, burada sehrli dirijor çubuğu yoxdur. Ölkələri həmin səviyyəyə aparan ilkin çərçivəni və sərhədləri, məqsədləri və vəzifələri aşan qarşılıqlı əlaqənin təbiəti və ölkələr arasında əməkdaşlığın inkişafıdır.

## "Türk dünyasının mövcudluğu və təhlükəsizliyi qlobal sabitliyin təminatçısı kimi dəyərləndirilməlidir"

"Bərpaolunan enerji mənbələri və "yaşıl enerji" siyasətləri çərçivəsində Azərbaycan-Naxçıvan-Türkiyə-Avropa, eləcə də Azərbaycan-Türkiyə-Gürcüstan-Bolqarıstan "yaşıl enerji" dəhlizlərinin formalaşması Azərbaycanın və Türkiyənin enerji resurslarının regionda və Avropa bazarlarında satışa çıxarılması baxımından strateji əhəmiyyət daşıyır".

Bunu AZƏRTAC-a açıqlamasında türkiyəli politoloq İsmail Cingöz bildirib.

O qeyd edib ki, Türkiyənin enerji keçidi mərkəzi kimi mövqeyinin möhkəmlənməsi ölkəsinin, Azərbaycanın, eləcə də bütövlükdə türk dünyasının geosiyasi, geostrateji və geoiqtisadi hədəf və potensialını daha yüksək səviyyəyə qaldırır. "Tarixboyu Anadolu və Qafqaz geosiyasi, strateji və geoiqtisadi baxımdan mühüm mövqedə yer tutub və bu üstün mövqe günümüzdə yeni layihələr fonunda daha da güclənməkdədir. Yeni dünya sisteminin formalaşdığı bir dövrdə türk dünyasının, Qafqazın və Anadolunun strateji əhəmiyyəti daha aydın görünür. Azərbaycanın və Türkiyənin lokomotivliyi ilə türk dünyasının üçüncü qütb kimi formalaşması region xalqları üçün qürurverici prosesdir. Ankaranın Avropanın enerji təhlükəsizliyi və iqlim gündəmində



artan siyasi və strateji çəkisi "yaşıl dönüşüm" və "yaşıl enerji" layihələri ilə daha da möhkəmlənəcək. Yeni dünya sisteminin qurulduğu şəraitdə Türkiyə, Azərbaycan, eləcə də bütövlükdə Cənubi Qafqaz və Mərkəzi Asiyanın yeraltı və yerüstü resurslara malik olması, həmçinin Şərqlə Qərb arasında enerji və ticarətin ən qısa marşrutları üzərində yerləşməsi səbəbindən "paylaşıla bilməyən" strateji məkana çevrilib. Bu reallıq Türk Dövlətləri Təşkilatının (TDT) Azərbaycan ilə Türkiyənin lokomotivliyi ilə üçqütblü dünya nizamında mühüm mərhələyə daxil olmaq imkanlarını artırır", - deyə politoloq vurğulayıb.

İsmail Cingöz qeyd edib ki, yeni qlobal düzəndə Türkiyə yalnız lokal müstəvidə deyil, Qafqaz, o cümlədən Azərbaycan və türk dünyası ilə birlikdə dəyərləndirməlidir: "TDT-yə üzv olan hər hansı bir türk dövlətinin geosiyasi, geoiqtisadi və geostrateji qiymətləndirilməsi ayrı-ayrılıqda deyil, bütövlükdə təşkilat çərçivəsində aparılmalıdır. Bu yanaşma qlobal miqyasda türk dünyasının real potensialının daha dolğun şəkildə ortaya çıxmasına imkan verər. Lokal yanaşmalar türk dünyasının yüksək potensialının lazımi səviyyədə qiymətləndirilməməsi riskini yarada bilər. Yeni dünya sistemində Türkiyə, Azərbaycan və TDT ətrafında artan rəqabət və qarşıdurmalar fonunda bu coğrafiyanın geosiyasi, geostrateji və geoiqtisadi üstünlüklərinin qarşıdurma alətinə çevrilməsinin qarşısını almaq üçün birgə və koordinasiyalı mövqe vacibdir".

Politoloqun sözlərinə görə, Mərkəzi Asiya və TDT məkanında hər hansı qeyri-sabitlik qlobal enerji, ticarət və siyasi sistemlərdə ciddi geriləmələrə səbəb ola bilər. Buna görə də türk dünyasının mövcudluğu və təhlükəsizliyi qlobal sabitliyin təminatçısı kimi dəyərləndirilməlidir. "Bərpaolunan enerji siyasətində fəal iştirak Türkiyənin regional enerji mərkəzi rolunu möhkəmləndirir və bu rolun bütün türk dünyasına şamil edilməsi strateji baxımdan düzgün yanaşmadır", - deyə o diqqətə çatdırıb.

## "Çinin Cənubi Qafqaz regionu ilə münasibətləri ikitərəfli və çoxtərəfli əməkdaşlıq baxımından önəmlidir"

"Bugünkü dünya o qədər də sabit deyil. Bir çox münaqişə və mübahisənin şahidi oluruq, bəzi təhdidlərin olduğunu görürük, məsələn, terrorizm, kibercinayətkarlıq təhdidləri. Bütün bu problemlər gündəlik həyatımız üçün bir növ təhlükə yaradır. Bu o deməkdir ki, əməkdaşlıq etmək üçün daha çox ölkəyə ehtiyacımız var".

Bu fikri AZƏRTAC-a eksklüziv müsahibəsində "China Briefing" nəşrinin təsisçisi, siyasi şərhçi Şen Şivey bildirib.

Çinin Mərkəzi Asiya, Azərbaycan da daxil olmaqla Cənubi Qafqaz regionu ilə münasibətlərinə baxışından danışan şərhçi deyib ki, burada həm ikitərəfli, həm də çoxtərəfli əməkdaşlıq önəmlidir. "İkitərəfli əməkdaşlıq müstəvisində Çin ilə Azərbaycanın hərtərəfli strateji tərəfdaşlığını vurğulamaq yerinə düşər. Çoxtərəfli əməkdaşlığa isə Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) çərçivəsindəki əlaqələri qeyd etmək olar. Biz bilirik ki, Azərbaycan indi ŞƏT-də dialoq üzrə tərəfdaş statusuna malikdir, amma tamhüquqlu üzvlük üçün müraciət edib. Çin də Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatının tamhüquqlu üzvü olmasına tam dəstəyini ifadə edib", - deyə Şen Şivey bildirib.

Ekspert Çinin bu bölgəyə həm ikitərəfli, həm də çoxtərəfli səviyyədə strateji tərəfdaş kimi baxdığını vurğulayaraq, rəsmi Pekinin sözügedən regionlara baxışının digər mühüm məqamının iqtisadi əməkdaşlığa aid olduğunu deyib. "Çünki bilirik ki, Çin region ölkələri ilə iqtisadi əməkdaşlığın, xüsusən də Orta dəhliz çərçivəsində əməkdaşlığın dərinləşməsində maraqlıdır", - deyə Şen Şivey qeyd edib.




# Heydər Əliyevin unudulmaz Şuşa səfəri

Ulu Öndər Heydər Əliyev Azərbaycana birinci rəhbərliyi dövründə Qarabağa çox böyük diqqət və qayğı göstərmiş, erməni iddialarını hər zaman iflasa uğratmışdı. Hələ Dövlət Təhlükəsizliyi Komitəsinin sədri olarkən erməni millətçilərinin əsassız ərazi iddialarının qarşısını almış, onların fitnəkar niyyətlərinə qarşı mübarizəni daha da gücləndirmiş və bu istiqamətdə həyata keçirilən tədbirlərə şəxsən nəzarət etmişdir. Sonralar müstəqillik illərində Ulu Öndər nitqlərinin birində etiraf edərək deyirdi: "60-cı, 70-ci illərdə erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək cəhdlərindən əl çəkməmişdilər. Onlar dəfələrlə çox qızğın fəaliyyətə başlamışdılar. Ancaq onların qarşısı alınmışdır. Mən bunların şəxsən şahidiyəm və bir çox hallarda həmin cəhdlərin qarşısının alınmasının təşkilatçısıyam".

Heydər Əliyevin fəaliyyətinin mühüm əhəmiyyət daşıyan istiqamətlərindən biri Qarabağda milli ruhun oyadılması olmuşdur. Ümummilli Lider tərəfindən Şuşanı abadlaşdırmaq, XX əsrin əvvəllərində erməni təcavüzü nəticəsində şəhərin başına gətirilən müsibətlərin izlərini ləğv etmək, dağıdılmış, yandırılmış evləri bərpa etmək, eyni zamanda tarixi abidələri qoruyub saxlamaq, yenidən həyata qaytarmaq, ümumiyyətlə, bu bənzərsiz və qədim Azərbaycan şəhərini böyük bir muzeyə çevirmək üçün mühüm addımlar atıldı.

Şuşanı zəngin tarixi abidə şəhəri, Azərbaycan xalqının qəhrəmanlıq rəmzi kimi dəyərləndirən Heydər Əliyev XX əsrin 70-ci illərində buradakı Azərbaycan xalqının tarixi abidələrinin qorunmasına xüsusi qayğı göstərilməsi barədə tapşırıq vermişdi. Eyni zamanda Şuşada aparılan tikinti-quruculuq işləri ilə də yaxından maraqlanmış, Azərbaycan poeziyasının klassikləri M.P.Vaqifin və Xurşidbanu Natəvanın yaşayıb-yaratdığı yerlərlə tanış olmuşdur.

Ulu Öndərin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə Şuşa şəhərinin inkişaf etdirilməsi məqsədilə 1970-ci illərin ikinci yarısında bir neçə xüsusi qərar qəbul edildi. Həmin qərarlara uyğun olaraq, şəhərin keçmişdə tikilmiş binaları, tarixi abidələri bərpa edildi, yeni çoxmərtəbəli yaşayış binaları, böyük mehmanxana kompleksləri, ayrı-ayrı inzibati binalar inşa edildi. Şuşanın statusu yüksəldilərək ümumittifaq səviyyəli kurort şəhərinə çevrildi. Həmin qərarların yerinə yetirilməsinin böyük tarixi əhəmiyyəti var idi. Şəhərdə azərbaycanlılar üçün əlavə iş yerləri açılır, həyat səviyyəsi yaxşılaşır, azərbaycanlıların milli ruhu güclənirdi. Keçmiş SSRİ-nin müxtəlif yerlərindən Şuşaya istirahətə gələnlər eyni zamanda Azərbaycanın tarixi, mədəniyyəti və incəsənəti ilə yaxından tanış olurdular.

Onu da qeyd edək ki, 1920-ci ildən 1970-ci ilə qədər Şuşada heç vaxt belə geniş quruculuq işləri aparılmamışdır. Şuşa şəhərinin Qala divarlarının və "Gəncə qapısı"nın bərpasına 1975-ci ildə 25 min rubl vəsait xərclənmişdi. Azərbaycan mədəniyyəti, incəsənəti və elm xadimlərinin, o cümlədən XIX əsrin görkəmli ədibi Qasım bəy Zakirin məzarı qaydaya salınmışdı. Zəngin tarixi eksponat olan Şuşa Tarix Muzeyi fəaliyyətə başlamışdır. 1976-cı il noyabrın 4-də Ümummilli Lider Heydər Əliyev yenidən "Şuşa şəhərində kurort kompleksini daha da inkişaf etdirmək tədbirləri haqqında" qərar imzalamışdır.

Heydər Əliyevin təşəbbüsü ilə "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qəbul edilmiş qərarın mühüm əhəmiyyəti olmuşdur. 1977-ci il avqustun 10-da Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə Şuşa şəhəri Tarixi-Memarlıq Qoruğu elan edilmişdir. Həmin qərar nəticəsində Şuşada abidələrin qorunması, görkəmli mədəniyyət və incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsi, həmçinin ev-muzeylərinin yaradılması istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Bu baxımdan 1978-ci ildə Azərbaycan professional vokal sənətinin banisi Bülbülün anadan olduğu və uşaqlıq illərini keçirdiyi evində (iki otaq, 369 eksponatdan ibarət) ev-muzeyinin açılışı olmuşdur.

## Tarixi səfərlər

Heydər Əliyevin diqqət və qayğısı nəticəsində görkəmli Azərbaycan şairi, ictimai xadim Molla Pənah Vaqifin məzarı üstündə abidə, məqbərə kompleksi tikildi. 1982-ci il yanvarın 14-də qarlı havada Heydər Əliyevin iştirakı ilə məqbərənin təntənəli açılışı oldu. Ulu Öndərin M.P.Vaqifə bu münasibəti bir tərəfdən milli ədəbiyyata sevgisindən irəli gəlirdisə, digər tərəfdən diyarın tarixini, əhalisinin etnik mənsubiyyətini bir daha göstərməklə bağlı idi. Bu məqbərə eyni zamanda gözəl memarlıq abidəsi idi. Bununla yanaşı, səfər zamanı Heydər Əliyev Şuşada Poeziya evini açaraq, Vaqif Poeziya Günlərində iştirak etdi.

Ümummilli Lider Heydər Əliyev Azərbaycan peşəkar musiqi sənətinin və milli opera məktəbinin banisi Üzeyir bəy Hacıbəylinin və vokal sənətinin banisi Bülbülün Şuşadakı ev-muzeylərindəki eksponatlarla tanış olmuş və onların qorunmasına dair tövsiyələrini vermişdi. Bu tarixi səfər zamanı Şuşadakı abidələrin bərpa işləri ilə maraqlanan Heydər Əliyev müvafiq göstərişlər verərək işlərin davam etdirilməsinə dair bir sıra təkliflərini də söyləmişdi. Həmin vaxt Heydər Əliyevin Şuşa məscidinə getməsi bir tərəfdən onun dini dəyərlərə olan ehtiramının və dərin bağlılığının göstəricisi idisə, digər tərəfdən azərbaycanlı əhalinin milli və dini dəyərlərə sahib çıxmalarının vacibliyinə olan nümunə idi. Heydər Əliyev erməni millətçilərinin ona müxtəlif böhtanlar atdığı bir zamanda məscidə getməklə yerli əhaliyə dini inanclarını qorumağı da tövsiyə etmişdi.

1982-ci il iyulun 29-dan avqustun 2-dək Qarabağa bir ildə ikinci dəfə səfər edən Heydər Əliyevin bilavasitə iştirakı ilə Şuşada Azərbaycanın görkəmli şairi Xurşidbanu Natəvanın abidəsinin açılışı oldu. Ulu Öndər Şuşaya gedərkən ailəsi ilə birlikdə yanında elm, mədəniyyət və incəsənət adamlarının böyük bir qrupunu da aparmışdı. Bu addımı ilə görkəmli dövlət xadimi Heydər Əliyev ziyalıları Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağa xüsusi diqqət yetirməyə istiqamətləndirir, Şuşaya tez-tez səfərə gəlmələrini tövsiyə edirdi.

## Şuşanın işğaldan azad edilməsi Zəfər Günü kimi tarixə yazıldı

Azərbaycan Prezidenti İlham Əliyev hələ 2020-ci il oktyabrın 16-da Türkiyənin "A Haber" televiziya kanalına müsahibəsində demişdi: "Şuşanın Azərbaycan xalqının qəlbində xüsusi yeri var. Bu, bizim tarixi şəhərimizdir, qədim mədəniyyət ocağıdır. Şuşa Azərbaycan xalqına bir çox istedadlı, dahi şəxslər bəxş edibdir. Əlbəttə ki, Şuşasız bizim işimiz yarımçıq olar. Ona görə təbii ki, Şuşanın işğaldan azad edilməsi bizim hədəflərimizin arasında xüsusi yer tutur. Biz buna çalışmalıyıq, biz buna nail olmalıyıq".

İkinci Qarabağ müharibəsinin taleyində həlledici gün 2020-ci il noyabrın 8-i oldu. Həmin gün Şuşanın işğaldan azad edilməsi müharibənin sonrakı gedişinə, eləcə də taleyinə ciddi təsir göstərdi və Azərbaycanın hərb meydanında olduğu kimi, diplomatiya meydanında da uğurlarını şərtləndirdi. Bu, rəşadətli Azərbaycan Ordusunun 2020-ci il sentyabrın 27-dən Qarabağda başladığı və 44 gün içərisində aparılan uğurlu əks-hücum əməliyyatlarının sırasında ən mühüm tarixi hadisə və böyük hərbi Qələbə oldu. Şuşa şəhərinin azad edilməsi müharibənin sonrakı gedişinə və taleyinə ciddi təsir göstərdi və Zəfər günü kimi tariximizə yazıldı.

Prezident, Ali Baş Komandan İlham Əliyev strateji əhəmiyyətli Şuşanın Azərbaycan tarixində xüsusi yerinin olduğunu vurğulayaraq bildirmişdir: "Bu, bizim qədim, tarixi şəhərimizdir. Əsrlərboyu azərbaycanlılar Şuşada yaşayıb, qurub, yaradıb. Şuşa nəinki Azərbaycanın, bütün Qafqazın incisidir. Ancaq mənfur düşmən Şuşanı işğal altında saxlamaqla bizim mədəni irsimizə böyük zərbə vurdu, bizim tarixi abidələrimizi dağıtdı, bizim məscidlərimizi dağıtdı, təhqir etdi. Biz indi Şuşaya qayıtmışıq. Bütün tarixi abidələrimizi bərpa edəcəyik...O cümlədən Şuşada yerləşən məscidlərimiz əsaslı şəkildə təmir edilməlidir, bərpa olunmalıdır, onların öz siması qaytarılmalıdır".

Şuşa şəhərinin Azərbaycan üçün müstəsna əhəmiyyət kəsb etdiyini bildirən Prezident İlham Əliyev qeyd etmişdir ki, yarıdağılmış tarixi abidələrimizin bərpasında çox həssas olmalı, ancaq biz o tarixi abidələrimizin əsl simasını bərpa etməliyik. Vaxt itirmədən, ancaq eyni zamanda tələsmədən Şuşanın ilkin simasının, tarixi simasının bərpa edilməli olduğunu bildirən Azərbaycan Prezidenti Şuşa şəhərini Azərbaycan mədəniyyətinin paytaxtı elan edərək demişdir: "Şuşa şəhəri buna layiqdir. Hesab edirəm ki, nəinki Azərbaycanın, bölgənin mədəni paytaxtı sayıla bilər. Şuşanın mədəni həyatı zəngin olmalıdır". Dövlət başçısı vaxtilə Vaqif Poeziya Günlərinin ənənəvi olaraq keçirildiyini vurğulayaraq diqqətə çatdırmışdır ki, Şuşada Vaqif Poeziya Günləri və "Xarıbülbül" festivalı bərpa olunmalıdır.

Azərbaycan Prezidentinin dekabrın 3-də imzaladığı sərəncama əsasən, noyabrın 8-i bayram günləri sırasına daxil edildi və hər il ölkəmizdə Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilir.

## Azərbaycanın mədəniyyət paytaxtı

2021-ci il yanvarın 14-də Şuşaya səfər edən Azərbaycan Prezidenti İlham Əliyev son dəfə 39 il bundan əvvəl Ümummilli Lider Heydər Əliyevin şəhərə tarixi və unudulmaz səfəri zamanı gəldiyini diqqətə çatdıraraq bildirdi ki, qəhrəman Azərbaycan Ordusu mükəmməl hərbi əməliyyat keçirərək, cəsarət, rəşadət, qəhrəmanlıq, güc, milli ruh nümayiş etdirərək Şuşanı işğaldan azad etmişdir və uzun fasilədən sonra noyabrın 8-də Şuşada Azərbaycan bayrağı qaldırılmışdır: "Biz buraya qalib kimi gəlmişik, bayrağı da qaldırmışıq, azad edilmiş bütün torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Döyüşə-döyüşə gəlmişik. Heç kim bu torpaqları bizə elə-belə verməyib. Heç bir danışıqlar heç bir əhəmiyyətə malik deyildi. Biz gördük ki, ancaq öz gücümüzlə öz torpaqlarımızı azad etməliyik və bunu etdik".

Ermənistanın Azərbaycan torpaqlarını, o cümlədən Şuşanı işğal etməsi nəticəsində tarixi, mədəni abidələrimiz dağıdılıb, ev-muzeyləri qarət edilmişdi. Onların arasında Xurşidbanu Natəvanın, Üzeyir bəy Hacıbəylinin, Bülbülün Şuşadakı büstləri də var idi. Güllələnmiş bu büstlər erməni vandalizminin şahidləridir. Prezident İlham Əliyev qeyd etmişdi ki, ərazi bütövlüyümüz bərpa ediləndən sonra Bülbülün, Natəvanın, Üzeyir bəy Hacıbəylinin büstləri yenə də Şuşada qoyulacaq. Azərbaycan Prezidentinin bu sözləri artıq reallığa çevrilib. Həmin dahi şəxsiyyətlərin büstləri Şuşada yenidən əvvəlki yerlərindədir.

Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Prezident İlham Əliyevin 2021-ci il mayın 7-də imzaladığı sərəncamda vurğulanır ki, şəhərin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği mühüm əhəmiyyət kəsb edir.

Prezident İlham Əliyevin Şuşanın Azərbaycan xalqı üçün tarixi əhəmiyyətini, yüksək mədəni-mənəvi dəyərini nəzərə alaraq, 2022-ci ilin "Şuşa ili" elan edilməsi haqqında imzaladığı sərəncamda deyilir ki, bənzərsiz tarixi görkəmini və formalaşdırdığı özünəməxsus mühiti həmişə qoruyub saxlayan bu şəhər yetirdiyi böyük şəxsiyyətləri ilə ədəbi, mədəni, elmi və ictimai fikir salnaməmizə əlamətdar səhifələr yazmışdır.

Şuşa şəhərində keçirilən mühüm tədbirlər - hər il təşkil olunan "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı, Vaqif Poeziya Günləri, müxtəlif beynəlxalq toplantılar, Şuşa Qlobal Media Forumu və digər tədbirlər dünya ictimaiyyəti tərəfindən də böyük maraqla izlənilir.

2021-2025-ci illərdə keçirilən mühüm tədbirlər bir daha onu təsdiq edir ki, Şuşa Azərbaycanın və türk dünyasının mədəniyyət paytaxtı olmaqla yanaşı, həmçinin ictimai fikir və milli-ideoloji mərkəzinə çevrilməkdədir. Bütün qeyd edilən faktlara əsaslanaraq əminliklə söyləmək olar ki, Azərbaycanın müasir tarixinin yeni və şərəfli dövrü yazılır.

*Elçin ƏHMƏDOV,*
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasının professoru, Qarabağ İrsini Araşdırma Mərkəzinin rəhbəri*

**Biz qayıtdıq, Vətən!**

# Yolumuz Zəfər zirvəsinədir...

## Beş il əvvəlin bu günü qalib lider İlham Əliyevin Şuşaya səfəri Böyük qayıdışın rəmzinə çevrildi




**"Səhər tezdən yola çıxmışıq. İstiqamət Şuşa şəhəridir. Azad edilmiş torpaqlara keçirik...**
**...Günəş də bizi salamlayır, yolumuzu işıqlandırır. Biz gedirik Şuşaya, azad edilmiş Şuşaya".**

Düz beş il əvvəl - 2021-ci ilin 14 yanvarında azadlığından sonra ilk dəfə Vətən qibləmiz Şuşaya səfər edən Müzəffər Ali Baş Komandan İlham Əliyev duyduğu böyük qürur, fəxarət və sevinc hisslərini bu fikirləri ilə ifadə etmişdi. Şuşanın xilaskarı Qarabağ və Şərqi Zəngəzurun dirçəldiləcəyinin, öz əvvəlki axar-baxarlı, təmtəraqlı günlərinə qovuşacağının müjdəsini xalqımıza belə çatdırmışdı.

Həmin tarixi gün Şuşa çox xoşbəxt idi, azadlığından sonra ikinci bayramını yaşayır, əzizlərinə qürurla qucaq açırdı...

Şuşanın başı qardan çalmalı dağlarından, köhlən atlara dırnaq saldıran Cıdır düzündən, zümrüd donlu Topxanasından qalxan burum-burum vətən ətri bütöv Azərbaycana yayılırdı. Qışın oğlan çağında Şuşanın hər daşı, qayası, ağacı, bəndi, bərəsi, küçəsi qəhrəman Azərbaycan oğullarının açdığı Zəfər yolu ilə bu müqəddəs ünvana üz tutan böyük qayıdışın ilk sakinlərini, doğma övladlarını bahar təravəti, yaz ovqatı ilə salamlayır, bundan iki ay əvvəl - 8 noyabr 2020-ci ildə xilaskar lider İlham Əliyev tərəfindən səsləndirilən "Əziz Şuşa, sən azadsan", "Əziz Şuşa, biz qayıtmışıq" , "Əziz Şuşa, biz səni dirçəldəcəyik" bəyanının gerçəkdə təntənəsini yaşayırdı.

O gün müzəffər lider İlham Əliyevin Qarabağa qalibiyyət səfəri etməsi və məhz bu doğma diyara Şuşanın əzəli sakinləri - qələbəmizin rəmzləri Natəvanın, Üzeyir bəyin və Bülbülün büstləri ilə qayıtması İlahi ədalətin öz yerini tapmasının təcəssümü idi.

## Tarixin möhtəşəm təkrarı

Bu tarixi səfəri Prezident İlham Əliyev üçün məxsusi edən digər bir məqam isə 39 il əvvəl 1982-ci ilin məhz 14 yanvarında Ulu Öndər Heydər Əliyevlə birlikdə Şuşaya səfər etməsi, burada Ümummilli Liderin təşəbbüsü ilə inşa edilmiş Molla Pənah Vaqifin məqbərəsinin açılışında iştirak etməsi idi. Qətiyyətli siyasəti, hərbi taktikası, məharətli diplomatiyası ilə azad etdiyi Şuşaya qalibiyyət səfəri edən Prezident İlham Əliyev həmin gün düz dörd onillik əvvəl yaşanan hadisələri bir daha yaddaşında canlandırmış, xatirələrini belə dilə gətirmişdi: "Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə inşa edilmiş Molla Pənah Vaqifin məqbərəsinin düz 39 il bundan əvvəl - 1982-ci il yanvarın 14-də açılışı olmuşdur. Bu tarixi gün mənim yadımdadır. Çünki o vaxt atamla bərabər, bax, bu yerdə mən də durmuşdum. Bu, tarixi videokadrlar da var. Çox şaxtalı, qarlı bir hava idi. Möhkəm qar yağırdı. Amma buna baxmayaraq, bu tədbirə yığışmış insanlar, Azərbaycan ziyalıları heç o soyuğu hiss etmirdilər. Çünki Qarabağ xanının vəziri olan Molla Pənah Vaqifin möhtəşəm məqbərəsi açılırdı. Bu təşəbbüsü Ulu Öndər Heydər Əliyev irəli sürmüşdü, onun rəhbərliyi ilə inşaat işləri aparılmışdı və gözəl, əzəmətli məqbərə ucaldılmışdı".

Bəli, bu, tarixin təkrarı idi. Necə ki Ulu Öndər Heydər Əliyev vaxtilə Şuşada azərbaycançılıq məfkurəsinin rişələnməsində, milli ruhun oyanışında və bu tarixi şəhərin hərtərəfli inkişafında mühüm rol oynamışdı, indi də onun layiqli siyasi varisi Prezident İlham Əliyev Şuşanı azad etdikdən dərhal sonra onu dirçəltmək üçün böyük əzm və səy göstərirdi.

Azadlığından qısa zaman sonra Şuşa şəhərinin Prezident İlham Əliyev tərəfindən mədəniyyət paytaxtımız elan edilməsi də bu diyarın dirçəliş salnaməsinin əsas səhifələrindən idi.

"Şuşa şəhəri mənim tərəfimdən Azərbaycanın mədəniyyət paytaxtı elan edilib. Şuşa şəhərinin bərpası və tarixi simasının özünə qaytarılması istiqamətində işlərə start verildi. Bütövlükdə müharibədən cəmi iki ay vaxt keçib, ancaq böyük quruculuq işlərinə start verildi...

...Böyük qayıdış başlayır, bütün işlərə start verildi. Əminəm, necə ki düşməni qısa müddət ərzində torpaqlarımızdan qovduq, - cəmi 44 gün ərzində, - bizim tarixi dədə-baba torpağımız olan Qarabağı da qısa müddətdə bərpa edəcəyik".

"Qarabağ Azərbaycandır!" deyə 2021-ci il yanvarın 14-də Şuşaya səfər edən Prezident İlham Əliyev bəyan etdi və bununla da ümumilikdə Qarabağ və Şərqi Zəngəzurda həyata keçiriləcək quruculuq və bərpa işlərinin, Böyük qayıdışın anonsunu verdi.

## Bu dəfə Şuşaya Müzəffər Ali Baş Komandan kimi gəldi

2021-ci il yanvarın 14-də Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşa şəhərində üçrəngli bayrağımızı əbədi ucaltdı. Həmin tarixi gün dövlət başçısı hərbçilərlə görüşdü və onların qarşısında çıxış etdi.

Qalib lider bir daha Qarabağın baş tacı Şuşadan qürurla söylədi ki, biz qalib xalqıq: "Mən Şuşaya son dəfə 39 il bundan əvvəl gəlmişəm. 39 il bundan əvvəl iki dəfə gəlmişəm və birinci dəfə yanvarın 14-də gəlmişəm. Bax, bu gün, yanvarın 14-də yenə də buradayıq. Bu dəfə müzəffər Azərbaycan Ordusunun, qalib Azərbaycan Ordusunun Ali Baş Komandanı kimi gəlmişəm. Düşmənin belini qıran ordunun Ali Baş Komandanı kimi gəlmişəm və burada müqəddəs bayrağın altında, qəhrəman hərbçilərin önündə deyirəm ki, biz bu torpaqlarda əbədi yaşayacağıq!"

2021-ci ildə Zəfər yolu ilə Şuşaya gələn müzəffər sərkərdə İlham Əliyev özü ilə Xurşidbanu Natəvanın, Üzeyir bəy Hacıbəylinin və Bülbülün düşmən tərəfindən güllələnmiş büstlərini də Şuşaya gətirdi. Həmin zaman bu şəxsiyyətlərin büstlərinin darmadağın edilmiş yerlərinə baxaraq düşmənin mənfurluğunu, mədəniyyətimizə qarşı vəhşilik törətmələrini bir daha hiddətlə vurğulayan dövlət başçısı məlumat verdi ki, ermənilər dahi şəxsiyyətlərimizin büstlərini təhqir edəndən sonra onları əridib satmaq, pul əldə etmək üçün Ermənistana aparmışdılar: "Görün nə qədər alçaq keyfiyyətli insan olmalısan ki, tarixi şəxsiyyətlərin xatirə büstlərini güllə ilə vurasan, təhqir edəsən, sonra aparıb bunu əritmək istəyəsən. O vaxt Polad Bülbüloğlu bundan xəbər tutmuş və Ulu Öndər Heydər Əliyevə müraciət etmişdi. Görülmüş tədbirlər nəticəsində bu büstlər ermənilərdən alındı. Onu da açıq deməliyəm, pulla alındı. Satdılar onlar. Necə ki hər şeyi satıblar ömrü boyu. Büstləri də biz pulla almışıq. O vaxt gətizdirdik və onlar İncəsənət Muzeyinin həyətində yerləşdirildi".

Prezident onu da diqqətə çatdırdı ki, müxtəlif vaxtlarda bəzi insanlar ona müraciət ediblər ki, bəlkə bu büstlər Bakının hər hansı bir yerində qoyulsun: "Dedim ki, yox. Onları biz ancaq Şuşanı düşməndən azad edəndən sonra gətirib öz yerlərində qoyacağıq və öz yerlərində də qoyduq".

Sözügedən tarixdə Şuşaya səfər çərçivəsində Prezident İlham Əliyev birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ilə birlikdə Saatlı məscidini, Aşağı Gövhər ağa və Yuxarı Gövhər ağa məscidlərini ziyarət etdilər. Dövlət başçısı bu məscidlərə "Qurani-Şərif" bağışladı.

Eyni zamanda Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva keçmiş Şuşa Rayon Partiya Komitəsinin binasında oldular, Natəvan bulağı, erməni vandalizminin qurbanı olmuş Şuşa Realnı Məktəbinin dağıdılmış binası ilə tanış oldular, Bülbülün dağıdılmış ev-muzeyinə baxdılar, Şuşadakı Qazançı kilsəsində oldular, vaxtilə Molla Pənah Vaqifin büstünün olduğu yerə gəldilər, Cıdır düzündə oldular.

Bütün bunlar Şuşaya, Qarabağa Azərbaycan ruhunun döndüyünü, bu qədim yurdun tezliklə xoşbəxt günlərə qovuşdurulacağının mesajları idi.

Həmin zaman yanvarın 15-i tarixində səhər tezdən yenidən Cıdır düzünə gələn Şuşanın xilaskarı İlham Əliyev də elə bu məqamı bir daha vurğuladı: "Dünən Şuşada bütün tarixi abidələri ziyarət etdik, müqəddəs məscidlərimizi ziyarət etdik. Ürək ağrısı ilə deyə bilərəm ki, burada olan dağıntılar hər bir Azərbaycan vətəndaşının qəlbini incidir. Ancaq Şuşanı dağılmış, amma eyni zamanda əyilməmiş, əzəmətli görmək bizi hədsiz dərəcədə qürurlandırır. Şuşa ayaqdadır, Şuşa sınmayıb, Şuşa əyilməyib! Mənfur düşmən nə qədər çalışsa da, Şuşanın simasını dəyişdirə bilməyib. Biz Şuşanın bütün yaralarını sağaldacağıq. Şuşa dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcək".

Budur artıq azadlığının üzərindən ötən bir neçə il ərzində qoynunda musiqi festivalları, poeziya günləri, beynəlxalq toplantılar düzənlənən musiqimizin beşiyi Şuşanın 270 illik təntənəli yubileyi keçirilib, 2022-ci il Azərbaycanda başdan-başa "Şuşa ili" kimi qeyd olunub. Qarabağ qələbəmizlə qürurlanan dünya azərbaycanlıları vətən qibləmizdə toplaşaraq öz Zəfər qurultaylarını keçiriblər...

Şuşada aparılan sürətli quruculuq və bərpa işləri sayəsində bu şəhərə doğma sakinlərinin qayıdışı da artıq baş tutub. Mehriban xanım Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu bu şəhərdəki əksər tarixi, dini, mədəni abidələri bərpa edib və bu istiqamətdə işlər müvəffəqiyyətlə davam etdirilir.

Bir sözlə, mədəniyyət paytaxtımız Şuşanın timsalında mənəvi ruhu da özünə qaytarılan bütöv Azərbaycanın qədim və əzəmətli bölgələri olan Qarabağ və Şərqi Zəngəzur bəxtəvər çağlar yaşayır. Azərbaycanın dostları sevinir, düşmənlərinin bağrı çatlayır.

Necə ki bunu dövlətimizin başçısı 2021-ci ildə Şuşaya tarixi səfəri zamanı Cıdır düzündə çay süfrəsinə qonaq olarkən deyib: "Cıdır düzündə armudu stəkanda çay paxlava ilə. Dostlarımız sevinsin, düşmənlərin gözü kor olsun!"

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*




# Qarabağa açılan ilk hava yolu

## Füzuli Beynəlxalq Hava Limanı Azərbaycanın işğaldan azad olunan ərazilərdəki quruculuq əzminin möhtəşəm nümunələrindən biridir

**"Bu gün yanvarın 14-də Füzuli Beynəlxalq Hava Limanının təməli qoyuldu. Mən hava limanının tikintisi ilə bağlı Azərbaycan xalqına məlumat vermişdim. Bu, azad edilmiş bölgələrimizin inkişafı üçün çox önəmli bir layihədir. Füzuli Beynəlxalq Hava Limanı bu il istifadəyə verilməlidir. Hər halda uçuş-enmə zolağı bu il istifadəyə verilməlidir. Hava limanının binası isə ola bilər bu il, ola bilər gələn il istifadəyə veriləcək. Bu hava limanının əsas məqsədi xarici qonaqların Şuşaya gəlişini təmin etməkdir. Çünki buradan Şuşaya olan məsafə o qədər də böyük deyil. Nəzərə alsaq ki, bu gün Füzuli-Şuşa dördzolaqlı və bəzi yerlərdə altızolaqlı yeni avtomobil yolunun təməli qoyulub, xarici qonaqlar Füzuli Beynəlxalq Hava Limanına gələrək çox rahat və qısa müddət ərzində Şuşa şəhərinə gedə biləcəklər".**

Bu sözləri Prezident İlham Əliyev beş il öncə Qarabağın ilk "hava qapısı" olan Füzuli Beynəlxalq Hava Limanının təməlini qoyarkən deyib. Dövlət başçısı elə həmin ildən başlayaraq vətəndaşların, xarici vətəndaşların və xaricdə yaşayan azərbaycanlıların Şuşaya təyyarə ilə rahat gələ biləcəklərini qeyd etmişdi.

Ölkə rəhbərinin dediyi kimi də oldu. Səkkiz aya tikintisi başa çatan Füzuli Beynəlxalq Hava Limanı sərnişinlərin istifadəsinə verildi. Bu layihə, sadəcə, Qarabağa açılan hava yolu deyil, Azərbaycanın qüdrətinin, işğaldan azad etdiyi torpaqların yenidən qurulması, Böyük qayıdışın qısa zamanda həyata keçirilməsi üçün əlindən gələnin ən yaxşısını ortaya qoyduğunun sübutu idi. Qısa müddətdə həyata keçirilən layihə həm də Füzulinin və yaxın rayonların ölkə iqtisadiyyatına inteqrasiyası baxımından əhəmiyyətli idi. Belə ki, hava limanı gələcəkdə həm xarici ölkələrdən, həm də respublikamızın digər rayonlarından yüklərin daşınmasına imkan verəcəkdi.

Qısa zamanda ərsəyə gətirilən Füzuli aeroportu ən müasir səviyyədə inşa olunub. Hava limanının istənilən tip hava gəmisini qəbul etmək imkanları var. Uçuş-enmə zolağının uzunluğu 3000, eni isə 60 metrdir. Hava limanının müasir infrastrukturla təchiz olunan terminalı saatda ən azı 200 sərnişinin buraxılışına imkan verir. Görülən bütün işlər beynəlxalq norma və standartlara uyğun şəkildə həyata keçirilib. Burada avtomatlaşdırılmış sistemlərlə təchiz olunan Hava Hərəkətini İdarəetmə qülləsi tikilib. Bu isə Füzuli Beynəlxalq Hava Limanında ICAO və IATA standartlarına müvafiq qaydada uçuşların başlanmasını mümkün edir. Hava limanında baqaj konveyerləri, qeydiyyat sistemi, VIP zallar, mağazalar, restoranlar və digər zəruri məntəqələr yaradılıb.

Təməli qoyulduqdan cəmi 8 ay sonra Füzuli Hava Limanı ilk sərnişin təyyarəsini qəbul etdi. 2021-ci ilin sentyabr ayında AZAL-ın "Qarabağ" adlı ən böyük Airbus A340-500 tipli sərnişin təyyarəsi sınaq reysi keçirərək Qarabağ torpaqlarına qədəm qoydu. Bu həm də Azərbaycanın doğma yurduna qayıdışının yalnız Ermənistana deyil, beynəlxalq aləmə də nümayişi idi. Həmin gün eyni zamanda "Silk Way" aviaşirkətinə məxsus ən böyük yük təyyarələrindən biri olan Boeing 747-400 tipli təyyarənin bu hava limanına eniş etməsi Qarabağın böyük iqtisadi potensialından xəbər verirdi.

İndi Azərbaycan səmasında yalnız Füzuliyə deyil, Zəngilana, Laçına da təyyarələr yol alır. Füzuli aeroportundan bir il sonra - 2022-ci ilin 20 oktyabrında Şərqi Zəngəzurun ilk hava qapısı Zəngilan Beynəlxalq Hava Limanı da istismara verildi. Qarabağ və Şərqi Zəngəzurun nəqliyyat qovşağına çevrilməsində mühüm rol oynayan bu hava limanı həm də Zəngəzur dəhlizinin (TRIPP) inkişafı baxımından strateji əhəmiyyət daşıyır. Beynəlxalq standartlara cavab verən aeroport bütün növ sərnişin, həmçinin yük təyyarələrini qəbul etməyə qadirdir. Bu baxımdan hava limanının Şərqi Zəngəzurun iqtisadi inkişafında rolu danılmazdır.

İşğaldan azad olunmuş ərazilərdə tikilib istifadəyə verilən üçüncü beynəlxalq statuslu hava limanı isə Laçın rayonunun Qorçu kəndində yerləşir. Azərbaycanın dəniz səviyyəsindən ən hündürdə yerləşən Laçın Beynəlxalq Hava Limanının açılışı ötən il Müstəqillik Günündə Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə baş tutub. Bu hava limanı da istənilən tip hava gəmisinin qəbuluna imkan verir və terminal binası saatda ən azı 200 sərnişinə xidmət göstərmək imkanına malikdir. Dəniz səviyyəsindən 1700 metr hündürlükdə yerləşən hava limanı Qarabağ və Şərqi Zəngəzur regionlarının nəqliyyat əlaqələrinin gücləndirilməsində mühüm rol oynayacaq. Beləliklə, Laçın Hava Limanının istifadəyə verilməsi ilə Azərbaycanın beynəlxalq hava limanlarının sayı doqquza çatıb. Bu isə nəqliyyat şəbəkəsinin genişlənməsinə və inkişafına xüsusi diqqətin, bu istiqamətdə görülən davamlı işlərin nəticəsidir.

Bu il işğaldan azad olunmuş ərazilərdə növbəti hava limanının istifadəyə verilməsi planlaşdırılır. Bu, 1974-cü ildə istismara verilən Xocalı rayonunda Xankəndi şəhərindən 10 kilometr şimal-şərqdə, mürəkkəb relyefli ərazidə yerləşən Xocalı Hava Limanıdır. Aeroportda infrastrukturun inkişaf etdirilməsi məqsədilə bir sıra təkmilləşdirmə işlərinin aparılması nəzərdə tutulub. Belə ki, mövcud uçuş-enmə zolağının uzunluğu 3000 metrədək, eni isə 60 metrədək genişləndiriləcək. Beləliklə, bununla işğaldan azad olunmuş ərazilərdəki hava limanlarının sayı dördə çatacaq.

Çoxəsrlik zəngin tarixə malik şəhərsalma və memarlıq ənənələrinin izləri bu gün işğaldan azad olunmuş ərazilərimizdə görülən quruculuq işlərində bir daha üzə çıxır. Görülən işlərin miqyasını qısa müddətdə, çətin relyef şəraitində tikilib istifadəyə verilən üç beynəlxalq statuslu hava limanından da aydın görmək mümkündür. Bu gün işğaldan azad olunmuş torpaqlarda salınan şəhər və kəndlər dünya standartlarına tam cavab verir.

Qarabağ və Şərqi Zəngəzurun hər yerində vüsət almış bərpa və yenidənqurma işləri arasında hava limanlarının tikintisi xüsusilə fərqlənir. Ümumilikdə bu regionda infrastrukturun, yol-nəqliyyat şəbəkəsinin qurulması Qarabağ və Şərqi Zəngəzurun ölkənin yol şəbəkəsinə, həmçinin iqtisadiyyatına inteqrasiyasına imkan verir. Bununla yanaşı, turizmin inkişafına xüsusi önəm verən ölkəmiz üçün hava limanlarının istifadəyə verilməsi yeni imkanlar açır. Belə ki, turizmin əsas komponentlərindən olan nəqliyyatın inkişafı işğaldan azad olunmuş şəhər və kəndlərimizin də qısa zamanda tanınmış turizm destinasiyalarına çevriləcəyindən xəbər verir. Qarabağa səfər etmək istəyən xarici turistlər artıq birbaşa təyarə ilə səyahətlərini reallaşdıra bilirlər. Bütün bunlar göstərir ki, Qarabağ və Şərqi Zəngəzurda aparılan quruculuq işləri çərçivəsində hava nəqliyyatı infrastrukturunun yaradılmasına və inkişafına dövlət tərəfindən xüsusi önəm verilir.

2026-cı ilin Prezident İlham Əliyevin sərəncamı ilə "Şəhərsalma və Memarlıq İli" elan edilməsi isə azad olunmuş ərazilərdəki quruculuq işlərinə daha da stimul verəcək. Orada salınan hər şəhər və kənddə tətbiq olunan innovativ yanaşmalar ölkəmizin bu sahəyə baxışını aydın əks etdirir. Təkcə Böyük Qayıdışa dair I Dövlət Proqramına uyğun olaraq, 2020-2025-ci illərdə dünya memarlıq-inşaat təcrübəsində az rast gəlinən qısa bir vaxtda bu ərazilərdə 100-dən artıq yaşayış məntəqəsi, o cümlədən 12 şəhər üzrə planlaşdırma sənədləri hazırlanıb və quruculuq işlərinə başlanılıb. Hazırda Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası və 2026-cı ilin ölkəmizdə "Şəhərsalma və Memarlıq İli" elan olunması bu istiqamətdə görülən işlərin daha da sürətləneceyindən xəbər verir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Prokurorluq orqanlarında qulluğa yeni qəbul edilmiş gənc hüquqşünasların andiçmə mərasimi keçirilib

Cari il yanvarın 13-də Azərbaycan Respublikasının Baş Prokurorluğunda müsabiqə yolu ilə prokurorluq orqanlarında qulluğa yeni qəbul edilmiş gənc əməkdaşların andiçmə mərasimi keçirilib.





Prokurorluq orqanlarında qulluğa yeni qəbul edilmiş gənc əməkdaşlar ilk növbədə Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyublar.

Şəhidlər xiyabanına gələn gənc əməkdaşlar ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarını fəda etmiş qəhrəman Vətən övladlarının xatirəsini yad ediblər.

Tədbirdə Baş Prokurorluğun rəhbər vəzifəli şəxsləri, prokurorluq əməkdaşları, prokurorluğun veteranları ilə yanaşı, fəxri qonaq qismində Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, heykəltaraş Ömər Eldarov, Üzeyir Hacıbəyov adına Bakı Musiqi Akademiyasının rektoru, Azərbaycanın Xalq artisti, professor Fərhad Bədəlbəyli və Azərbaycan Memarlar İttifaqının İdarə heyətinin sədri, Əməkdar memar Elbay Qasımzadə istirak edib.

Tədbirdən öncə Baş Prokurorluğun rəhbərliyi və qonaqlar xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Baş Prokurorluğun inzibati binasındakı büstü önünə əklil və gül dəstələri qoyub, dünyaşöhrətli siyasi xadimin unudulmaz xatirəsini dərin ehtiramla anıblar.

Sonra isə ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib, yaralılara şəfa dilənib.

Tədbirdə çıxış edən baş prokuror bildirib ki, ötən il Azərbaycan Respublikasının ictimai-siyasi həyatında xüsusi məna kəsb edir. Azərbaycan Respublikasının Prezidentinin 28 dekabr 2024-cü il tarixli sərəncamı ilə 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilməsi müstəqil dövlətçilik tariximizin əsas sütunlarına verilən ali dəyərin bariz ifadəsidir.

Vurğulanıb ki, avqustun 8-də ABŞ-də Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının Baş naziri və ABŞ Prezidenti Donald Trampın iştirakı ilə keçirilən görüş regionda uzunmüddətli sabitliyin və təhlükəsizliyin təmin olunması baxımından həlledici mərhələ olub. Eyni zamanda həmin gün "Azadlığa Dəstək Aktı"nın 907-ci düzəlişinin tətbiqini dayandırması ilə bağlı sənədin imzalanması ABŞ-Azərbaycan münasibətlərində etimadın və tərəfdaşlığın gücləndirilməsi baxımından tarixi əhəmiyyət daşıyır.

Bundan başqa, 2025-ci ilin aprel ayında Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə keçirilən görüş Azərbaycan - Çin münasibətlərində yeni bir mərhələnin başlanğıcı oldu.

Qeyd olunub ki, Azərbaycan 2024-cü ilin dekabrında Qahirədə keçirilmiş D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında yekdilliklə bu nüfuzlu quruma üzv qəbul edilmiş, 2025-ci ilin mart ayında Milli Məclisin ratifikasiyasından sonra tamhüquqlu üzv statusu qazanıb.

28 may 2025-ci il tarixdə Laçın şəhərində Azərbaycan və Türkiyə Prezidentlərinin, eləcə də Pakistanın Baş nazirinin iştirakı ilə keçirilmiş Zirvə görüşü regionda iqtisadi inkişaf, infrastruktur layihələri və təhlükəsizlik məsələlərinin müzakirəsi baxımından mühüm siyasi hadisə olub.

Nəzərə çatdırılıb ki, bütün bu sadalananlar Azərbaycanın beynəlxalq müstəvidə artan nüfuzunun, müstəqil və prinsipial xarici siyasət kursunun nəticəsidir. Həmçinin dövlətimizin gücü ölkə daxilində sabitliyin, təhlükəsizliyin, sosial rifahın və hüquqi dövlət prinsiplərinin təmin olunmasında da özünü göstərir. Məhz bu baxımdan, 2025-ci il ərzində həyata keçirilən tədbirlər Azərbaycanın suverenliyinin real və dayanıqlı əsaslar üzərində möhkəmləndirildiyini nümayiş etdirir. Bu möhkəmlənmənin ən bariz təzahürü isə cənab Prezident İlham Əliyevin rəhbərliyi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yaxından iştirakı ilə işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, eləcə də "Böyük qayıdış" proqramının ardıcıl və sistemli şəkildə icrasıdır.

Diqqətə çatdırılıb ki, xalqın öz dövlətinə olan dərin inam və etimadına əsaslanan bu sarsılmaz missiya ölkəmizi "Şəhərsalma və Memarlıq İli" elan olunan 2026-cı ildə yalnız yüksək rifah cəmiyyəti və iqtisadi tərəqqi məkanı kimi deyil, həm də çoxəsrlik tarixə malik quruculuq diyarı kimi bir daha dünyaya tanıdacaqdır.

Bildirildi ki, 2020-ci ildə Vətən müharibəsinin başa çatmasından sonra keçirilmiş 6 müsabiqənin nəticələri üzrə müvəffəqiyyət qazanmış 24 nəfər Vətən müharibəsi iştirakçısı prokurorluq orqanlarında qulluğa qəbul edilib. Onlardan 2 nəfəri 2020-ci ildə, 10 nəfəri 2021-ci ildə, 6 nəfəri 2022-ci ildə, 3 nəfəri 2023-cü ildə, 2 nəfəri 2024-cü ildə, 1 nəfəri isə 2025-ci ildə elan edilmiş müsabiqə üzrə uğur qazanıb.

Qeyd olunub ki, Ümummilli Lider Heydər Əliyevin 19 iyun 2001-ci il tarixli fərmanı ilə təsdiq edilmiş "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında Əsasnamə"yə uyğun olaraq Baş Prokurorluq tərəfindən növbəti dəfə 15 aprel 2025-ci il tarixdə elan edilmiş 27-ci müsabiqənin nəticələri üzrə 51 gənc hüquqşünas qulluğa qəbul olunub.

Daha sonra prokurorluqda qulluğa yeni qəbul olunmuş gənclərin vəzifələrə təyin edilməsi barədə əmr elan edilib, işə qəbul olunanlar təntənəli surətdə and içib və onlara xidməti vəsiqələr baş prokuror tərəfindən təqdim olunub.

Tədbirdə çıxış edən Fərhad Bədəlbəyli və Elbay Qasımzadə işə qəbul olunan gənc əməkdaşları təbrik edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb, prokurorluq orqanlarının dövlət müstəqilliyimizin, xalqımızın və dövlətimizin cinayətkar qəsdlərdən qorunması, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsində xüsusi yerə malik olduğunu bildirib.

Prokurorluqda qulluğa yeni qəbul olunmuş gənclərdən Nərmin Həmzəyeva və Orxan Səhratzadə çıxış edərək gənc mütəxəssislərə göstərilən dövlət qayğısına görə dövlət başçısına öz minnətdarlıqlarını bildirərək, onlara göstərilən yüksək etimadı doğruldacaqlarına söz veriblər.

Tədbir iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət qəbul edilib.

Baş prokuror Kamran Əliyev mərasimə yekun vuraraq qulluğa qəbul olunan gənc prokurorluq əməkdaşlarını təbrik etmiş, onların prokurorluq işçisinin şərəfini həmişə uca tutacaqlarından əmin olduğunu bildirmişdir.

Sonda tədbir iştirakçıları ilə birlikdə xatirə fotoşəkli çəkdirilib.

# 2025-ci il prokurorluq işçiləri üçün də əlamətdar il olub

"2025-ci il prokurorluq işçiləri üçün də əlamətdar bir il olub, "Konstitusiya və Suverenlik İli" çərçivəsində Baş Prokurorluq tərəfindən də geniş və məqsədyönlü fəaliyyət həyata keçirilib".



Bunu baş prokuror Kamran Əliyev prokurorluq orqanlarında qulluğa yeni qəbul edilmiş gənc hüquqşünasların andiçmə mərasimində deyib. Baş prokuror bildirib ki, eyni zamanda prokurorluq orqanlarının beynəlxalq əlaqələrinin inkişafı da daim diqqət mərkəzində saxlanılıb.

"Baş Prokurorluğun təşəbbüsü ilə Birləşmiş Millətlər Təşkilatının Korrupsiyaya qarşı Hüquq-Mühafizə Orqanlarının Qlobal Əməliyyatlar Şəbəkəsinin - GlobE Network-un Altıncı Plenar İclasının ölkəmizdə keçirilməsi Azərbaycanın korrupsiyaya qarşı mübarizədə etibarlı və fəal tərəfdaş kimi qəbul edildiyini nümayiş etdirdi. Bu tədbir Azərbaycan prokurorluğunun beynəlxalq hüquqi əməkdaşlıq sahəsində artan rolunu, qabaqcıl təcrübələrin paylaşılmasına və qlobal təşəbbüslərə töhfə vermək potensialını açıq şəkildə ortaya qoydu. Qeyd edilən tədbirdə 90-dan çox ölkədən 300-dən artıq nümayəndə iştirak etdi" - deyə baş prokuror bildirib.

K.Əliyevin sözlərinə görə, dekabrın 2-də Baş Prokurorluğun nümayəndə heyətinin Birləşmiş Millətlər Təşkilatının Baş Qərargahında keçirilən "Korrupsiyanın ölçülməsinin təkmilləşdirilməsi məqsədilə məlumatların səmərəli istifadə olunması" mövzusunda İkinci Qlobal Konfransda iştirakı korrupsiyaya qarşı mübarizədə müasir yanaşmaların, analitik alətlərin və məlumat əsaslı mexanizmlərin tətbiqi baxımından mühüm əhəmiyyət kəsb edib: "Bu konfrans çərçivəsində aparılan müzakirələr prokurorluq orqanlarının fəaliyyətində şəffaflığın və effektivliyin artırılması istiqamətində beynəlxalq təcrübənin öyrənilməsinə imkan yaratdı.

Eyni zamanda dekabr ayında baş prokurorun rəhbərliyi ilə nümayəndə heyətinin Qətər Dövlətinin paytaxtı Doha şəhərində keçirilən BMT-nin Korrupsiyaya qarşı Mübarizə üzrə Konvensiyasına Tərəf Dövlətlərin 11-ci Assambleyasında iştirakı Azərbaycanın bu sahədə qlobal səylərə verdiyi töhfənin davamlı xarakter daşıdığını göstərdi. Bu platforma ölkəmizin hüquqi mövqeyinin, milli antikorrupsiya siyasətinin və institusional təcrübəsinin beynəlxalq səviyyədə təqdim olunması baxımından mühüm əhəmiyyətə malikdir".

K. Əliyevin sözlərinə görə, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət gənclər siyasətinin dövlət başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi respublikamızda gəncliyin inkişaf yoluna işıq salmaqla gənclərin dövlət quruculuğunda və idarəçiliyində, bir sözlə, ictimai həyatın bütün sahələrində iştirak edən güclü sosial təbəqəyə çevrilməsini təmin edib: "Bu istiqamətdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın dəstəyi ilə həyata keçirilən Dövlət Proqramları və digər çoxsaylı tədbirlər gənclərin təhsil, ailə, məişət, məşğulluq məsələlərinin həllində mühüm rol oynamış, paytaxt və rayonlarda gənclərin asudə vaxtlarının səmərəli təşkili məqsədilə qabaqcıl infrastrukturun yaradılması gəncliyin uğurlu gələcəyinə hesablanıb.

Bu gün şəffaf və ədalətli prosedurlar əsasında müsabiqə yolu ilə prokurorluq orqanlarında işləmək hüququ əldə etmiş gənclərin qazandığı uğurlar məhz Ulu Öndər Heydər Əliyev tərəfindən təməli qoyulmuş və möhtərəm Prezidentin rəhbərliyi ilə reallaşdırılan dövlət gənclər siyasəti nəticəsində mümkün olub".

*"Azərbaycan"*

# Azərbaycan-İtaliya Hökumətlərarası Komissiyanın yekunlarına dair Protokol imzalanıb



Dünən Bakıda keçirilən Azərbaycan Respublikası və İtaliya Respublikası arasında İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 6-cı iclasının yekunlarına dair protokol imzalanıb.

AZƏRTAC xəbər verir ki, protokolu Azərbaycan tərəfdən komissiyanın həmsədri energetika naziri Pərviz Şahbazov, İtaliya tərəfdən isə xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini Edmondo Çirielli imzalayıblar.

# Müdafiə Nazirliyi ilə Hərbi Prokurorluq arasında birgə tədbirlər planı imzalanıb

Azərbaycan Ordusunda 2026-cı il ərzində hərbi intizamın gücləndirilməsi və hüquq pozuntularının qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Hərbi Prokurorluğu arasında birgə tədbirlər planı imzalanıb.

Müdafiə Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, sənəddə cari il boyu həyata keçirilməsi planlaşdırılan birgə tədbirlər, onların icra müddəti, keçiriləcəyi yerlər və məsul şəxslər müəyyənləşdirilib.

Tədbirlər planına əsasən, 2026-cı il ərzində Müdafiə Nazirliyinin tabeliyində olan qoşun (qüvvə) növləri, birlik, birləşmə və hərbi hissələrdə, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrində xidmət edən hərbi qulluqçularla Hərbi Prokurorluq əməkdaşlarının görüşlərinin təşkili nəzərdə tutulur.

Bu görüşlər çərçivəsində şəxsi heyətin hüquqi biliklərinin artırılması, nizam-intizamın və qanunçuluğun möhkəmləndirilməsi, mövcud problemlərin aradan qaldırılmasına yönəlmiş tədbirlərin icrası əksini tapıb.

# Azərbaycan Vyanada "Türk həftəsi"nin açılışında təmsil olunub

Yanvarın 12-15-də Vyana şəhərində Türk Dövlətləri Təşkilatı (TDT) və təşkilata üzv dövlətlərin BMT-nin Vyana Ofisindəki nümayəndəliklərinin birgə təşkilatçılığı ilə "Türk həftəsi" keçirilir.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, "Türk həftəsi" BMT-nin Vyana bölməsində "İpək yolu üzərində türk dünyası" adlı sərginin təntənəli açılış mərasimi ilə başlayıb.

Azərbaycanın Vyanada yerləşən Beynəlxalq Təşkilatlar yanında Daimi Nümayəndəliyinin təşkilatçılığı ilə keçirilmiş sərginin açılış mərasimində TDT-nin baş katibi Kubanıçbek Ömür-alıyev, Azərbaycanın xarici işlər nazirinin müavini Samir Şərifov, BMT-nin Vyana bölməsindəki bir sıra beynəlxalq təşkilatların rəhbər şəxsləri, Vyanada akkreditə olunmuş diplomatik korpusun nümayəndələri iştirak ediblər.



Açılış mərasimində hazırda TDT-yə sədrlik edən ölkəni - Azərbaycanı təmsil edən xarici işlər nazirinin müavini Samir Şərifov Türk Dövlətləri Təşkilatında Azərbaycanın sədrliyinin prioritetləri haqqında məlumat verib, adıçəkilən təşkilatın yaradılması məqsədilə imzalanmış Naxçıvan sazişindən, Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının 12-ci Zirvə Görüşündə imzalanmış Qəbələ Bəyannaməsindən, habelə Budapeştdə keçirilmiş qeyri-rəsmi Zirvə görüşündə qəbul edilmiş bəyannamənin mahiyyətindən bəhs edib. O, türk dövlətlərinin əməkdaşlığının iqtisadi potensialına toxunaraq, Orta dəhlizin Şərqlə Qərb arasında oynadığı rolu vurğulayıb. S.Şərifov həmçinin türk dövlətləri arasında mədəniyyət, elm və təhsil sahələrində əməkdaşlığın aktual məsələlərinə toxunaraq, ortaq türk mədəni irsinin və dilinin öyrənilməsinə həsr edilmiş ilk Türkoloji Qurultayın 100 il öncə Bakıda keçirildiyini və cari ildə II Türkologiya Konqresin də Bakıda keçiriləcəyini iştirakçıların diqqətinə çatdırıb.

Sərginin açılışı zamanı TDT-nin baş katibi Kubanıçbek Ömüralıyev, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin (UNDOC), Sənaye İnkişafı Təşkilatının (UNIDO) və Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (IAEA) rəhbər şəxsləri də çıxış ediblər.

Tədbirdə türk xalqlarının zəngin mədəni irsini və qədim tarixini özündə əks etdirən fotolar və eksponatlar nümayiş etdirilib.

Xarici işlər nazirinin müavini Samir Şərifov və TDT-nin baş katibi Kubanıçbek Ömüralıyev səfər çərçivəsində həmçinin Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (IAEA) baş direktoru Rafael Mariano Qrossi, BMT-nin Kosmik Fəza Məsələləri İdarəsinin (UNOOSA) direktor müavini Driss El-Hadani və Sənaye İnkişafı Təşkilatının (UNIDO) baş direktorunun müavini Fatu Haydara ilə görüşüb, TDT ilə bu təşkilatlar arasında potensial əməkdaşlıq məsələləri müzakirə olunub.

Bundan əlavə, "Türk həftəsi" çərçivəsində ATƏT-in mənzil qərargahında "İpək yolundan Orta dəhlizə: Nəqliyyat və ticarətin asanlaşdırılması vasitəsilə əlaqəliliyin təşviqi" adlı "dəyirmi masa"nın, türk dövlətlərinin mədəniyyət nümayəndələrinin iştirakı ilə qala konsertin və TDT-nin diaspor potensialının artırılması üzrə üçüncü təlim proqramının keçirilməsi nəzərdə tutulur.

# Ombudsman vətəndaşların müraciətlərini dinləyib

Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Bakıda növbəti dəfə vətəndaşlarla görüşüb.



Bu barədə AZƏRTAC-a Ombudsman Aparatından məlumat verilib.

Bildirilib ki, ombudsman müraciət etmiş vətəndaşların hər biri ilə fərdi qaydada görüşüb, bəzi məsələlərin operativ həlli məqsədilə yerində zəruri tədbirlər görülüb. Araşdırma tələb edən digər məsələlərin nəzarətdə saxlanılacağı və mövcud qanunvericiliyin tələblərinə uyğun həll olunması istiqamətində müvafiq dövlət qurumlarına müraciət ediləcəyi diqqətə çatdırılıb. Görüş zamanı vətəndaşlara hüquqi məsləhətlər verilib, eyni zamanda müraciətlərə daha səmərəli və çevik şəkildə baxılması üçün Ombudsman Aparatında fəaliyyət göstərən "916" Çağrı Mərkəzi, elektron poçt ünvanları, poçt, faks, eləcə də sosial şəbəkələr vasitəsilə də müraciətlərin qəbul olunduğu onların diqqətinə çatdırılıb.

# "Rəşt-Astara üç ölkənin dəmir yollarını birləşdirəcək"

"Rəşt-Astara dəmir yolu xətti tamamlanıb istismara verildikdən sonra Azərbaycan və Rusiyanın İranın cənubundakı (Körfəzdəki) dəniz limanları ilə nəqliyyat əlaqəsi yaranacaq və ticarət əlaqələri genişlənəcək". Bu sözləri AZƏRTAC-a açıqlaması zamanı İranda fəaliyyət göstərən İntellektual İdarəetmə Mərkəzinin rəhbəri, beynəlxalq iqtisadiyyat üzrə ekspert Seyid Taha Hüseyin Madani deyib.

Onun sözlərinə görə, Rusiya ilə İran arasında 10 milyon ton yükün "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi vasitəsilə daşınması haqqında razılıq əldə edilib.

"Bu yüklər İrana Xəzər dənizi vasitəsilə daşınacaq. Rəşt-Astara dəmir yolu xəttinin inşasının tezliklə başa çatdırılması zəruridir. Bu yol hazır olduqdan sonra İranın tranzit imkanları daha da artacaq. Rusiyadan İrana daşınan tranzit yüklər Xəzər dənizi ilə Ənzəli limanına daxil olur və burada yenidən qatara yüklənərək istiqamətindən asılı olaraq Çabahar və Bəndər-Abbas limanlarına daşınır. Bu limanlarda yüklər təkrar olaraq gəmilərə yüklənir və yola salınır. Göründüyü kimi, tranzit yüklər bir neçə dəfə yüklənib boşaldılır ki, bu da həm vaxt aparır, həm də nəqliyyat xərclərini artırır. Lakin Rəşt-Astara yolu hazır olsa, Rusiyadan yüklər qatarla birbaşa İranın cənub limanlarına çatdırılaraq gəmilərlə yola salınar. Rəşt-Astara dəmir yolu İran-Azərbaycanın-Rusiya dəmir yollarını birləşdirəcək", - deyə ekspert vurğulayıb.

Ekspertin sözlərinə görə, İranda dəmir yollarının təkmilləşdirilərək inkişaf etdirilməsi də zəruridir: "Ötən il (İran ili) bu marşrutla 11,5 milyon ton yük daşınıb. Rəşt-Astara yolu aktiv olsaydı, bu rəqəm dəfələrlə çox olardı. Hazırda İranda dəmir yollarının təkmilləşdirilməsi və yeni dəmir yollarının inşası davam edir. Ötən il Çabahar-Zahedan dəmir yolunun inşasına başlanılıb. Bu yol İranın Oman dənizi sahilində, Hind okeanına çıxışı və iri həcmdə yükaşırma imkanı olan Çabahar limanı ilə digər bölgələri birləşdirəcək. Rusiya və Avropadan Cənub-Şərqi Asiya ölkələrinə ixrac olunan yüklər Çabahar limanından, Körfəz ölkələrinə daşınan yüklər isə sahildəki Bəndər-Abbas limanından yola salınacaq. Hər iki istiqamətə yüklərin daşınması Azərbaycandan tranzit olaraq Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu xətti ilə həyata keçiriləcək. Hələlik bu dəmir yolu xəttinin Qəzvin-Rəşt hissəsi aktivdir. Rəşt-Astara hissəsində isə işlər davam edir. Beynəlxalq sanksiyalar və İrandakı qeyri-sabit ictimai-siyasi vəziyyət yolun tikintisini ləngidir".

# Sədərək rayonunda ötən il sənaye məhsulunun və sənaye xarakterli xidmətlərin dəyəri 9 milyon 461 min 900 manat olub



Yanvarın 13-də "2025-ci ildə Sədərək rayonunun sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr"ə həsr olunmuş hesabat tədbiri keçirilib.

AZƏRTAC xəbər verir ki, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli, Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Naim Cahidzadə, Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin 13-cü ərazi sektorunun müdiri Çingiz Əliyev, YAP Sədərək Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları və hüquq-mühafizə orqanlarının rəhbərləri Heydərabad qəsəbəsində Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, Ulu Öndərin xatirəsini ehtiramla anıblar.

Sədərək Rayon Mədəniyyət Sarayında davam edən tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.

Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Naim Cahidzadə çıxışında ötən ilin sosial-iqtisadi uğurlarından bəhs edib. Bildirib ki, 2025-ci ildə Sədərəkdə 1 yanacaqdoldurma məntəqəsi və 1 iaşə xidməti yaradılıb, yeni ictimai obyektlər və digər iş yerləri istifadəyə verilib, 3 uşaq-əyləncə qurğusu və 1 sadə tipli açıq hava idman qurğuları quraşdırılıb. Həmçinin Şəhidlər Memorial Abidə kompleksinin layihələndirilməsinə başlanılıb, Dəmirçi kəndində magistral və kənddaxili yolların işıqlandırılması layihəsi hazırlanıb.

İcra hakimiyyətinin başçısı vurğulayıb ki, iqtisadiyyatın əsas inkişaf göstəricisi sayılan ümumi məhsul buraxılışı 2024-cü illə müqayisədə 7,6 faiz artaraq 35 milyon 892 min manat olub. Hesabat dövründə sənaye məhsulu 33,6 faiz, əsas kapitala yönəldilən vəsaitlərin dəyəri 38,1 faiz, pərakəndə ticarət dövriyyəsi 4 faiz, əhaliyə göstərilən ödənişli xidmətlər 0,1 faiz artıb. Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi və əlverişli biznes mühitinin yaradılması rayonda istehsal potensialını və məşğulluq səviyyəsini yüksəldib. Ötən il sənaye məhsulunun və sənaye xarakterli xidmətlərin dəyəri 9 milyon 461 min 900 manat olub ki, bunun da böyük hissəsi qeyri-dövlət sektorunun payına düşür. 2025-ci ilin məhsulu üçün Sədərək rayonunda 2 min 643 hektardan artıq sahədə əkin aparılıb.

Naim Cahidzadə ötən il rayonda ətraf mühitin mühafizəsi, rabitə və yeni texnologiyaların tətbiqi, elektrik enerjisində keyfiyyətin artırılması, təbii qaz təchizatı sisteminin müasirləşdirilməsi, təhsil, səhiyyə, sosial müdafiə, idman və digər sahələrdə görülən işləri diqqətə çatdırıb, qarşıda duran vəzifələrdən danışıb.

Sədərək Rayon Maliyyə Şöbəsinin müdiri Məhərrəm Qədimov 2025-ci ildə yerli büdcənin icrası,



Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin şöbə müdiri Orxan Rzayev əhalinin sosial müdafiəsi sahəsində görülmüş işlər barədə məlumat veriblər.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli tədbirdə çıxış edərək bildirib ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi və Prezident İlham Əliyev tərəfindən müasir dövrün çağırışlarına uyğun şəkildə davam etdirilən inkişaf strategiyasının fəal iştirakçısıdır. O qeyd edib ki, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"ndan irəli gələn mühüm vəzifələrin, sosial-iqtisadi inkişaf, infrastrukturun yenilənməsi və dövlət proqramının vaxtında, keyfiyyətlə və nəticəyönümlü icrasını təmin etmək əsas məqsədlərdən biridir. Mövcud strateji sənədlər və inkişaf prioritetləri nəzərə alınmaqla bu gün Naxçıvanda su, enerji, yol-nəqliyyat, rabitə, kommunal təsərrüfat sahələrində dayanıqlı və müasir həllərin tətbiqi, əhalinin həyat keyfiyyətinin yüksəldilməsi istiqamətində iş aparılır. Kənd təsərrüfatı, turizm və xidmət sahələrinin inkişafı, sahibkarlığın dəstəklənməsi və yeni iş yerlərinin yaradılması məqsədilə yerli potensialdan səmərəli istifadə olunması, investisiya təşviqlərinin genişləndirilməsi, müasir infrastrukturun formalaşdırılması və biznes subyektlərinin inkişafı üçün ardıcıl və nəticəyönümlü tədbirlər həyata keçirilir.

Samir Seyidəhmədli bildirib ki, bu gün məşğulluq sahəsində islahatların davam etdirilməsi, əhalinin sosial rifahının yüksəldilməsi istiqamətində əmək bazarının tələblərinə uyğun yeni iş yerlərinin yaradılması, aktiv məşğulluq proqramlarının genişləndirilməsi, peşə hazırlığı və ixtisasartırma tədbirlərinin gücləndirilməsi, eləcə də sosial müdafiə mexanizmlərinin daha ünvanlı və səmərəli şəkildə tətbiqi məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

Səlahiyyətli nümayəndənin müavini sonda əminliklə qeyd edib ki, dövlətimizin başçısının müəyyən etdiyi strateji xəttə uyğun olaraq görülən işlər xalqımızın rifahının daha da yüksəlməsinə və Azərbaycanın uzunmüddətli tərəqqisinə möhkəm zəmin yaradacaq.

# Ötən il Qəbələnin hotel və mehmanxanaları 95 mindən çox turistə xidmət göstərib



2025-ci ildə Qəbələ rayonundakı hotel və mehmanxana tipli müəssisələrə 95 min 607 nəfər yerli və əcnəbi turist yerləşdirilib. Onların 47 min 252 nəfəri və ya 49,4 faizi Azərbaycan, 48 min 355 nəfəri və ya 50,6 faizi xarici ölkə vətəndaşı olub.

Bu barədə AZƏRTAC-a Qəbələ Rayon Statistika İdarəsindən məlumat verilib.

Bildirilib ki, ötən il Qəbələnin hotel və mehmanxana tipli müəssisələrinə yerləşdirilən yerli turistlərin sayında əvvəlki illə müqayisədə 8 min 115 nəfər və ya 20,7 faiz artım, əcnəbi turistlərin sayında isə 14 min 613 nəfər və ya 23,2 faiz azalma qeydə alınıb.

2025-ci ildə Qəbələyə gələn əcnəbi turistlər arasında Hindistan vətəndaşları üstünlük təşkil edib. Belə ki, keçən il bu ölkənin 15 min 830 vətəndaşı Qəbələdə olub.

Ümumiyyətlə, ötən ilin yanvar-dekabr aylarında Qəbələyə Səudiyyə Ərəbistanından 10 min 30, Birləşmiş Ərəb Əmirliklərindən 6 min 84, Pakistandan 3 min 138, İsraildən 1964, Küveytdən 1601, Qətərdən 1191, Rusiyadan 844, Omandan 401, Özbəkistandan 368, Türkiyədən 366, ABŞ-dən 308, Qazaxıstandan 281, Böyük Britaniyadan 251, Bəhreyndən 148, Ukraynadan 127, Yaponiyadan 124, Çindən 103 turist səfər edib. Gələnlərin 5196 nəfəri isə digər ölkələrin vətəndaşları olublar.

Ötən il Qəbələ rayonu ərazisində yerləşən 22 mehmanxana və mehmanxana tipli müəssisədən 15-i fəaliyyət göstərib. Bir gün qonaqlamaq üçün orta qiymət 123,8 manat təşkil edib. Turistlərin qonaqlama müddəti 1-2 gün olub. Bu müddətdə turizm obyektlərində 1082 işçi çalışıb.

# Ümidlərin bərpa olunduğu mərkəz

**"Biz müharibə zamanı əlil olmuş hərbçiləri dövlət tərəfindən ən müasir protezlərlə təmin etmişik. Beş yüzdən çox insan protezlərlə təmin edilib və normal həyata qayıdıblar. Bu, ən son model protezlərdir. Müntəzəm olaraq onlara xidmət göstərilməlidir, dəyişdirilməlidir. Çünki bunu fizioloji nöqteyi-nəzərdən dəyişməyə ehtiyac var. Əlbəttə, biz bunu edirik, o insanlar qarşısında bizim vətəndaşlıq borcumuzdur".**











Prezident İlham Əliyevin 2025-ci il yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsi zamanı dediyi bu sözlər dövlətin müharibə əlillərinə münasibətinin açıq və aydın şəkildə ifadəsidir. Bu yanaşma təkcə sosial siyasətin deyil, həm də insan ləyaqətinə, vətəndaş məsuliyyətinə söykənən dövlət fəlsəfəsinin göstəricisidir. Məhz bu prinsiplərin real təzahür etdiyi əsas ünvanlardan biri də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzidir. Burada göstərilən xidmətlər sadəcə tibbi-texniki təminat deyil, Vətən uğrunda sağlamlığını itirmiş insanların yenidən həyata qayıdışının, cəmiyyətə inteqrasiyasının və gələcəyə inamının bərpasıdır. Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzi Azərbaycan Respublikasında əlilliyi olan şəxslərin, xüsusilə müharibə əlillərinin reabilitasiyası və sosial həyata inteqrasiyası istiqamətində aparılan dövlət siyasətinin əsas icraçı qurumlarından biridir.

Bu günlərdə mərkəzdə olduq. İş gününün yenicə başlamasına baxmayaraq, sözün əsl mənasında, burada bir qələbəlik var idi. Xatırladaq ki, Ümummilli Lider Heydər Əliyev 1995-ci il yanvarın 17-də Əhmədli qəsəbəsində yerləşən Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzinin kompleks açılışında iştirak etmişdir. 2019-cu il dekabrın 19-da isə mərkəz əsaslı təmir və yenidənqurmadan sonra müasir standartlara uyğun yenidən istifadəyə verilmişdir. Hazırda mərkəz yeni texnologiyaların tətbiqi ilə dayaq-hərəkət sistemi pozulmuş əlilliyi olan şəxsləri geniş spektrli reabilitasiya vasitələri ilə təmin edir. Burada əliliyi olan şəxslərin rahatlığı üçün hər cür şərait yaradılıb. Mərkəzin direktorunun verdiyi məlumata görə, bu sahədə həyata keçirilən tədbirlər Prezident İlham Əliyevin tapşırıqları əsasında ardıcıl və sistemli şəkildə icra olunur. "Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi Şərtləri və Qaydası" Nazirlər Kabinetinin 18 dekabr 2020-ci il tarixli 501 nömrəli qərarı ilə təsdiqlənib və bu sənəddə yüksəktexnologiyalı protezlərlə təminat ayrıca yer alıb. Prezidentin müvafiq sərəncamına əsasən, mərkəzdə Almaniyanın "Ottobock" şirkəti ilə əməkdaşlıq şəraitində yüksəktexnologiyalı protezlərin istehsalı sexi yaradılıb.

Mərkəzin direktoru Asif Məcidov bildirdi ki, Nazirlər Kabinetinin 20 iyun 2024-cü il tarixli 306 nömrəli qərarı ilə reabilitasiya vasitələrinin siyahısı genişləndirilib və Ümumdünya Səhiyyə Təşkilatı ilə əməkdaşlıq çərçivəsində bu vasitələrin sayı 57-dən 130-a çatdırılıb. Onlardan 81-i reabilitasiya vasitəsi, 49-u isə bu vasitələrə əlavələrdir. Siyahı hərəkətlilik, özünəqulluq, görmə, eşitmə, ünsiyyət və digər istiqamətlər üzrə qruplaşdırılıb.

Öyrəndik ki, 2025-ci ildə mərkəz tərəfindən ümumilikdə 211787 ədəd reabilitasiya vasitəsi təqdim edilib, 13692 əlilliyi olan şəxsə reabilitasiya xidməti göstərilib. Postmüharibə dövründə mərkəzin əsas fəaliyyət istiqamətlərindən biri də Vətən müharibəsi iştirakçılarının yüksəktexnologiyalı protezlərlə təminatı olub. Birinci və İkinci Qarabağ müharibələrində əlillik almış 500 nəfərdən çox hərbçi 619 ədəd yüksəktexnologiyalı protezlə təmin edilib.

Bu mərkəz Cənubi Qafqazın unikal reabilitasiya müəssisələrindən biridir. Almaniyanın "Ottobock", İslandiyanın "Össur", Rusiyanın "Metiz" şirkətləri ilə əməkdaşlıq çərçivəsində burada beynəlxalq təcrübə tətbiq olunur. Bu əməkdaşlıq həm istehsalın keyfiyyətinə, həm də yerli mütəxəssislərin bilik və bacarıqlarının artırılmasına xidmət edir.

Qeyd edək ki, innovativ texnologiyaların tətbiqi sayəsində, təhlükəsizlik və hərəkət sərbəstliyində yeni standartlar yaranmışdı. Aşağı ətraf protezlərində istifadə olunan elektron diz oynaqları ilə təchiz olunan yüksəktexnologiyalı protezlər funksionallığı ilə seçilir. Belə ki, diz oynağı pasiyentin pilləkənlərdə və panduslarda qalxıb-enməyinə və naharmar yerdə gəzməyinə uyğunlaşır. Protezə xüsusi proqram təminatı vasitəsilə istifadəçinin tələbinə uyğun fərqli funksiyaları - sərbəst hərəkət, sürətli hərəkət yükləmək olur. Proqram təminatı pasiyentin iş, istirahət və idman etməsi üçün fantastik seçimlər təklif edir. Pasiyent oturarkən nəzarət və dəstək üçün onun sürətini təkrarlayır. Yıxılmadan qorunmaq üçün tarazlığı bərpa etmək və daha çox sabitliyi qorumaq üçün lazımi müqaviməti aktivləşdirir.

Yuxarı ətraf protezlərdə isə dinamik əlin (Quantum PK-4 ) - dörd idarəetmə üsulu var - sadə jestlərlə idarəetmə, mobil proqramdan idarəetmə, güdül əzələlərindən alınan miyosiqnallarla idarəetmə, simsiz uzaqdan idarəetmə. Sürətartırma funksiyası ilə barmaqların sürəti 30 faiz artırıla bilir. Elektriklə idarə olunan baş barmaq rotatoru avtomatik olaraq yan və ya əlavə mövqeyə keçə bilir. Əvvəlcədən proqramlaşdırılmış və ya istifadəçi tərəfindən yaradılmış 36-ya qədər müxtəlif tutmaq növünü seçmək imkanı var. Avtomatik tutma xüsusiyyəti əşyanın sürüşməsinin, düşməsinin qarşısını alır.

Onu da qeyd edək ik, Vətən müharibəsi iştirakçılarına qayğı və diqqətin nəticəsi olaraq eyni zamanda Danimarkanın "Levitate" şirkətinin müasir idman protezləri ilə təminatı həyata keçirilib. Bu, əlilliyi olan şəxslərin qaçış və digər idman oyunlarında daha sərbəst və aktiv şəkildə, rahat hərəkətlər etməsinə imkan verir. Ümumiyyətlə, yüksəktexnologiyalı protezlər əlilliyi olan şəxslərin sosial həyata inteqrasiyasını təmin edir.

Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzində olduğumuz müddətdə bir daha şahidi olduq ki, burada yalnız protez və reabilitasiya vasitələri istehsal edilmir, eyni zamanda insan talelərinə həssas və məsuliyyətli yanaşma nümayiş etdirilir. Əhalinin həssas təbəqəsinə aid olan əlillərin problemləri diqqətlə öyrənilir, hər bir müraciət fərdi qaydada dəyərləndirilir. Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzinin istehsalat sexlərində hər bir əlilliyi olan şəxsin diaqnozu, anatomik xüsusiyyətləri, aktivlik səviyyəsi, çəkisi və ölçüləri nəzərə alınmaqla geniş artikulda reabilitasiya vasitələri fərdi qaydada hazırlanır və təmir edilir.

Mərkəzə müxtəlif bölgələrdən gələn müharibə əlilləri və digər kateqoriyadan olan şəxslərlə söhbətlər zamanı onların dövlət qayğısından razı qaldıqlarının şahidinə çevrilirsən. Bu insanlar həm göstərilən xidmətdən, həm də müasir texnologiyalar əsasında hazırlanmış protezlərin rahatlığından məmnunluq ifadə edirdilər. Onlar Vətən və torpaq uğrunda döyüşdükləri üçün əlil qaldıqlarına görə heç bir peşmanlıq hissi keçirmir, əksinə, dövlətin və cəmiyyətin dəstəyini hiss edərək həyata daha möhkəm bağlanıblar.

Bərdə rayonundan olan həmsöhbətimiz Sərxan Quliyev dedi: "Müddətdən artıq xidmət edən hərbi qulluqçu idim. Füzulinin, Cəbrayılın, Qubadlının işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etmişəm. 2020-ci il oktyabrın 18-də Qubadlıda yaxınlığıma düşən minaatan mərmisindən ağır yaralandığım üçün ayağımın birini amputasiya etdilər. Artıq üçüncü dəfədir ki, protezimi dəyişdirirəm. Burada bizə olan münasibət olduqca yaxşıdır. Yüksək səviyyədə xidmət göstərilir. Protezlə təminat zamanı "yüz ölç, bir biç" prinsipinə əməl olunur. Bunun nəticəsidir ki, biz əlil olduğumuzun fərqində deyilik. Bunu kənardan müşahidə edənlər də o qədər hiss etmirlər. Mən bir vətəndaş olaraq öz borcumu yerinə yetirməyə çalışmışam. Vətənə xidmət heç bir minnət qoymadan hamının şərəf borcudur. Bunun müqabilində üzərimdə hər an dövlətimizin yüksək qayğısını və diqqətini hiss edirəm. Dövət mənə təqaüd verir. Bərdə rayon Saatlı kənd orta məktəbində çağırışaqədərki hazırlıq müəllimi işləyirəm. Avtomobillə təmin olunmuşam. Yaxın zamanlarda ev də veriləcəkdir. İki oğlum, bir qızım var. Övladlarıma da tövsiyə edirəm ki, gözəl vətənimizi təmənnasız sevsinlər, bu qüdrətli dövlətimizə əsl vətəndaş olaraq xidmət etsinlər".

Digər həmsöhbətimiz Namiq Məmmədov isə fikrini belə açıqladı: "Beyləqandan Şuşaya qədər döyüş yolu keçmişəm. 44 günlük Vətən müharibəsində çiynimdən qəlpə yarası almışam. 2021-ci il aprelin 9-da minaya düşmüşəm. Ayağımın biri amputasiya olunub, biri isə funksiyasını itirib. Yüksəksəviyyəli protezlə təmin olunmağımın nəticəsində bütün ağrı-acıları unutmuşam. Hətta şənliklərdə rəqs edə bilirəm. Bu gün dövlətimiz bir atanın doğma övladına göstərdiyi diqqət qədər bizə qayğı göstərir. Yüksək məbləğdə pensiya alıram. Dövlət mənə maşın da verib. Subayam, dövlətimiz tezliklə mənə ev də verəcək, evlənəcəyəm".

Həmsöhbətimiz Birinci Qarabağ müharibəsi əlili Fətalı Sofiyev Bakının Binəqədi rayonunda yaşadığını dedi: "1993-cü il dekabrın 26-da Füzuli rayonunda minaya düşmüşəm. Həmişə dövlətimizin qayğısını görmüşəm. Ev, maşın, yüksək pensiya, övladlarımın təhsil haqqının ödənilməsi... İndi də yüksəktexnologiyalı protez alıram. Elə bilirəm ki, gözümü dünyaya yenidən açmışam. Əvvəllər diz qapağım olmadığı üçün sərt protezlərin əziyyətini çəkirdim. İndi isə tam rahatam. Axsamıram, hərəkət məhdudiyyətim yoxdur".

Masallı rayonundan olam həmsöhbətimiz Qəfər Bayramov dedi ki, şəkər xəstəsidir: "2023-cü ildə ayağım amputasiya olunub. Bu illər ərzində artıq üçüncü dəfədir yüksəktexnologiyalı protez alıram. Allah bizi yaşadan, bizə hər cür qayğı göstərən dövlətimizi var etsin. Bu protezlərin nəticəsində mən heç ayağımın olmamasını hiss etmirəm. Şəkər xəstəsi kimi dərimanlarla da təmin olunuram".

Biz mərkəzdə olarkən söhbət etdiyimiz pasiyentlər onlara göstərilən xidmətdən razılıq etdilər. Mərkəzin işçilərinin diqqəti, peşəkarlığı və insani münasibəti burada yaradılan ümumi mühitin əsas xüsusiyyətlərindəndir. Bu mühit əlilliyi olan şəxslərin özlərini təkcə pasiyent deyil, qayğı ilə əhatələnmiş vətəndaş kimi hiss etmələrinə imkan yaradır.

Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzinin fəaliyyəti bir daha sübut edir ki, Azərbaycanda müharibə əlillərinə və ümumilikdə əlilliyi olan şəxslərə münasibət yalnız sosial öhdəlik deyil, dərin mənəvi məsuliyyətdir. Burada göstərilən xidmətlər dövlətin gücünü texnologiyada, insanpərvərliyini isə diqqət və qayğıda ifadə edir. Vətən uğrunda sağlamlığını itirən insanlar bu mərkəzdə təkcə protezlə deyil, həyata yenidən bağlanmaq, özünü cəmiyyətin ayrılmaz hissəsi kimi hiss etmək imkanı qazanırlar. Bu isə Prezident İlham Əliyevin rəhbərliyi ilə formalaşan sosial siyasətin əsas prinsipini - insana yüksək dəyəri aydın şəkildə ortaya qoyur. Dövlətin qayğısını hər zaman hiss edən bu insanlar üçün Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzi sadəcə bir müəssisə deyil, ləyaqətin, ümidin və gələcəyə inamın ünvanıdır.

*Elşən QƏNİYEV,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

**"Şəhərsalma və Memarlıq İli"**



# Qədim Bakı yeniləşir və müasirləşir

**Hər yeni ilin özünəməxsus ampluada kodlaşdırılması Prezident İlham Əliyevin ölkəmizin qədim tarixi köklər üzərində pərvəriş tapan mədəni irsi, tarixi, ordu quruculuğu, mədəniyyəti, incəsənəti, ümumiyyətlə, həyatın müxtəlif sahələrinin inkişafı ilə bağlı sərəncamları, tapşırıq və tövsiyələri müstəqil Azərbaycanın dövlətçilik tarixində son illər ənənə halını alıb.**

Dövlət başçısı Azərbaycanda 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi haqqında sərəncam imzalayıb. Bu sərəncam Azərbaycanın çoxəsrlik tarixə malik şəhərsalma və memarlıq mədəniyyəti ənənələrinin yaşadılması, eləcə də ölkədə yeni çağırışlara cavab verən mütərəqqi yanaşmaların təşviqi və tətbiqinin genişləndirilməsi məqsədini ehtifa edir.

Xatırladaq ki, Bakının qədim tarixini özündə yaşadan binalar pasportlaşdırılır. Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti tərəfindən tarix-mədəniyyət abidələrinə məlumat lövhələrinin yerləşdirilməsi ilə bağlı yeni layihənin icrasına başlanılıb.

"İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqlarının əraziləri istisna olmaqla, dövlət mühafizəsində olan daşınmaz tarix və mədəniyyət obyektlərindən (abidələrindən) istifadə, onların bərpası, rekonstruksiyası, konservasiyası və yenidən qurulması sahəsində dövlət nəzarəti gücləndirilir. Tarix və mədəniyyət abidələrinin bərpasına, mühafizəsinə və istifadəsinə dair layihələrin hazırlanması, bu binaların təhlükəsizliyini təmin etmək üçün onların mühafizə zonalarında qabaqlayıcı tədbirlər görülür.

Son illər Bakıda, xüsusilə də şəhərin mərkəzində çoxlu turistlərlə rastlaşırıq. Onlar tarixi binaların, abidələrin önündə ayaq saxlayır, maraqla baxır və şəkil çəkdirirlər. Bu zaman tikili barədə məlumat əldə etmək zərurəti yaranır və məlumat lövhələri olmayanda çətinliklərlə üzləşirlər. Bu lövhənin olması təkcə xarici turistlər üçün deyil, elə yerli əhali üçün də çox vacibdir. Ən azından gördüyün tarixi abidə, kompleks haqqında müəyyən bilgi ala bilirsən.

Amma bu da sirr deyil ki, paytaxtda heç də hər tarixi binada bu cür məlumat lövhələri yoxdur, olanların da bəzisi Azərbaycan və rus dillərində, Kiril əlifbası ilə yazılanlardır. Ölkəmizin digər şəhər və rayonlarında da məlumat lövhələri ilə bağlı vəziyyət yaxşı deyil. Artıq bu sahəyə diqqətin gücləndirilməsi təqdirəlayiq haldır.

Ötən il Bakı şəhəri və bölgələrdə yerləşən 1200-dən artıq abidəyə məlumat lövhəsi quraşdırılıb. Bu lövhələrdə hər bir abidənin adı, tarixi, inventar nömrəsi və əhəmiyyət dərəcəsi barədə məlumatlar öz əksini tapıb.

Qədimliyi ilə göz oxşayan müasir Bakıda dünyanın brend arxitektura layihələri əsasında inşa edilən yüksəkmərtəbəli binaların tikintisi, yerli mədəniyyət abidəsi hesab edilən tarixi mülklərin, məscid və inanc yerlərinin bərpası, yeni magistral yolların və körpülərin yaradılması həm yerli əhalidə, həm də turistlərdə məmnunluq doğurur.

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, Bakının yaşıllaşdırılmasına, yeni park və xiyabanların, istirahət guşələrinin yaradılmasına da xüsusi diqqət yetirilir. Bakının müasir şəhərsalma prinsipləri əsasında inkişaf etdirilməsi, burada rahat yaşayış mühitinin yaradılması, sosial və mədəni həyatın tərəqqisini gerçəkləşdirən məkanların formalaşdırılması nəticəsində paytaxtın siması əsaslı şəkildə dəyişir.

Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində də bu mövzuya toxunub və bu inkişafın əsasında dayanan strateji yanaşmanı, mövcud problemləri və qarşıdakı mərhələnin əsas hədəflərini sistemli şəkildə ortaya qoyub. Dövlət başçısının vurğuladığı kimi, Bakının inkişafı yalnız yeni binaların tikintisi ilə ölçülmür. Əsas məqsəd insan amilinə söykənən şəhər modelinin qurulmasıdır ki, burada rahat nəqliyyat, keyfiyyətli kommunal xidmətlər, geniş ictimai məkanlar, sosial infrastruktur və ekoloji tarazlıq bir-birini tamamlayan elementlər kimi çıxış edir. Son illərdə Bakıda yaşayış massivlərinin genişlənməsi, yeni məktəb və xəstəxanaların tikilməsi, sosial xidmətlərin əlçatanlığının artırılması əhalinin tələbatına cavab verir. Bu isə paytaxtın təkcə inzibati deyil, həm də sosial-iqtisadi mərkəz kimi rolunu da gücləndirir.

Prezident İlham Əliyevin müsahibədə açıqladığı rəqəmlər şəhərdə bu sahədə görülən işlərin miqyasını aydın göstərir: "Hamımız yaxşı bilirik ki, yol hərəkəti bu gün, həqiqətən, ciddi problemdir. Əvvəlki illərdə biz çox iş görmüşük, 50 tunel, 50-yə yaxın körpü inşa etmişik, yolları genişləndirmişik. Təkcə Bakıda 2500 kilometr yol salınmışdır. Təsəvvür edin, şəhərin daxilində 2500 kilometr yol... Vaxtilə Bakı şəhərinə gedən yolun necə olduğunu çox yaxşı xatırlayırıq. O zaman cəmi bir yol var idi. Bu sahədə görüləcək işlər hələ çoxdur. Biz artıq Bakıda əlavə 10 metro stansiyasının tikintisini nəzərdə tutan proqram qəbul etmişik. Mənim səlahiyyət müddətim ərzində 7 stansiya tikilib, lakin bu kifayət deyil. Buna görə də daha 10 metro stansiyası, eləcə də yeni körpülər və tunellər tikiləcək. Bütün bunlar üçün vəsait cəlb etməliyik, çünki bu, bizə xeyli maliyyə qənaəti edəcək və həmin vəsaiti Qarabağ üçün istifadə edə biləcəyik".

Daha 10 metro stansiyasının tikintisi planı Bakının nəqliyyat xəritəsində keyfiyyətcə yeni mərhələdir. Son 20 ildə 7 metro stansiyasının istifadəyə verilməsi şəhərin müəyyən bir dövrdə tıxaclardan sığortalanmasını hədəfləmişdir. İndi yeni stansiyaların, əlavə depoların yaradılması və mövcud stansiyalarda aparılan optimallaşma layihələri ilə ictimai nəqliyyatın cəlbediciliyinin artırılması da mühüm vəzifə kimi qarşıya qoyulur. Ölkə rəhbəri yerli televiziya kanallarına müsahibəsində nəqliyyat layihələrinin reallaşdırılması zamanı Bakının tarixi memarlıq ansamblının toxunulmaz saxlanılmasının zəruriliyini, tarixi abidələrin qorunmasının dövlət siyasətinin dəyişməz istiqaməti olduğunu da diqqətə çatdırıb. Dövlət başçısı eyni zamanda yol-nəqliyyat sisteminin idarə edilməsi və mikromobilliyin, yəni ictimai nəqliyyata üstünlük verilməsinin bir çıxış yolu ola biləcəyini də xatırladıb.

Son illər Bakıda əlavə ictimai yerlərin yaradılması geniş vüsət alıb. Yeni parklar, ictimai zonalar, istirahət guşələri yaradılıb. Bu ərazilərin nəqliyyat infrastrukturu da paralel olaraq öz həllini tapıb. Bunu Mərkəzi Parkın timsalında görə bilərik. Vaxtilə bu ərazi çox ensiz və dar küçələrdən ibarət idi. İndi çox geniş küçələr bu istiqamətdə, yəni Heydər Əliyev Sarayından da yuxarı istiqamətə getmək üçün çox geniş imkanlar yaradıb. Hazırda yeni salınmış Mərkəzi Parkın ətrafındakı köhnə tikililərin sökülməsi davam edir və burada da istirahət məkanları qurulacaq, yaşıllıqlar salınacaq, süni göllər və sairə yaradılacaq.

Paytaxtın iki geniş piyada zonası olan Fəvvarələr meydanı və Qış parkının optimal şəkildə birləşdirilməsi işləri gündəmdədir. Yaxın günlərdə şəhər sakinləri və qonaqların ən çox üz tutduğu məkanlardan biri olan İslam Səfərli küçəsi ilə bağlı dünya təcrübəsinə əsaslanan layihənin icrasına başlanılacaq.

XIX-XX əsrlərə aid tarixi tikililərin əhatəsində olan İslam Səfərli küçəsindəki avtomobil sıxlığı sakinlərə və şəhərimizə gələn turistlərə bu küçədə yerləşən tarixi abidələrlə tanış olmaqda çətinlik yaradır. Bu küçədə səkilər dar, piyada axını çoxdur. Bu səbəbdən hərəkət məhdudiyyəti yaranır.

Bütün bunları nəzərə alaraq, "Qış Parkı" və "Fəvvarələr meydanı" əlaqələndiriləcək, küçə tamamilə piyadalaşdırılacaq. Həmçinin ərazidə mövcud olan ticarət və iaşə obyektlərinin fəaliyyətinə normal şərait yaradılacaq, sakinlərin və turistlərin tarixi abidələrə rahat ziyarəti, gəzinti zamanı insanların təhlükəsizliyi tam təmin olunacaq. Bundan başqa, İslam Səfərli küçəsinin digər küçələrlə kəsişdiyi yerlərdə avtomobillər üçün xüsusi təhlükəsiz keçidlər yaradılacaq. Bəzi parklanma yerləri əlçatanlıq saxlanılmaqla kəsişən küçələrə köçürüləcək, əlavə yerlər təşkil ediləcək. Eyni zamanda operativ və kommunal xidmət avtomobillərinin küçəyə daxil olması üçün normal şərait yaradılacaq.

Xatırladaq ki, 2026-cı il mayın 17-22-də Bakı yenidən dünyanın diqqətini özünə cəlb edəcək. Azərbaycan paytaxtında Birləşmiş Millətlər Təşkilatının ən nüfuzlu tədbirlərindən biri - Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) keçiriləcək. Məzmununa və əhatə dairəsinə görə bu forum BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransından (COP) sonra ikinci ən böyük və strateji əhəmiyyətli qlobal platforma hesab olunur. Bu mühüm tədbirin Bakıda təşkili yalnız regional deyil, həm də qlobal miqyasda şəhərsalma, dayanıqlılıq və ətraf mühit sahələrində Azərbaycanın artan liderliyini nümayiş etdirir.

Forum Azərbaycanın şəhərsalma sahəsindəki öncül rolunun dünyaya təqdim edilməsi baxımından çox əhəmiyyətlidir. İştirakçılar şəhərsalma sahəsində ötən dövrdə əldə olunmuş təcrübələri müzakirə etmək və gələcək üçün yeni, innovativ həllər tapmaq imkanı əldə edəcəklər. Azərbaycan üçün isə WUF13 həm ölkəmizin qlobal şəhərsalma gündəliyindəki mövqeyini möhkəmləndirmək, həm də regionda dayanıqlı və "ağıllı şəhərsalma modelləri"ni təşviq etmək üçün əvəzsiz platformadır.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# Beynəlxalq hüquq, güc balansı və Avropanın təhlükəsizlik dilemması



Müasir beynəlxalq münasibətlər sistemi dərin transformasiya mərhələsindən keçir. Son illərdə artan hərbi münaqişələr, böyük güclərin açıq və ya dolayı müdaxilələri, eləcə də təhlükəsizlik sahəsində dərinləşən qeyri-müəyyənlik bir sualı getdikcə daha kəskin şəkildə gündəmə gətirir: dövlətləri real təhlükələrdən nə qoruyur - hüquq, yoxsa güc? Məhz bu sual ətrafında formalaşan müzakirələr Avropa üçün xüsusi əhəmiyyət daşıyır və ekspertlərin fikrincə, artıq illüziyalardan imtina etməyin vaxtıdır.

AZƏRTAC-ın məlumatına görə, ekspertlər hesab edir ki, beynəlxalq hüquq anlayışı mövcuddur və normativ çərçivə kimi əhəmiyyətlidir, lakin onun avtomatik qoruyucu mexanizm kimi işlədiyinə dair gözləntilər əsassızdır. Tarix göstərir ki, beynəlxalq hüquq yalnız onu tanıyan və ona əməl etməyə hazır olan aktorlar arasında nisbətən effektiv ola bilir. Əgər güclü dövlətlər müəyyən hallarda bu qaydalara əməl etməməyi seçirlərsə, hüququn öz-özlüyündə heç kimi qorumaq gücü yoxdur. Bu reallıq xüsusilə son onilliklərdə daha aydın görünməyə başlayıb.

### Avropanın çətinə düşən hərbi xərclər məsələsi

Avropa uzun müddət təhlükəsizliyin təmin edilməsində əsasən kollektiv mexanizmlərə və normativ dəyərlərə güvənib. NATO çərçivəsində kollektiv müdafiə prinsipi, Avropa İttifaqının siyasi və iqtisadi inteqrasiyası, eləcə də beynəlxalq təşkilatların rolu bu yanaşmanın əsas sütunları olub. Lakin yalnız müdafiəyə yönəlmiş investisiyalar kifayət etmir. Təhlükəsizliyin real təminatı üçün çəkindirmə qabiliyyəti lazımdır və bu, təkcə müdafiə deyil, həm də hücum potensialının mövcudluğu deməkdir. Bu baxımdan hərbi xərclər məsələsi Avropada ən mübahisəli mövzulardan biri olaraq qalır. NATO-nun tövsiyə etdiyi ÜDM-in ən azı 2 faizinin müdafiəyə ayrılması uzun müddət bir çox Avropa ölkəsi üçün siyasi cəhətdən çətin qəbul edilən hədəf idi. Ekspertlərin müşahidələrinə görə, hələ bir neçə il əvvəl bu göstərici bir çox paytaxtda real olmayan tələb kimi dəyərləndirilirdi. Lakin təhlükəsizlik mühitinin pisləşməsi fonunda bu yanaşma dəyişməyə başlayıb. İndi isə artıq 2 faizin belə kifayət etməyəcəyi, bəzi hallarda 3-4 faiz səviyyəsində xərclərin zəruri ola biləcəyi barədə fikirlər səslənir.

Xüsusilə hava hücumundan müdafiə sahəsində Avropanın ciddi boşluqları olduğu etiraf edilir. Bu problem təkcə ayrı-ayrı dövlətlərə deyil, bütövlükdə qitənin təhlükəsizlik arxitekturasına aiddir. Əgər bu sahədə indidən ciddi addımlar atılmasa, bir neçə ildən sonra Avropanın özünü müdafiə etmək imkanları daha da zəifləyə bilər.

### Beynəlxalq hüquq təhlükəsizlik siyasətini əvəz edə bilir?

Qərb dünyasında tez-tez belə bir ümid mövcuddur ki, beynəlxalq konvensiyalar və institutlar dövlətləri təhlükələrdən qoruyacaq, onlara yüksək sosial rifah şəraitində, minimum hərbi xərclərlə yaşamaq imkanı verəcək. Ekspertlər bu yanaşmanı təhlükəli illüziya adlandırırlar. Onların fikrincə, beynəlxalq hüquq təhlükəsizlik siyasətini əvəz edə bilməz, yalnız onu tamamlayan vasitə ola bilər.

Bu arqument xüsusilə böyük güclərin davranışları fonunda aktuallaşır. Beynəlxalq hüquqa istinad çox vaxt selektiv xarakter daşıyır: dövlətlər öz maraqlarına uyğun gələndə qaydaları müdafiə edir, maraqlarına toxunanda isə onları kənara qoyurlar. Bu isə "qanunun aliliyi" ilə yanaşı, "gücün aliliyi" prinsipinin də beynəlxalq sistemdə hələ də mühüm rol oynadığını göstərir. Bu reallığı qəbul etmədən effektiv təhlükəsizlik strategiyası qurmaq mümkün deyil.

Qərb dünyasının daxili birliyi məsələsi də analitik baxışın əsas xəttini təşkil edir. Son illərdə ABŞ və Avropa ölkələri arasında yaranan gərginliklər, müxtəlif geosiyasi məsələlərə fərqli yanaşmalar trans-Atlantik əlaqələrin gələcəyi ilə bağlı suallar doğurur. Ekspertlər xəbərdarlıq edirlər ki, Qərb daxilində dərin parçalanma yalnız Avropanı deyil, ABŞ-nin özünü də zəiflədə bilər. Çünki müasir dünyada ABŞ artıq əvvəlki kimi təkbaşına hegemon mövqedə deyil.

İqtisadi və siyasi baxımdan Çin kimi yeni güc mərkəzləri meydana çıxıb və qlobal rəqabət daha mürəkkəb xarakter alıb. Avropanın nisbi iqtisadi və hərbi çəkisi son onilliklərdə azalıb. Bu şəraitdə Avropanın zəif və parçalanmış olması ABŞ üçün də strateji yükə çevrilə bilər. Əgər ABŞ bu yeni reallıqda Avropasız, xaotik bir Qərb mühiti ilə üz-üzə qalarsa, digər böyük oyunçular qarşısında mövqelərini qorumaq daha çətin olacaq.

Nəticə etibarilə, analitik qiymətləndirmələr göstərir ki, beynəlxalq hüquq, dəyərlər və institutlar mühüm əhəmiyyət daşısa da, onlar güclü və inandırıcı təhlükəsizlik siyasəti ilə dəstəklənmədikdə təsirsiz qalır. Avropa üçün əsas çağırış real təhlükələri düzgün qiymətləndirmək, qısamüddətli rahatlıq naminə uzunmüddətli təhlükəsizliyi risk altına atmamaqdır.

# *Türk ekspert:* "Bir millət, iki dövlət" konsepsiyası iqtisadi strategiyalarla birləşərək regional əməkdaşlıq üçün vacib model yaradıb

"Bu gün şahidi olduğumuz proses göstərir ki, Ankara və Bakı enerji nəqli ilə bağlı qərar qəbuletmə mərkəzinə çevrilib, onu birgə idarə edir, qiymətləri müəyyənləşdirir. Transformasiyanın ən konkret təzahürü ondan ibarətdir ki, Bakı-Tbilisi-Ceyhan və TANAP ilə başlayan fosil yanacaqlara yönəlmiş əməkdaşlıq yaşıl elektronlar və "sıfır karbon" vizyonu ilə nəticələndi".



Bunu AZƏRTAC-a açıqlamasında türk ekspert Ahmet Ziya Gökalp deyib.

Onun sözlərinə görə, Türkiyə və Azərbaycanın Naxçıvan üzərindən inşa edəcəyi "yaşıl enerji" dəhliz Zəngəzur dəhlizinin geosiyasi müstəvidə nəqliyyat xəttindən kənara çıxan və enerji ötürülməsini cəmləşdirən strateji "elektrik magistralı" kimi nəzərdə tutulur.

"Naxçıvanın malik olduğu günəş və külək enerjisinin yüksək potensialının regionda bərpaolunan enerji mənbələri ilə birlikdə Türkiyənin enerji sisteminə, oradan da Avropaya daxil olması Ankara və Bakını Avropa İttifaqının "yaşıl razılıq" məqsədlərinə nail olmaqda ən etibarlı iki əsas tərəfdaşa çevirib. Burada kritik məqam Türkiyə və Azərbaycanın bu axınları qarşılıqlı əlaqə sistemlərinə inteqrasiya etməklə Bolqarıstan vasitəsilə Avropaya nəql etmək qabiliyyətidir. Bolqarıstandan Avropaya keçən mövcud və planlaşdırılan enerji əlaqələri Türkiyə və Azərbaycanın Avropa enerji bazarlarındakı mövqelərini birtərəfli asılılıq münasibətlərindən qarşılıqlı maraq və öhdəliklərə əsaslanan tərəfdaşlıq modelinə çevirir. Avropa Rusiya ilə yaşadığı enerji böhranından sonra bu mənbələri təmin edə biləcək etibarlı və strateji cəhətdən dərin tərəfdaşlar tapmaq ehtiyacı ilə birlikdə yeni mənbələr tapmaq problemini həll edir. Xüsusilə hidrogen enerjisi kimi gələcək texnologiyalarda Türkiyə və Azərbaycanın mövcud infrastrukturunun "yaşıl hidrogen"ə çevrilmə potensialı koridorun həm cari enerji balanslarında, həm də uzunmüddətli transformasiya perspektivində strateji əhəmiyyətini artırır. Digər tərəfdən bu layihənin Naxçıvan seqmenti türk dünyasının inteqrasiyası üçün simvolik əhəmiyyətini aşaraq iqtisadi reallığa çevrilir. Naxçıvan üzərindən çəkilən yüksəkgərginlikli xətlər Mərkəzi Asiyadakı Türkmənistan və Qazaxıstan kimi digər türk dövlətlərinin gələcəkdə bu "yaşıl şəbəkə"yə qoşulması üçün uzaqgörən model yaradır", - deyə ekspert vurğulayıb.

Nəticə olaraq, Ahmet Ziya Gökalp Türkiyə və Azərbaycan tərəfindən inkişaf etdirilən "yaşıl enerji" şəbəkəsinin "bir millət, iki dövlət" konsepsiyasını qlobal enerji və iqtisadi strategiyalarla birləşdirərək regional əməkdaşlıq üçün vacib bir model yaratdığını qeyd edib: "İnfrastruktur və siyasət vasitəsilə enerji axınlarını idarə etmək qabiliyyətinə malik hər iki dövlət ortaq regional enerji bazarlarında getdikcə daha effektiv rol oynayır. Bu tendensiya XXI əsrin enerji xəritəsində uzunmüddətli strateji təsir yaratmaq potensialına malikdir".

# Azərbaycan "6-cı Digital Art EXPO Megeve" tədbirində təmsil olunub



Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, "Global Oracle Association for Leaders" (GOAL) təşkilatının təsisçisi və prezidenti Leyla Bağırzadə və "Digital Art Expo"nun əməkdaşlığı ilə Azərbaycan "6-cı Digital Art EXPO Megeve" tədbirində təmsil olunub.

AZƏRTAC xəbər verir ki, "Palais de Megeve" auditoriyasında keçirilmiş tədbirdə rəqəmsal incəsənətin müasir inkişaf istiqamətləri, yaradıcı innovasiyaları, eləcə də texnologiya ilə incəsənətin kəsişməsində formalaşan yeni ifadə vasitələri beynəlxalq auditoriyaya təqdim edilib.

Tədbirdə Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva, səfirliyin, habelə Diasporla İş üzrə Dövlət Komitəsinin nümayəndələri iştirak ediblər. Bu layihədə iştirakımız Azərbaycanın yaradıcı sənaye potensialının beynəlxalq platformada tanıdılması, mədəni diplomatiyanın gücləndirilməsi və azərbaycanlı yaradıcı istedadların qlobal şəbəkələrə inteqrasiyası baxımından xüsusi əhəmiyyət kəsb edir.

Tədbir çərçivəsində sərgilər təşkil olunub, yaradıcı icmalar arasında peşəkar mübadilə və dialoq təşviq edilib. Rəqəmsal incəsənətin mədəniyyət, innovasiya və yaradıcı sənayelər ekosistemində rolu üzrə fikir mübadiləsi üçün əlverişli platforma formalaşıb. Bu əməkdaşlıq, eyni zamanda müxtəlif ölkələrdən sənətçilərin və tərəfdaşların bir araya gətirilməsi vasitəsilə mədəniyyətlərarası əlaqələrin gücləndirilməsinə xidmət edib.

Layihənin icrasında peşəkar koordinasiya və mentor dəstəyi də təmin edilib. Layihənin koordinatoru (art-menecer) Agnessa Tariverdiyeva, "Atesh Hub"ın mentoru qismində isə Səbinə Şıxlinskaya çıxış ediblər.

Emin Mathersin tədbirdə nümayiş olunan rəqəmsal işləri müasir vizual dilin estetikası ilə texnoloji düşüncəni birləşdirərək, tamaşaçını yeni qavrayış müstəvilərinə yönəldib. Onun əsərlərində dinamika, kompozisiya intizamı və rəng həlləri vasitəsilə rəqəmsal mühitin emosional və konseptual imkanları ön plana çıxır. Bu yanaşma müasir rəqəmsal incəsənətin beynəlxalq auditoriya ilə ünsiyyətini gücləndirən təsirli vizual dil formalaşdırır.

Ramil Məmmədlinin SF (Signal Fragment) işi şüurun neyroelm, sistem nəzəriyyəsi və informasiya prosesləri prizmasından araşdırılmasına əsaslanan konseptual yanaşmanı təqdim edib. Hər bir işin mərkəzində ruh kimi qavranılan dairə dayanır. Ruh burada sistemin nüvəsi kimi çıxış edir: siqnalı qəbul edir, dəyişdirir və ötürür, yüklənmə şəraitində belə formasını qoruyur.

Dairəni əhatə edən fraqmentlər və vizual "səs-küy" yaddaşı, məlumat axınlarını və xarici təsirləri əks etdirir. Bu konsepsiyada məna formanın özündə deyil, elementlərin qarşılıqlı əlaqəsində yaranır. SF siqnalın təmizliyini itirdiyi və sistemin ruhun özünə təsir göstərməyə başladığı anları qeydə alır, bu hal "səhv" kimi deyil, mürəkkəb sistemlərin təbii vəziyyəti kimi təqdim olunur.

Nərgiz Ramizqızının işləri zərif vizual poetika ilə müasir rəqəmsal texnikaların harmoniyasını nümayiş etdirib. Əsərlərində duyğu, yaddaş və identiklik mövzuları çağdaş ifadə vasitələri ilə işlənərək tamaşaçı ilə incə, lakin dərin emosional əlaqə yaradır. Bu yanaşma rəqəmsal incəsənətin yalnız texniki deyil, həm də humanitar-estetik ölçülərini ön plana çıxarır.

Tədbir çərçivəsində beynəlxalq yaradıcı mühitin təmsilçiləri ilə tanışlıq da təmin olunub.

"VI Digital Art EXPO Megeve" çərçivəsində "GOAL" və "Digital Art Expo" arasında qurulan əməkdaşlıq, Azərbaycanın rəqəmsal incəsənət sahəsində yaradıcı potensialının beynəlxalq platformada təqdim olunmasına, mədəni diplomatiyanın möhkəmlənməsinə və yeni tərəfdaşlıqlar üçün dayanıqlı dialoq mühitinin formalaşmasına töhfə verib. "GOAL" bu istiqamətdə beynəlxalq tərəfdaşlarla birgə, yaradıcı sənayelərin inkişafını, istedadların üzə çıxmasını və innovasiyaəsaslı mədəni əməkdaşlıq modellərini dəstəkləməkdə davam edəcəkdir.

# " Çuxurlu məscidi erməni vəhşiliyini sübut edən mühüm faktdır"

"Şuşa şəhərində erməni vandalizminə məruz qalmış maddi mədəniyyət abidələrindən biri də Çuxurlu məhəllə məscididir. Məscid XVIII əsrin sonlarında inşa edilib, XIX əsrin ikinci yarısında isə yenidən təmir olunub. Çuxurlu məscidi daş kitabəsi olan abidələrdən biridir. Böyük əhəmiyyətə malik bu tarixi abidə işğal dövründə düşmən vəhşiliyi nəticəsində dağıdılıb, yalnız bəzi qalıqları dövrümüzə gəlib çatıb".



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Şərqşünaslıq İnstitutunun Din və ictimai fikir şöbəsinin müdiri dosent Elnur Mustafayev söyləyib. "Çuxurlu məhəllə məscidinin daş kitabəsi vandalizmə məruz qalsa da, xoşbəxtlikdən öz mövcudluğunu qoruyub saxlayıb. Məscidin əsas fasadında yerləşən həmin kitabəni oxuduqdan sonra məlum oldu ki, bu epiqrafik abidə ərəb-fars dillərində nəstəliq xətti ilə həkk olunmuş informativ məlumatlardan ibarətdir.

Kitabədə məscidin inşa və təmirində iştirak etmiş iki xanımın - Mehrinisa bəyim Şirxan qızının və Tuba bəyim İbrəxan qızının adları qeyd edilib", - deyə o bildirib.

Alim qeyd edib ki, tarixi qaynaqlarda bu məscid iki adla - "Çuxurlu" və ya "Qadınlar" məscidi adları ilə xatırlanır: "Birinci ad yerləşdiyi məhəllənin adına görə, ikinci ad isə məscidin inşa və təmirində qadınların iştirakına görədir. Abidənin hazırkı vəziyyəti erməni vəhşiliyini sübut etmək üçün mühüm faktlardan biridir. Dini abidənin bu hala salınması düşmənin vəhşiliyindən xəbər verir".

E.Mustafayev hesab edir ki, bu cür faktların toplanıb xarici dillərdə beynəlxalq ictimaiyyətə çatdırılması informasiya müharibəsi çərçivəsində mühüm əhəmiyyət kəsb edir.

# Xəstə təfəkkürlü erməni kilsəsi

Ermənistanda son illərdə müşahidə olunan siyasi və ideoloji qarşıdurmaların mərkəzində sadəcə hökümət-müxalifət münasibətləri deyil, həmçinin Erməni Apostol Kilsəsinin oynadığı destruktiv rol dayanır. Kilsə faktiki olaraq Ermənistan cəmiyyətində revanşist ideologiyanın əsas daşıyıcısıdır.

Xəstə erməni siyasi təfəkkürünü körükləyən kilsə cəmiyyətin davamlı böhranlar və məhrumiyyətlər içində saxlanılmasına xidmət edir. Lakin kilsə onu da anlayır ki, regional reallıqlar artıq dəyişib və bu prosesin geridönüşü yoxdur. Qarabağ beynəlxalq hüquqa uyğun olaraq Azərbaycan Respublikasının suveren ərazisidir. Azərbaycan dövləti Qarabağı azad etməklə sadəcə Ermənistanı yox, "dünya erməniliyi"nin ideoloji mərkəzi rolunda çıxış edən erməni kilsəsini də məğlubiyyətə uğradıb. Məhz bu səbəbdən kilsə son dövrlər mövcudluğunu qorumaq üçün radikal və siyasi xarakterli açıqlamalara üstünlük verir.

Baş nazir Nikol Paşinyanın kilsəyə münasibəti isə mifik erməni düşüncəsindən imtina edərək real Ermənistan dövləti qurmaq təşəbbüsünə əsaslanır. Bu isə regionda inkişafın və təhlükəsizliyin lokomotivi olan Azərbaycanla münasibətlərin normallaşdırılmasını ön plana çıxarır. Bu mövqeyə kəskin



şəkildə qarşı çıxanlar isə erməni kilsəsi və onunla eyni mövqedə dayanan revanşist müxalifətdir.

Nikol Paşinyanın həyat yoldaşı Anna Akopyanın son açıqlaması Ermənistan daxilində kilsə-dövlət münasibətlərinin artıq açıq qarşıdurma mərhələsinə keçdiyini göstərir. A.Akopyan qeyd edir ki, 2018-ci ildə ermənilər azadlıq və vətəndaş hüquqları uğrunda mübarizə aparıblar, onlar layiqsiz insanların "dünyəvi mənliyi" alçaltmasına imkan verməyiblər. Onun fikrincə, bu gün eyni qətiyyət mənəvi sahədə də nümayiş etdirilməlidir.

A.Akopyanın açıqlamasında II Qareginin "bütün ermənilərin katolikosu" titulunu faktiki olaraq geridönməz şəkildə itirdiyi qeyd olunur. Kilsə rəhbərliyinin müharibə, məğlubiyyət və sosial travmalar fonunda cəmiyyətin yanında dayanmaq əvəzinə siyasi manipulyasiya alətinə çevrilməsi Ermənistanda ona qarşı etimadsızlığı daha da artırıb.

Ermənistan mediasında A.Akopyanın açıqlaması cəmiyyət qarşısında hesabat verməyən Erməni Apostol Kilsəsinin rəhbərliyinə yönəlmiş ittiham aktı kimi də qiymətləndirilir. Ermənistanda hökumətə yaxın olan siyasi ekspertlərin fikrincə, II Qaregin kilsəni mənəvi rəhbərlik mərkəzindən çıxararaq siyasi intriqa, köhnə elita maraqları və status-kvonu qoruyan mexanizmə çevirib. Kilsə dua etməli olduğu yerdə susub və susmalı olduğu yerdə isə siyasətə müdaxilə edib və kilsə rəhbərliyi illərdir "mənəviyyat" anlayışını monopoliyaya alaraq toxunulmazlıq statusu qazanmağa çalışıb.

Erməni kilsəsinin nümayəndəsi Vrtanes Baqalyanın baş nazir Nikol Paşinyana qarşı səsləndirdiyi ittihamlar da Ermənistanda hökumət-kilsə böhranının təzahürüdür. Onun ritorikası kilsənin özünü dini deyil, siyasi və ideoloji aktor kimi təqdim etdiyini açıq şəkildə göstərir. Paşinyanın "xuliqanlıq", "anarxiya" və "kilsəni dağıtmaq" ittihamları ilə hədəfə alınması göstərir ki, Ermənistanda hökümət-kilsə qarşıdurması daha da dərinləşəcək.

Əgər Ermənistan həqiqətən real və inkişafyönümlü gələcək qurmaq istəyirsə, kilsə siyasi proseslərə müdaxilədən əl çəkməli, beynəlxalq hüququ və regional reallıqları qəbul etməlidir. Əks halda bu cür ritorika Ermənistanda daxili parçalanmanı daha da dərinləşdirərək erməniləri daha ağır böhranlara sürükləyəcək.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*




● I Türkoloji Qurultay - 100

**Repressiyaya uğrayan, həbslərdə olan insanların böyük əksəriyyəti 1926-cı ildə keçirilən I Bakı Türkoloji Qurultayın nümayəndələri idi. Əsl siyasi hadisə olan bu möhtəşəm tədbir mühüm tarixi dövrdə keçirilirdi. 100-dən artıq nümayəndəsinin - seçmə alim və mütəfəkkirlərin həbsi və fiziki məhvi ilə bitən bu elmi toplantı yaxın tarixin ən böyük ziyalı-alim soyqırımı idi.**



# Əlifba mücahidi

Bu insanlar türk xalqlarının elmi-mədəni birliyinə, ortaq milli-mənəvi dəyərlərinin yaşadılmasına misilsiz töhfələr vermiş, dilçilik, latın qrafikasına keçid, terminologiya, orfoqrafiya, tarix, ədəbiyyat, folklor, incəsənət, etnoqrafiya, metodika sahələrində problemlərin həllinə və inkişaf yollarına işıq salan baxışlar sisteminin əməli-nəzəri prinsiplərini işləyib hazırlamışdılar, genişmiqyaslı yaradıcılıq fəaliyyəti göstərmişdilər. Bu gün bütün türk xalqları dillərinin əsrlər boyu işlək olması yönümündə apardığı islahatlarda həmin alimlərin miras qoyduğu ənənələrə, fundamental elmi əsərlərinə istinad edirlər. Buna görə də həmin şəxsiyyətlərin gördüyü işlər əvəzsizdir.

Belə şəxsiyyətlərdən biri də XX əsr Azərbaycan dilçiliyinin görkəmli simalarından olan Xalid Səid Xocayevdir. Bu insanın özü, ədəbi-elmi fəaliyyəti, irsi böyük dilçi alimlər, ədəbiyyatşünaslar tərəfindən yüksək qiymətləndirilmişdir. X.S.Xocayevin əsərlərinin əsas qayəsini yeni əlifba yolundakı böyük mədəni və inqilabi hərəkat, bu hərəkatın ilk dövrünün bir sıra çətinlikləri təşkil edir. Əlifba məsələsinin XIX əsrin ortalarından başlayaraq uzun zaman kəsiyini əhatə etməsi və XX əsrin əvvəllərində isə genişlənərək mədəni hərəkat səviyyəsinə qalxması, əslində, müsbət hadisə idı. Lakin bu hərəkatın ən fəal üzvlərinin taleyi sonradan faciə ilə bitmişdi.

Xalid Səid 1888-ci ildə Özbəkistanda dünyaya gəlmişdir. İlk təhsilini mədrəsədə almış, daha sonra isə İstanbul Universitetində oxumuşdur. Universiteti bitirib vətəninə qayıtsa da, sonrakı taleyi onu həmişəlik Azərbaycana bağlamışdır. SSRİ EA-nın Azərbaycan filialında elmi fəaliyyətlə məşğul olmuş alimin irsini araşdıranlar yazırlar ki, Xalid Səid Xocayev dilçiliyimizin üslub, müqayisəli qrammatika və dil tarixi kimi sahələrinin hər birinə aid ilk dərsliklərin müəlliflərindən biri idi. Onun elm aləminə 14 əsəri məlumdur. O, təkcə türk dillərini deyil, ərəb, fars, rus dillərini də mükəmməl bilirdi. X.Xocayev ixtisaslı linqvist şərqşünaslardan biri idi. Dünya türkologiyası tarixində Mahmud Kaşğarinin "Divani lüğət-it türk" əsəri ilk dəfə Xalid Səid tərəfindən dilimizə tərcümə edilmişdir. Bundan başqa, görkəmli alim "Osmanlı, özbək, qazax dillərinin müqayisəli sərfi", "Müxtəsər üslubiyyat", "Türk məktəbi üçün rus dili", "Müfəssəl sintaksis", "Türk dilinin tarixi qrammatikası", "Cığatay ədəbiyyatı haqqında mühazirələr", "Türk ədəbiyyatı nəzəriyyəsi", "Türküstan tarixinin qısa icmalı", "Orxon kitabələrinin izahlı tədqiqi" və s. əsərlərin müəllifi olmuşdur.

Məlumatlara görə, Xalid Səid Xocayevin "Üslubiyyat nəzəriyyəsi", "Sintaksis", "Türk dillərinin tarixi qrammatikası" adlı kitabları da olub, ancaq bu əsərlər yoxa çıxıb. Onun 14 çap vərəqi həcmində "Sintaksis" adlı əsərinin redaktoru Bəkir Çobanzadə olmuşdur. Bu əsər redaktə olunub mətbəəyə verildikdən sonra çap edilməmiş, daha doğrusu, itirilmişdir. Xalid Səidin 1936-cı ilin ortalarında çapa hazır olan 14 çap vərəqi həcmində olan "Üslubiyyat nəzəriyyəsi", 12 çap vərəqi həcmində olan "Türk dillərinin tarixi qrammatikası" adlı əsərləri də tapılmayıb. Tədqiqatçılar yazırlar ki, Xalid Səidin "Divan"dan başqa 11 böyük elmi əsəri oğurlanıb. "Orxon kitabələrinin izahlı tədqiqi", "Türk dilinin tarixi qrammatikası", "Cığatay ədəbiyyatı haqqında mühazirələr", "Türküstan tarixinin qısa icmalı", "Müfəssəl sintaksis" və s. əsərləri itirilib.

Xalid Səidin ilk dəfə dilimizə tərcümə etdiyi Mahmud Kaşğarinin "Divani lüğət-it türk" əsəri eimi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilmişdir. Türkoloq alimə görə, kitab türk sözləri lüğəti adlansa da, onun məzmunu adının ifadə etdiyi anlayışdan daha geniş mənaları ehtiva edir və təkcə sözlərin izahı ilə kifayətlənmir, həm də türk etnoqrafiyası, morfologiya, türk dilləri arasındakı fərqlər, o dövrdə mövcud olan başqa dillər və s. barədə aydın təsəvvür yaradır.

Tədqiqatçılar yazırlar ki, tərcümə işinə 1935-ci ildə başlayan Xalid Səid Kaşğarinin "Divan"ını 1939-1941-ci illərdə Türkiyə türkcəsinə tərcümə edən Besim Atalayı da qabaqlayıb. Bunu 1939-cu ildə "Divan"ın Türkiyə nəşrinə yazdığı ön sözdə Atalay özü də etiraf etmişdi. Ziya Bünyadov lüğətin tərcüməsi barədə bunları demişdir: "Xalid Səidin ən böyük əsəri Mahmud Kaşğarinin məşhur lüğətinin tərcüməsi idi. Təəssüf ki, Xocayevin minnətdar şagirdləri öz müəllimlərinin əsərini elə adamlara aid edirlər ki, onlar 30-cu illərdə Mahmud Kaşğarinin varlığı barədə belə heç nə bilmirdilər. Bu zaman Xalid Səidi xoş sözlə xatırlamağı belə ona çox görürdülər".

Xalid Səid Xocayev dövrün görkəmli dilçi alimi kimi I Türkoloji Qurultayın təşkilat işlərində əvəzsiz xidmətlər göstərmişdir. O, Yeni Əlifba Komitəsinin yaratdığı xüsusi komissiyanın tərkibindəki dörd nəfərdən (S.Ağamalıoğlu, C.Məmmədquluzadə, V.Xuluflu, X.S.Xocayev) biri olmuşdur. X. Xocayev 1924-cü il sentyabr ayının 7-dən oktyabr ayının 10-dək Krım-Türküstan ellərində səfərdə iştirak etmişdir. Səfər təəssüratlarından bəhs edən "Yeni əlifba yollarında əski xatirə və duyğularım" (1929) adlı əsərini yazmışdır. Bu kitab bütövlükdə Yeni Əlifba Komitəsinin fəaliyyətinin ən əhəmiyyətli məqamlarını özündə əks etdirir. Əslində, bu kitabın məzmunu bir daha təsdiq edir ki, Xalid Səid Xocayevin duyğu və düşüncələrinə ovaxtkı rejim heç zaman biganə qala bilməzdi.

Xalid Səid Xocayev Yeni Əlifba Komitəsinin uğurlu fəaliyyətini təqdir edərək yazırdı ki, onların bu səyahətləri Birinci Türkoloji Qurultayın çağırılmasına səbəb olmuşdu: "Bu qurultay Şərq aləmindəki mədəni inqilabın ən mühümü olan əlifba inqilabının rəsmi surətdə təməl və əsasını qoymuş olduğu kimi əsrlərcə ərəb əlifbasının muşkulatı altında əzilən xalqlar ilə əlifbadan məhrum olan bir çox ibtidai halda yaşayan xalqlar üçün elmi, fənni əsaslar üzərinə qurulan bir əlifba verdi".

Təbii ki, I Türkoloji Qurultayın çağırılmasına səbəb olduğunu yazan bir türkoloq repressiyadan yayına bilməzdi. O, siyasi rejimin diqqət mərkəzində olan şəxslərdən birinə çevrilmişdi. O dövrdə bolşevik dövlətinin qurduğu tələni bilməyən türkoloqlar, fədakar ziyalılar I Bakı Türkoloji Qurultayının keçirilməsi təşəbbüsünə müsbət hal kimi yanaşırdılar. Bu pusqudan tam xəbərsiz ziyalılar elə ilk gündən məqsədlərini ortaya qoydular. Bir-birlərinin elmindən, ədəbiyyatından, yazı-pozusundan xəbər tutmaq üçün ortaq əlifba, ortaq dil məsələsinin həlli yollarını düşünərək onları həyata keçirmək konsepsiyasının hazırlığına başladılar. Tədqiqatlardan məlum olduğu kimi, bu işin bütün ağırlığı Səmədağa Ağamalıoğlu, Xalid Səid Xocayev və Bəkir Çobanzadə kimi ziyalıların çiyinlərinə düşmüşdü. Ortaq türk dili və əlifbası uğrunda ön cəbhədə dayanan məhz bu ziyalılar olmuşlar.

I Türkoloji Qurultay günlərində Xalid Səid Xocayevin evində olan qonaqlıq da, burada türkoloqların olması da ovaxtkı siyasi rejimin diqqətindən kənarda qalmamışdı. Alimin qızı Bəhicə xanım müsahibəsində deyirdi: "Azərbaycanın ilk qadın rejissoru Qəmər Salamzadə - rəssam Salam Salamzadənin yoldaşı mənim xalamın qaynı Əliqulu Qəmküsarın qızıydı. O, 1926-cı ildə keçirilən Türkoloji qurultayı yaxşı xatırlayırdı. Deyirdi ki, Türkoloji qurultay günlərində bizim evdə ziyafət olub. Evimiz çox böyük idi. Fuad Köprülü, Əli bəy Hüseynzadə, Hüseyn Cavid... həmin ziyafətdə iştirak ediblər" ("Ədəbiyyat" qəzeti, 14 noyabr 2008-ci il). Bəhicə xanım atasının həbs olunacağının gözlənildiyini də bilirdi. "Bir dəfə onu "Kommunist" qəzetinin redaksiyasına çağırıb nəsə demişdilər, onunla söhbət etmişdilər. Bundan sonra atam tam əmin olmuşdu ki, o da həbs ediləcək. Necə bilməzdi bunu? Türkiyədə təhsil alıb gəlmişdi. Türkoloq idi. Hələ üstəlik institutda hər gecə bir-iki nəfəri tuturdular. Ümumiyyətlə, həmin institutda dərin bilikli adamların hamısını sanki süpürdülər. Unutmadığım bir məqam da var. Həbs olunduğu ərəfədə məni çağırıb divanda öz yanında əyləşdirdi və bilmirəm nə üçünsə öz tərcümeyi-halını mənə ətraflı danışdı. Mən isə bunun fərqinə o qədər də varmadım. Kaş onun danışdıqlarının hamısını yadımda saxlayaydım", - Bəhicə xanım söyləyirdi.

Görkəmli alim 1937-ci il iyunun 3-də həbs edilir. Onun istintaqı 3 ay davam edir. 1937-ci il iyunun 5-də birinci istintaqda Xaliq Səidə bildirilir ki, o, tələbələr arasında əksinqilabi-millətçi təbliğat aparmışdır, eyni zamanda pantürkist təşkilatın üzvüdür. Xalid Səid ittihamları rədd edir. Həmin gün SSRİ EA-nın Azərbaycan filialının tarix, dil və ədəbiyyat institutu müdiriyyətinin əmri ilə X.Xocayev işdən xaric olunur.

İkinci istintaqda 1937-ci il iyunun 21-də müttəhimə "üç nömrəli variant" tətbiq edildikdən sonra X.S.Xocayev "peşəkar pantürkist" kimi cavab verir. Axırıncı dəfə 1937-ci il sentyabrın 4-də dindirilir və müstəntiq onun işi üzrə istintaqın başa çatması haqqında protokol tərtib edir. Beləliklə, Xalid Səid Xocayevə pantürkist damğası ilə hökm oxunur və o, "türkoloji düşüncənin inkişafındakı fəaliyyətinə son qoymaq üçün" güllələnməyə məhkum edilir: "Müttəhim Xocayev 1925-ci ildən Ümumittifaq antisovet, pantürkist, təxribatçı-terrorçu və casus təşkilatının üzvüdür. Onların məqsədi Sovet hakimiyyətini devirmək, milli respublikaları SSRİ-dən ayırmaq və vahid türk-tatar burjua dövlətini yaratmaqdır. Xocayev müntəzəm olaraq əksinqilabi millətçi təbliğat aparmış, əksinqilabi pantürkist təşkilata yeni-yeni üzvlər cəlb etmiş və 1924-cü ildən 1937-ci ilədək bir xarici dövlətin casusu olmuşdur. Yuxarıda deyilənlərə əsasən və Azərbaycan SSR CPM-nin 316 və 317-ci maddələrinə müvafiq SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyası Xalid Səid Xocayevi ən ağır cəzaya - güllələnməyə məhkum edir". (Ziya Bünyadov. "Qırmızı terror", Azərnəşr, 1993).

İşə 13 oktyabr 1937-ci il tarixli bir arayış tikilmişdir. Arayışda göstərilirdi ki, Xalid Səid Xocayevin güllələnmə hökmü Bakıda icra edilmişdir. Görkəmli alimin həyat yoldaşı Sara Rza qızı Xocayeva da repressiyadan kənarda qalmamışdır. O, 1937-ci il oktyabrın 13-dən 1941-ci ilin may ayınadək Akmola həbs düşərgəsində sürgündə olmuşdur.

Sular durulduqdan sonra - 1954-cü ilin dekabrında Sara xanım ərinin işi və onun taleyi haqqında məlumat almaq üçün SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasına müraciət etmişdir. Hərbi Kollegiyanın 16 may 1957-ci il qərarı ilə Xalid Səid Xocayev barədə 1937-ci il oktyabrın 12-də çıxarılan hökm ləğv olunmuşdur.

***İradə ƏLİYEVA,
"Azərbaycan"***

● Tarixin izi ilə

# Atasını çar, özünü isə sovet hökuməti güllələdi

**Şəmkir rayonunun Qapanlı kəndindən tanınmış mülkədar Adıgözəl kişi çar üsul-idarəsinə qarşı açıq-aşkar mübarizə apardığı üçün Yelizavetpol (Gəncə) quberniyası jandarm idarəsi tərəfindən Sibirə sürgün ediləndə böyük oğlu Cabbarın 11 yaşı var idi.**

Cabbar məcbur olub təhsilini yarımçıq qoyaraq kiçik bacıları - Gülnaz, Gülgəz, Fizzə, Gülxar, Savad, Həyat və qardaşı Hüseynə "böyüklük" etmiş, qoyun-quzu otarıb əkin-biçin işləri ilə məşğul olmuşdu. 20 yaşına çatanda həm qoyun-quzunun sayını artırmış, həm də atasından qalma əkin sahəsini xeyli genişləndirmişdi. Daha sonra ailənin və yaxınlarının köməyi ilə kəndin yaxınlığındakı qaratikan kolkosundan ibarət böyük bir sahəni yararlı hala salıb pambıq əkmişdi. Pambığı Şəmkir stansiyasındakı tədarük məntəqəsinə qızıl pula satırmış. Ata yurdunda yaxşı mülk tikdirib, Qaracəmirli kəndindən olan Züleyxa ilə ailə qurmuşdu.

Cabbar kişini Başkəndin, Basarkeçərin (sovet dönəmində ermənilər bu mahalın adını Vardenis adlandırmışlar), Gədəbəyin kəndlərinin əhalisi də yaxşı tanıyırdı. Qış bu mahala sərt gələndə Göyçədəki tanışlarına araba-araba taxıl, buğda, imkansızlara mal-qarasını qışdan çıxarmaq üçün yem göndərərdi. Bəzən də ermənilərin azərbaycanlılara qarşı etdikləri haqsızlıqların qarşısını alardı.

...1912-ci il yazın ilk günlərindən biri idi. Basarkeçərdən gələn atlı özünü hövlnak Şamxor stansiyasındakı bazara çatdıraraq Qapanlı camaatından bərk-bərk təvəqqe etdi ki, Cabbar əmiyə deyin, ermənilər bizim kəndi çapıb-taladılar.

Xəbər Cabbar əmiyə çatan kimi o, Qapanlı cavanlarından bir neçəsi ilə silahlanıb, səhərin alatoranında yola çıxdı. Saratovkaya çathaçatda Cabbarın gözü bir az aralıda, yol kənarında dalaşan uşaqlara sataşdı. İki uşaq üçüncünü çubuqla döyürdü.

Cabbar üzünü Kazıma tutub dedi:

- Get gör o uşağı niyə döyürlər?

Kazım uşaqlara tərəf gedəndə döyənlər hadisə yerindən uzaqlaşırlar. Üst-başını təmizləyə-təmizləyə yerdən qalxan uşaq ağlaya-ağlaya "deyirlər biznən quzu otarma. Mən də onları söyəndə başladılar məni kötəkləməyə" söyləyir.

Cabbar atdan düşüb özü uşağı yerdən qaldırdı:

- A bala, qorxma, çıx get evinizə. Söyüşü də tərgit.

Təxminən on il sonra Şamxor NKVD-sinin rəisi öz kabinetində bu əhvalatı Cabbar kişiyə xatırlatmışdı.

Azərbaycan XI ordu tərəfindən işğal olunanda ermənilərin çiçəyi çırtdamışdı. Gəncə üsyanında, eləcə də üsyandan sonrakı günlərdə bolşevik qiyafəsində gecə-gündüz azərbaycanlıları qırğına verməklə məşğul olan ermənilərin əməlləri Cabbarı da heyrətə salırdı. Cabbar kişi Cümhuriyyət dönəmindən əvvəl Azərbaycanda ilk milli siyasi təşkilatlardan olan, 1905-ci ildə Gəncədə yaradılan "Qeyrət" (sonralar Türk-Ədəmi-Mərkəziyyət partiyası adlandı) təşkilatının üzvü idi. Nəsib bəy Yusifbəyli, Gəncənin qubernatoru doktor Ələkbər bəy Rəfibəyli, tanınmışlardan Sarı Ələkbər, Tatoğlu Həsən, Gəncə Ruhani İdarəsinin rəisi Mirzə Məhəmməd Pişnamazzadə ilə yaxın dost idi. Bir sözlə, Adıgözəl oğlu Cabbar Gəncəbasarda böyük nüfuz sahibi, xeyriyyəçi kimi də ad-san qazanmışdı.

Xalq Cümhuriyyəti süquta uğradılandan sonra bolşeviklər hər yerdə olduğu kimi, Şəmkirdə də adlı-sanlı adamların mülklərinə, almanlardan qalma şərab emalı zavodlarına, Alqocanın pambıq tədarükü məntəqəsinə sahib durmuşdular.

Bu o vaxtlar idi ki, İnqilabi Hökumət üzdə olan ziyalıları, nüfuz sahiblərini "xalq düşməni" adıyla həbs etdirir, güllələtdirir, onların mülkünü, torpağını, təsərrüfatını əlindən alır, özünü, ailəsini ölüm düşərgələrinə sürgün edirdi. 1925-ci ilin payızında axşamdan xeyli keçmiş belə bir bəd xəbər Cabbar kişinin də qapısını döydü. Qara "M-1"də gələnlər Cabbarı dinməz-söyləməz maşına mindirib bir anda kənddən uzaqlaşdılar.



Cabbar gecəni Şamxor NKVD-sinin zirzəmisində keçirdi. Səhər rəisin otağında ona ilk sual belə oldu:

- Adın, familiyan?
- Cabbar Məmmədəliyev.
- Məni tanıyırsan?
- Xeyr.
- Yaxşı bax, tanış gəlmirəm?

Cabbar kişi rəisin üzünə xeyli baxıb başını buladı.

- Yadındadır, təxminən 15-16 il bundan əvvəl bir dəstə atlı ilə sən Saratovkadan keçəndə yolun qırağında bir uşağı döyürdülər, əllərindən aldın.

- O qədər elə hallarla rastlaşmışam... Hamısını yadda saxlamaq olmur ki...

- Amma mən səni görən kimi tanıdım. Adını deyən kimi tam əmin oldum ki, sən həmin adamsan... Mən bu idarənin rəisiyəm. Nəinki mənim kabinetimin, bu idarənin bütün qapıları bu gündən sənin üzünə həmişə açıqdır.

NKVD rəisinin Cabbara olan ehtiramından sonra kənddə bolşeviklər və firqəçilər arasında da Cabbar kişinin hörməti, etibarı birəbeş artdı. Kənddəki hökumət adamları ilə münasibəti yaxşılaşdıqca qaçaqlarla əlaqəni möhkəmləndirirdi. Halbuki kənddə böyükdən-kiçiyə, hamı bilirdi ki, Cabbar kişi Qaçaq Rüstəmlə, onun qardaşı Təhməzlə yaxın dostdur.

1924-cü ildə Gəncə və Şamxor NKVD-sinin silahlı dəstəsi kənddə yığıncaq keçirir. Uzun məsləhət-məşvərətdən sonra yerli adamların bələdçiliyi və köməyi ilə Ramazan oğlu Rüstəmi və Təhməzi ya öldürmək, ya da diri tutmaq qərara alınır.

Qaçaqlar bəzən həftələrlə, aylarla qeybə çəkilərdilər. Ramazan oğlu Rüstəm Kürqırağı ormanlarda, Ceyrançöldə olanda Cabbar gizlin onun görüşünə gedərdi. Bir dəfə çuğullardan biri Cabbarı bərə ilə Kürü Qaracəmirliyə tərəf keçən görür. Özünü oda-közə vuraraq öyrənir ki, Cabbar kişi bir gün əvvəl Çopur düzündə dostu Qaçaq Rüstəmlə bir yerdə olub.

Bu xəbəri Şamxor qaçaqlarının başçısı Ramazan oğlu Rüstəmin gecə-gündüz axtarışında olan NKVD əməkdaşlarına çatdırır və deyir ki, onun dəqiq yerini yalnız Adıgözəl oğlu Cabbar bilər. NKVD-çilər Qapanlıya gələndə Cabbar kişi buna nə qədər etiraz etsə də, nə qədər boynundan atsa da, mümkün olmur.

Cabbar kişini götürüb aparırlar Kürün o tayına. Cabbar kişi qaçaqların hansı yataqda olduğunu yaxşı bilirdi. Odur ki, onların olduqları yatağa az qalanda qəsdən başlayır bərkdən öskürməyə.

Öskürəyin səsinə Rüstəm oturduğu yerdən dik atılıb əl atır silaha: "Əyə, bu, Cabbar kişinin səsidir, nəyəsə işarədir!" - deyib hövlnak çölə çıxanda görür ki, Cabbar kişi bir dəstə əsgərlə yatağa çathaçatdadır.

Cabbar kişiyə xətər gəlməsin deyə, yanındakılara deyir: "Atəş açmayın, atlanın qaçaq!"

Bu qovğadan Rüstəm və Təhməz sağ-salamat çıxsalar da, əsgərlər qaçaqlardan ikisini arxadan vura bilirlər.

1928-ci ilin may ayında kolxoz quruculuğunun qızğın vaxtında Bakıdan, Azərbaycan Dövlət Siyasi İdarəsindən Astnamazov adlı nümayəndə Şəmkirə, oradan da Qapanlıya gəlir. Qaçaqlarla əlaqəsi olanları, o cümlədən qaçaqlara ərzaq-sursat daşıyan kənd sakinləri Əmiri, Əzizi və Qaranı tutub gətirirlər Astnamazovun yanına. Astnamazov hər üçünə idarə binasının qarşısında hərəsinə bir qəbir yeri qazmağı əmr edir. Sonra da əmrə əsasən, onlar qazdıqları qəbrin içinə girib üzləri camaata tərəf dayanırlar... "Tədbirə" məxsusi gətirilən Cabbarın və camaatın gözü qarşısında hər üçünü nümayişkaranə şəkildə güllələyirlər. Bu həm də bir növ Cabbar və onun sözü ilə oturub-duranlara xəbərdarlıq idi.

...1929-cu ilin yayında Bakıdan Şəmkirə qastrola bir dəstə incəsənət adamı gəlmişdi. Şəmkir stansiyasında Əzizbəyov adına üzümçülük sovxozunun klubunda "Cabbar bəy" adlı ikihissəli "səhnəcik" oynanılırdı. Qapanlı, Keçili, Bitdili, Təhnəli və Qaracəmirli kəndlərinin fəal firqəçi və komsomolçularının da dəvət olunduğu "tamaşa"da əsərin baş qəhrəmanı Adıgözəl oğlu Cabbarın qaçaqlarla əlaqəsi, Bakıdan gələn qonaqlara qızıldan çəngəl-bıçaqla dəbdəbəli yemək süfrəsi açması, onlara qızıldan altlığı olan armudu stəkanda çay verilməsi məsxərəyə qoyulurdu. Məqsəd Cabbar kişini el-oba arasında aşağılayıb nüfuzdan salmaq idi. "Tamaşa"nın ikinci hissəsində zaldakılar arasında açılan atəş səsi hər şeyi alt-üst edir. Qapanlıdan, Qaracəmirlidən gələn adamlara qoşulan xeyli tamaşaçı Adıgözəl oğlu Cabbar haqqında deyilənlərə etiraz əlaməti olaraq səhnəyə hücum edir. Aləm bir-birinə dəyir, hətta ölən və yaralananlar da olur.

1930-cu ilin yayında Cabbar Məmmədəliyevi yenidən Gəncə türməsinə salıb başlayırlar sorğu-suala. İstədikləri cavabı ala bilmədikləri üçün bir ay o kameradan bu kameraya, bu kameradan o kameraya atırlar. Amma Şamxor NKVD-sinin rəisi Vasili Yakofidinin köməyi ilə yenidən xilas olur.

1937-ci ilin sentyabrında Cabbar kişi üçüncü dəfə həbs ediləndə buna çox soyuqqanlılıqla yanaşır. Fikirləşir ki, Şamxor NKVD-sinin rəisi Vasili Yakofidi bu dəfə də onu xilas edəcək. Qohumlar da narahatlıq keçirmirlər. Cabbarın bacıları yemək hazırlayıb əvvəl gedirlər Şamxora, Vasili Yakofidini tapa bilmirlər, gəlirlər Gəncəyə. Türmənin qabağındakılar onlara deyirlər ki, indicə bir maşın dustaq apardılar, orada bu qiyafədə bir nəfər kişi sağa-sola boylanıb dedi ki, mənim adım Cabbardır, Şamxorun Qapanlı kəndindənəm, dalımca gələn olsa, deyin ki, Bakıya apardılar.

Türmə rəsmisi də deyilənləri təsdiqləyir. Bacılar kor-peşman geri qayıdırlar... Cabbar da atası Adıgözəl kişi kimi o gedən gedir.

Cabbar Məmmədəliyev həbs ediləndə oğlu Adıgözəl Kirovabadda (Gəncə) Kənd Təsərrüfatı İnstitutunun (indi ADAU) tələbəsi idi, həm də şəhərdəki musiqi məktəbinin tar sinfində oxuyurdu. 1937-ci ilin dekabr ayında NKVD-çilər onu musiqi məktəbində tapa bilməyəndə birbaşa instituta gəlirlər. İnstitutun rektoru ilə birlikdə Adıgözəlin olduğu auditoriyaya girib deyirlər.

- Məmmədəliyev Adıgözəl Cabbar oğlu kimdir?

Birinci cərgədə əyləşən Adıgözəl ayağa qalxır.

Gələn nümayəndə üzünü rektora çevirib:

- O, "xalq düşməni"nin oğludur, bu gündən institutdan xaric olunmalıdır" - deyir.

Beləliklə, 1937-ci ilin noyabrında "xalq düşməni"nin övladı kimi Adıgözəli institutdan və musiqi məktəbindən, bacısı Xavəri isə Tibb Texnikumundan və komsomol sıralarından xaric edirlər.

Cabbar Adıgözəl oğlu sovet quruluşuna qarşı mübarizə aparan qaçaqlarla əlaqəsinə görə Bakıda fövqəladə üçlüyün qərarı ilə "xalq düşməni" elan edilərək mülkü müsadirə olunmaqla güllələnir.

1953-cü ildə Stalinin ölümündən sonra Azərbaycan SSR Xalq Daxili İşlər Komissarlığı üçlüyünün 1868-ci il təvəllüdlü, atasını çar, özünü isə sovet hökuməti güllələyən Qapanlı kəndinin sakini Məmmədəliyev Cabbar Adıgözəl oğlunun işinə dair 10 sentyabr 1937-ci il tarixli qərara yenidən baxılır və SSRİ Ali Soveti Rəyasət Heyətinin "1930-1940-cı illər və 50-ci illərin əvvəllərində baş vermiş repressiya qurbanları barədə ədalətin bərpasına dair əlavə tədbirlər haqqında" 16 yanvar 1989-cu il tarixli fərmanının I maddəsinə uyğun olaraq o, bəraət alır.

***Rəhman SALMANLI,
"Azərbaycan"***

# IDEA-nın təşəbbüsü ilə "Məsuliyyətli ekoturizm bələdçiliyi" üzrə təlim proqramı təşkil olunub




IDEA İctimai Birliyinin təşəbbüsü, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bələdçiləri Assosiasiyasının birgə əməkdaşlığı ilə ekoloji məsuliyyətli turizm prinsiplərinə uyğun fəaliyyət göstərən tur operatorları və ekoturizm bələdçiləri üçün təlim sessiyaları təşkil olunub.

Üçgünlük proqramı əhatə edən təlim ölkəmizdə ekoturizmin inkişafına dəstək vermək, milli parklar və digər xüsusi mühafizə olunan təbiət ərazilərində fəaliyyət göstərən bələdçilərin peşəkar bilik və bacarıqlarını artırmaq məqsədi daşıyır.

IDEA-nın ətraf mühit üzrə ekspertlərinin metodiki tövsiyələri əsasında tərtib olunan təlim proqramı ekoloji davranış və məsuliyyətli turizm qaydalarının tətbiqi, təbiətin mühafizəsi, biomüxtəlifliyin qorunması, turizm sektorunda fəaliyyət göstərən müvafiq qurumlar arasında əməkdaşlığın inkişaf etdirilməsi və turistlərin ekoloji məsuliyyətinin daha da artırılmasına yönəlmiş müxtəlif mövzuları əhatə edib.

AZƏRTAC xəbər verir ki, yanvarın 13-də təlim proqramı və biliklərin qiymətləndirilməsi mərhələsini müvəffəqiyyətlə başa vuran 28 iştirakçıya sertifikat təqdim olunub.

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihələr həm yerli, həm də beynəlxalq səviyyədə ekoloji çağırışlara yönələn dayanıqlı mexanizmlərin formalaşdırılması baxımından müstəsna əhəmiyyət kəsb edir.

IDEA tərəfindən ətraf mühitin mühafizəsi, biomüxtəlifliyin zənginləşdirilməsi, yaşıllıqların artırılması və iqlim dəyişikliyi ilə mübarizə istiqamətində atılan addımlar, xüsusilə Xəzər dənizi və ölkəmizdə biomüxtəlifliyin qorunması üzrə həyata keçirilən layihələr ardıcıl xarakter daşıyır. Həmin təşəbbüslər cəmiyyətin, xüsusilə gənc nəslin ekoloji maarifləndirilməsi vasitəsilə ətraf mühitə məsuliyyətli münasibətin formalaşdırılmasına və ekosistemin gələcək nəsillər üçün qorunub-saxlanılmasına xidmət edir.


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


AZƏRBAYCAN
Bir gün də yubanma olmamalıdır!
Prezident İlham Əliyev yeni dövlət programının icrasına hərtərəfli nəzarətin tam təmin ediləcəyini bildirdi
Abşeron: altı "qara qızıl", üstü "yaşıl enerji"
Böyük qayıdış bu il də sürətlə davam edəcək
Yol infrastrukturuna görə MDB-də 1-ci, dünyada 24-cü
Azərbaycan beynəlxalq sərmayələr üçün etibarlı və strateji məkandır

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*



## B İ L D İ R İ Ş

"Baku Kids Company" Qapalı Səhmdar Cəmiyyətinin səhmdarlarının 29.12.2025-ci il tarixli 3 saylı ümumi yığıncağının qərarına əsasən, cəmiyyətin təşkilati-hüquqi forması dəyişərək "Baku Kids Company" Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilmişdir.


**Beynəlxalq iqtisadi icmal**

# "Yorğan" davası



Başda ABŞ olmaqla Qərb tərəfindən yeni dünya düzəninin qurulması siyasəti qlobal səviyyədə gərginliyə səbəb olub. Çünki bu prosesə qarşı əks cəbhədən ciddi müqavimət var. Getdikcə daha çox ölkə Qərbin dünya siyasətini dizayn edən qərarları ilə barışmaq istəmir.

Tərəflərin isə öz mövqelərindən geri çəkilmək fikirləri yoxdur. Dünya ABŞ Prezidenti Donald Trampla Rusiya Prezidenti Vladimir Putinin Alyaska görüşünə ümidlə baxırdı. Çoxları gözləyirdi ki, bu görüş tərəflər arasında olan fikir ayrılığını aradan qaldıracaq, Ukrayna-Rusiya müharibəsində ən azından atəşkəs əldə olunacaq. Aradan keçən dövrdən bəri heç bir yumşalma görünmür. Əksinə, siyasi ritorikalar daha da sərtləşib, tərəflər duruş gətirməkdə qərarlı olduqlarını nümayiş etdirirlər.

Çinlə ABŞ arasında olan münasibətlər də, yumşaq desək, yaxşı deyil. Xüsusən ABŞ-nin ÇXR-ə qarşı tətbiq etdiyi ticarət rüsumları və Tayvanla bağlı mövqeyi Çində ciddi mənfi reaksiya doğurur. ABŞ-nin Tayvanı silahlandırmaq cəhdi isə "Asiya nəhəngi"ni daha çox qəzəbləndirir. Buna cavab olaraq Çin hətta Tayvanın ətrafında geniş hərbi təlim keçirib. Məqsəd rəqiblərinə Tayvanın müstəqilliyinin tanınmasına imkan verməyəcəyini nümayiş etdirmək olub.

Ənənəvi müttəfiqlər olan ABŞ və Avropa arasında da ciddi fikir ayrılığı var. Bu ayrılıq iki əsas səbəbdən qaynaqlanır. Birincisi, ABŞ-nin əsas ticarət partnyorlarına qarşı ticarət rüsumlarının tətbiqidir. İkincisi isə, ABŞ-nin Qrenlandiya ilə bağlı iddialarıdır. Avropa ölkələri hətta ABŞ-nin adanı işğal etdiyi halda ona qarşı hərbi müqavimət göstərəcəklərini gizlətməyiblər. ABŞ-nin Venesuela prezidenti ilə bağlı keçirdiyi əməliyyat və Nikolos Maduranın həbsi isə Latin Amerikası ölkələri ilə Amerika arasında münasibətləri kəskinləşdirib.

Beynəlxalq müstəvidə baş verən bu siyasi gərginlik dolu hadisələr sonda qlobal ticarətin zəifləməsinə səbəb olub. Belə vəziyyət davam edərsə, dünyada müşahidə edilən iqtisadi azalma daha da ciddi fazaya keçə bilər. Üstəlik, dünya əhalisinin sürətlə artması da qlobal iqtisadiyyata təsirsiz ötüşmür. Yəni artan tələbat daha çox məhsul istehsalını tələb edir. Ancaq yeni dünya düzəninin qurulması ilə başlanan siyasi gərginlik, qarşılıqlı sanksiyalar və tətbiq edilən məhdudiyyətlər buna imkan vermir.

Bu gün heç kimə sirr deyil ki, ABŞ-nin Venesuelada keçirdiyi hərbi əməliyyatın məqsədi ölkənin neftə artan tələbatını Yaxın Şərqin deyil, qonşu ölkənin resursları hesabına ödəməkdir. Bu həm iqtisadi cəhətdən, həm də təhlükəsizlik baxımından Amerikanın maraqlarına cavab verir. Digər tərəfdən bu ölkənin neftinə nəzarət ABŞ-yə Çinə qarşı ciddi təsir mexanizmi əldə etməyə imkan verir. Belə ki, ÇXR-in enerjiyə olan tələbatında Venesuela mühüm rol oynayır. Venesuelanın isə neft ehtiyatları o qədər zəngindir ki, ondan istifadə edib dünya neft birjalarında qiyməti müəyyənləşdirmək mümkündür.

Qonşu İran da Venesuela kimi dünyanın ən böyük neft ehtiyatlarına sahibdir. Amma İran neftinə qarşı qoyulan məhdudiyyətlər ölkə iqtisadiyyatını çökdürərək tez-tez əhali arasında sosial narazılıqlar yaradır. İİR-də baş verən son hadisələr bu narazılıqların nə qədər ciddi olduğunu növbəti dəfə təsdiqləyir. Qonşu ölkənin belə vəziyyətə nə vaxtacan müqavimət göstərəcəyi isə hələ ki, məlum deyil.

Dünyada baş verən bu və digər geosiyasi proseslərə diqqət yetirdikdə görürük ki, əsas hədəf qlobal neft bazarlarına təsir mexanizmlərini ələ keçirməkdir. Çünki enerji sahəsində fəaliyyət göstərən nüfuzlu mütəxəssislərin hesablamalarına görə, qarşıdakı illərdə neftə olan tələbat sürətlə artacaq. Kim bu enerji resurslarına nəzarəti ələ keçirsə, söz sahibi də o olacaq. Bu isə o deməkdir ki, bütün bu davalar "yorğan" üstündədir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Seçkilərdə iştirak hüququndan məhrum edilən Fransanın "Milli Birlik" partiyasının nümayəndəsinin apellyasiya şikayətinə baxılacaq

Fransanın "Milli Birlik" partiyasının Avropa Parlamentindəki parlament köməkçiləri ilə bağlı iş üzrə apelyasiya prosesi yanvarın 13-dən fevralın 12-dək Paris Apellyasiya Məhkəməsində keçiriləcək. Bu iş çərçivəsində partiyanın Milli Assambleyadakı deputat qrupunun sədri Marin Lö Pen yenidən məhkəmə qarşısına çıxacaq.

AZƏRTAC xəbər verir ki, Marin Lö Pen ümidli olduğunu bildirib. "Bu, yeni məhkəmə instansiyasıdır, yeni hakimlər var. İşə bir növ sıfırdan baxılacaq. Mən hakimləri günahsız olduğuma inandırmağa ümid edirəm", - deyə o, mətbuata açıqlamasında vurğulayıb.

Marin Lö Pen əlavə edib ki, müdafiə strategiyası dəyişməz qalır: "Yeganə müdafiə xətti həqiqəti deməkdir. Birinci instansiyada olduğu kimi, apellyasiya mərhələsində də eyni yolu tutacağam və ümid edirəm ki, bu dəfə daha yaxşı eşidiləcəyəm".

"Milli Birlik" partiyasının lideri Jordan Bardella isə bildirib ki, Marin Lö Penin 2027-ci il prezident seçkilərində namizədliyinə mane ola biləcək hər hansı hökm demokratiya üçün son dərəcə narahatedici olar. Onun sözlərinə görə, demokratiya xalqın azad seçimini, heç bir maneə və ya qeyri-səmimi müdaxilə olmadan qərar vermək hüququnu nəzərdə tutur. Jordan Bardella bir daha Marin Lö Penə tam dəstəyini ifadə edib: "O, şübhəsiz ki, günahsızlığını sübut edəcək".

Partiya sədri qeyd edib ki, birinci instansiyada olduğu kimi, bu dəfə də Marin Lö Penlə razılaşma əsasında məhkəmə prosesində şəxsən iştirak etməyəcək. Bununla belə onunla gündə bir neçə dəfə əlaqə saxlayacaq və prosesin gedişinə nəzarət edəcək. Jordan Bardella həmçinin partiyanın iki əsas siması arasında siyasi fikir ayrılığının olmadığını vurğulayıb. O, 2027-ci il prezident seçkilərində namizədliyini irəli sürməyəcəyini, hədəfinin baş nazir vəzifəsi olduğunu bir daha diqqətə çatdırıb.

Xatırladaq ki, birinci instansiya məhkəməsində çıxarılan hökmə əsasən, Marin Lö Pen seçkilərdə iştirak hüququndan məhrum edilib.

# Soyuq havalar ürək sağlamlığı üçün təhdid yarada bilər



Önümüzdəki günlərdə paytaxt Bakı ilə yanaşı, ölkənin digər bölgələrində də hava şəraitinin kəskin dəyişəcəyi, temperaturun aşağı düşəcəyi, sulu qar və qar yağacağı proqnozlaşdırılır. Belə hava şəraiti təkcə nəqliyyatda və gündəlik yaşamda çətinliklər yaratmır, eyni zamanda insan sağlamlığı üçün də ciddi risklər ortaya qoyur.

Bir çox insan soyuq havanın yalnız üşütmə və mövsümi xəstəliklərə səbəb olduğunu düşünsə də, əslində, qış mövsümü ürək üçün səssiz, lakin ciddi sınaq dövrüdür. Temperaturun aşağı düşməsi ürəyin fəaliyyətinə birbaşa təsir göstərir və infarkt riskini əhəmiyyətli dərəcədə artırır. Məhz buna görə də havaların soyuması fonunda ürək sağlamlığının qorunması daha aktual və həyati əhəmiyyət daşıyan məsələyə çevrilir. Statistik məlumatlar da göstərir ki, temperaturun aşağı düşməsi ilə infarkt və digər ürək problemləri əhəmiyyətli dərəcədə artır. Bu səbəbdən qış mövsümündə ürək sağlamlığına xüsusi diqqət yetirmək həyati əhəmiyyət daşıyır.

Soyuq hava orqanizmdə bir sıra müdafiə mexanizmlərini işə salır. Bədən istiliyini qorumaq üçün qan damarları daralır, qan dövranı dəyişir və ürək əvvəlkindən daha çox işləməyə məcbur qalır. Bu əlavə yük xüsusilə ürək xəstəliyi olan insanlar üçün ciddi təhlükə yaradır. Qan damarlarının daralması qan təzyiqinin yüksəlməsinə səbəb olur ki, bu da ürək əzələsinə düşən gərginliyi artırır. Nəticədə sinə ağrıları, təzyiq dəyişiklikləri və hətta qəfil infarkt riski meydana çıxır. Qış aylarında ürəyin daha sürətli və güclü işləməsi bəzən insanlar tərəfindən hiss olunmur, lakin bu səssiz gərginlik ciddi fəsadlara yol aça bilər.

Qış mövsümündə infarkt riskinin artmasının əsas səbəblərindən biri də qan laxtalanmasının güclənməsidir. Soyuq hava qanın qatılığını artırır, bu isə damarların tutulma ehtimalını yüksəldir. Xüsusilə susuzlaşma bu prosesi daha da sürətləndirir. İnsanlar soyuq havada daha az susadıqlarını düşündükləri üçün kifayət qədər su içmirlər, lakin bu, qanın daha qatı hala gəlməsinə və ürək-damar sisteminə əlavə yük düşməsinə səbəb olur. Bundan əlavə, qış aylarında fiziki aktivliyin azalması və daha ağır, yağlı qidaların qəbul edilməsi də ürək sağlamlığına mənfi təsir göstərir.

Soyuq havanın təsiri yalnız fizioloji deyil, eyni zamanda həyat tərzi ilə də bağlıdır. Günlərin qısalması, açıq havada hərəkətin azalması, infeksion xəstəliklərin artması ürək-damar sisteminə əlavə risk yaradır. Tənəffüs yolları infeksiyaları zamanı orqanizm iltihabi proseslərlə mübarizə aparır və bu, ürəyin işini daha da çətinləşdirir. Mütəxəssislərin fikrincə, qış aylarında infarktların artması təsadüfi deyil. Araşdırmalar soyuq aylarda ürək tutmalarının 37 faiz artdığını ortaya qoyub. Bu rəqəm qış mövsümündə profilaktik tədbirlərin nə qədər vacib olduğunu bir daha sübut edir.

Qış aylarında infarktın simptomları bəzən digər mövsümlərlə müqayisədə daha gizli və ya fərqli şəkildə özünü göstərə bilər. Ən çox rast gəlinən əlamət sinə ağrısı və ya sıxılma hissidir. Bu ağrı sinənin mərkəzində və ya sol tərəfində təzyiq, yanma və ağırlıq kimi hiss oluna bilər. Bəzi hallarda ağrı bir neçə dəqiqə davam edir. Müddətin uzanması ciddi xəbərdarlıq siqnalıdır. Soyuq havada damarların daralması səbəbindən bu ağrı həm fiziki fəaliyyət zamanı, həm də istirahət halında daha şiddətli ola bilər.

Sinə ağrısı ilə yanaşı, nəfəs darlığı da qışda infarktın əsas əlamətlərindən biridir. Soyuq havada gəzərkən və ya pilləkənlə qalxarkən qəfil nəfəs çatışmazlığı hiss edilə bilər. Ürək kifayət qədər səmərəli işləmədikdə ağciyərlərdə maye toplanır və bu da nəfəs almağı çətinləşdirir. Əgər nəfəs darlığı qəfil baş verirsə və heç bir ciddi fiziki səy olmadan yaranırsa, bu vəziyyət dərhal tibbi müdaxilə tələb edir. Təəssüf ki, qış aylarında insanlar bu simptomları tez-tez soyuqdəymə və ya yorğunluqla səhv salırlar.

Ürək tutması zamanı ağrı yalnız sinə ilə məhdudlaşmaya bilər. Ağrı qollara, çiyinlərə, boyuna, çənəyə, belin yuxarı hissəsinə və hətta qarın nahiyəsinə yayıla bilər. Xüsusilə qadınlarda bu əlamətlər daha az nəzərə çarpan formada ortaya çıxa bilər. Emosional stress və soyuğun yaratdığı damar daralması bu cür ağrıların şiddətini artıra bilər. Buna görə də soyuq havalarda bədəndə yaranan ağrılara və narahatlıqlara biganə yanaşmaq olmaz.

İnfarkt zamanı gecikmiş reaksiya vəziyyəti daha da ağırlaşdıra və sağ qalma şansını azalda bilər. Ağrının keçəcəyini düşünərək gözləmək ən böyük səhvlərdən biridir. Belə hallarda dərhal təcili tibbi yardım çağırmaq həyatı xilas edə bilər. Erkən diaqnoz və vaxtında müdaxilə infarktın fəsadlarını minimuma endirir və sağalma ehtimalını artırır. Qış aylarında ürək sağlamlığı ilə bağlı maariflənmə bu baxımdan olduqca vacibdir.

Soyuq aylarda ürəyi qorumaq üçün gündəlik həyatda sadə, lakin təsirli tədbirlər görmək mümkündür. Qat-qat və istilik saxlayan geyimlərdən istifadə bədən temperaturunu qoruyur və ürəyə düşən yükü azaldır. Çölə çıxmazdan əvvəl yüngül isinmə və dartınma hərəkətləri qan dövranını yaxşılaşdırır. Qəfil və ağır fiziki gərginlikdən, xüsusən qar kürəmək və ya soyuqda tələsmək kimi fəaliyyətlərdən çəkinmək tövsiyə olunur. Qidalanmada ağır və yağlı yeməklərin azaldılması, bol su içilməsi və mütəmadi hərəkət ürək sağlamlığını dəstəkləyir.

Xüsusilə ürək xəstəliyi olan insanlar üçün qış aylarında ehtiyat tədbirləri daha ciddi olmalıdır. Mütəmadi tibbi müayinələr, dərmanların vaxtında və düzgün qəbulu, simptomların yaxından izlənməsi böyük əhəmiyyət daşıyır. Sadalanan profilaktik tədbirlər minlərlə insanın həyatını xilas edə bilər.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3168
Sifariş 61

Qiyməti 60 qəpik